SAMİRƏ MƏMMƏDLİ

AZƏRBAYCAN CÜMHURİYYƏTİ BƏDİİ NƏSRDƏ

261333 Az
261334 Az
261335 Az

Az 2009
2118

SAMİRƏ MƏMMƏDLİ

AZƏRBAYCAN CÜMHURİYYƏTİ BƏDİİ NƏSRDƏ

monoqrafiya

89467

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

«Elm və Təhsil»
Bakı – 2009

ARXİV

Ш401.34.я9 + Т3(2А)7.я9

Elmi redaktoru və
ön sözün müəllifi:

Qara Namazov
filologiya elmləri doktoru, professor

Rəyçi:

Vaqif Sultanlı
filologiya elmləri doktoru, professor

Samirə Məmmədli.
Azərbaycan Cümhuriyyəti bədii nəsrdə.
Bakı, «Elm və təhsil» nəşriyyatı, 2009. – 180 səh.

Monoqrafiyada XX əsr bədii nəsrində Azərbaycan Xalq Cümhuriyyətinə (1918-1920) həsr olunmuş ədəbi-bədii örnəklər təhlil olunmuşdur.

4702000000
N - 098 - 2009 *Qrifli nəşr*

© Samirə Məmmədli, 2009
© «Elm və Təhsil», 2009

VƏTƏN SEVGİSİ İLƏ

Məlum olduğu kimi, Sovet siyasi rejimi dönəmində uzun illər Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasına ciddi yasaqlar qoyulduğundan yalnız Cümhuriyyət tarixi deyil, bu tarixi əks etdirən ədəbi-bədii örnəklər də öyrənilməmiş, hər hansı formada təhlilə cəlb olunmamışdır. Bu isə təbii olaraq ədəbi-mədəni fikir tarixində müəyyən boşluqların yaranmasına, milli-etnik yaddaşımızda ağ səhifələrin mövcudluğuna gətirib çıxarmışdır. Gənc ədəbiyyatşünas Samirə Məmmədlinin «Azərbaycan Cümhuriyyəti bədii nəsrdə» adlı monoqrafik tədqiqatı milli ədəbiyyatşünaslıqda yaranmış bu boşluğu doldurmaq baxımından diqqətə layiqdir.

Elmi-nəzəri təhlillərlə, analoji müqayisələrlə, orijinal, cəsarətli mühakimələrlə müşayiət olunan tədqiqat işində araşdırıcı Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrdən bu günədək olan zaman kəsiyində yaranmış milli bədii nəsr nümunələrini xronoloji müstəvidə izləmiş, bəhs olunan dövrün əks edildiyi hadisələri və tarixi şəxsiyyətləri dəyərləndirməyə çalışmışdır.

Monoqrafiyanın diqqəti çəkən məqamlarından biri burada ədəbi-bədii əsərlərin tarixi-siyasi hadisələrin fonunda təqdim olunmasıdır. Başqa sözlə, müəllif təhlilə cəlb etdiyi bədii örnəkləri tarixi qaynaqlarla müqayisəli şəkildə dəyərləndirməyə üstünlük vermişdir ki, bu da araşdırmanın əhatə dairəsini, elmi tədqiqat hüdudlarını genişləndirmişdir.

Monoqrafiyada Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı yazılan bədii nəsr örnəkləri əhatəli təhlilini tapmışdır. Tədqiqatçı janr fərqini nəzərə almadan Cümhuriyyət həyatının təcəssümü prinsipi ilə mövcud bədii əsərləri elmi-nəzəri təhlil süzgəcindən keçirmişdir.

Müəllif ilk öncə Cümhuriyyət dövründə yaranan ədəbi-bədii örnəkləri dəyərləndirmiş, bu əsərlərdə bəhs olunan dövrün bu və ya digər şəkildə bədii panoramını aşkarlamağa çalışmışdır. Şübhəsiz ki, Cümhuriyyətin tarixi o qədər də uzun bir zaman kəsiyini əhatə etmədiyi üçün bu dövrdə yaranan bədii örnəklər də kəmiyyət etibarı ilə zəngin olmamışdır. Tədqiqatçı bu məqamı yaddan çıxarmamış, həmçinin Cümhuriyyət dövründə qələmə alınan bədii örnəklərin yalnız estetik dəyər daşımadığını, sosial-siyasi mahiyyət kəsb etdiyini vurğulamaqla daha çox vətəndaşlıq mövqeyindən çıxış etmək məramı izləmişdir.

Monoqarafiyada rus sovet müstəmləkəçiliyi dövründə Cümhuriyyət tarixinin bədii nəsrdə təcəssümü məsələləri geniş təhlil obyektinə çevrilmişdir. Tədqiqatçı bu illərdə yazıb-yaratmış Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Mehdi Hüseyn, Əbülhəsən Ələkbərzadə, Süleyman Rəhimov, Mir Cəlal, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev və başqa yazıçıların əsərlərində bəhs olunan tarixin ayrı-ayrı məqamlarının canlandırılmasını diqqətlə incələmişdir. Onu da xatırlatmağa ehtiyac vardır ki, Sovet siyasi rejimi dönəmində yaranan bədii nəsr nümunələrində Cümhuriyyət tarixi birmənalı şəkildə bədii təcəssümünü tapmamışdır. Belə ki, bu dövrdə qələmə alınan əsərlərdə bolşevik məfkurəsinin məqsədli təbliği fonunda bir çox hallarda Cümhuriyyət tarixinə kölgə salınmışdır. Araşdırıcı bu məqamı nəzərdən qaçırmamış, sovet siyasi rejiminin sərt senzurası şəraitində yaranan bədii nəsr örnəklərində təhlil olunan problemin ifadə və inikas inkanlarını üzə çıxarmışdır.

Monoqrafiyada mühacirət ədəbiyyatı da diqqətlə izlənilmiş, Məhəmməd Əmin Rəsulzadə, Ümmülbanu (Banin), Məmməd Altunbay, Nağı Şeyxzamanlı və başqa müəlliflərin Cümhuriyyətlə bağlı yazdığı əsərlər tədqi-

qata cəlb olunmuşdur. Qeyd edək ki, mühacirətdə yaranan bu əsərlərin ilk dəfə tədqiqata cəlb olunması Cümhuriyyət həyatı ilə bağlı bir sıra qaranlıq məqamların üzə çıxarılmasına imkan verməkdədir.

Həmçinin tədqiqat işində Azərbaycanın yenidən müstəqilliyə qovuşduğu illərdə yaranan bədii nəsr nümunələrində Cümhuriyyət həyatının təsviri ətraflı şəkildə təhlil edilmişdir. Tədqiqatçı bu dövrdə yaranmış bir sıra nəsr nümunələrini, o cümlədən İsmayıl Şıxlının «Ölən dünyam», Çingiz Hüseynovun «Doktor N», Əlisa Nicatın «Mələklər və iblislər» romanlarını, Teyyub Qurbanın «Dönməzlik» povestini araşdırmaya cəlb etmişdir.

Onu da qeyd edək ki, monoqrafiya zəngin elmi-bədii faktlar və qaynaqlar əsasında qələmə alınmışdır. Müəllifin bəhrələndiyi mənbələrin bir qismi ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir.

İnanırıq ki, Samirə Məmmədlinin «Azərbaycan Cümhuriyyəti bədii nəsrdə» adlı monoqrafiyası yalnız ədəbi tənqidin deyil, geniş oxucu kütlələrinin diqqət və marağını cəlb edəcəkdir.

Qara Namazov
filologiya elmləri doktoru, professor

GİRİŞ

Azərbaycanın yenidən istiqlaliyyətinə qovuşması ilə cəmiyyətin ictimai-siyasi həyatında olduğu kimi, ədəbi-mədəni sferada da köklü dəyişikliklərin əsası qoyuldu. Ədəbiyyatın təkmetodluluqdan, ideoloji təzyiq və diktələrdən xilas olması onun inkişafı üçün şərait yaratdı. Belə ki, əvvəllər adları, əsərləri yasaq olunmuş bir çox sənətkarların yaradıcılıq irsinin öyrənilməsi üçün imkanlar açıldı. Son illərdə həyatının mühüm bir mərhələsini mühacirətdə yaşamış olan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Mirzə Bala Məmmədzadə, Hüseyn Baykara, Ümmülbanu (Banin), Almas İldırım, Abay Dağlı, Kərim Odər və digər sənətkarların yaradıcılıq irsinin öyrənilməsi sahəsində atılmış ciddi addımlar bunun canlı örnəyidir. Həmçinin əvvəllər yaradıcılıq irsi yanlış ideoloji müstəvidə araşdırılmış olan Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Əhməd Cavad, Ümgülsüm Sadıqzadə və digər yazıçı və şairlərin milli dəyərlər kontekstində öyrənilməsi məhz istiqlal məfkurəsinin işığında gerçəkləşmişdir. Onu da qeyd etmək lazımdır ki, son illərdə ayrı-ayrı ədəbi şəxsiyyətlərin yaradıcılıq irsinin öyrənilməsi ilə yanaşı, əvvəllər araşdırılmasına ciddi yasaqlar qoyulmuş tarixi dövrlərin, mərhələlərin, problemlərin tədqiq olunması istiqamətində də müəyyən addımlar atılmışdır. Xüsusilə, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrünün ədəbi-mədəni həyatının öyrənilməsinə artan maraq bu baxımdan diqqəti çəkməkdədir.

Bəşər sivilizasiyasının istənilən mərhələsində hər hansı bir xalqın tarixi taleyilə bədii yaddaşı üst-üstə düşəndə qeyri-adi bir fenomen baş verir. İnsanların tarixi

keçmişlərinə sahib çıxması, milli talelərini dərindən dərk edərək onu təsvirə çalışması və ən əsası, vahid ideya ətrafında birləşməsi, bir sözlə, tarixi vacibliyin yüksək bədii-fəlsəfi və milli şüur səviyyəsində qavranılışı «böyük ədəbiyyat»ın yaranması ilə şərtlənir.

Belə bir fenomen bədii yaddaşının tarixi islamdan da çox öncələrə gedən Azərbaycan xalqının klassik bədii düşüncəsində də baş verdi.

Milli bədii düşüncəmizin 1918-1920-ci illəri əhatə edən və tarixə intibah dövrü kimi daxil olan mərhələsi özünə qədərki bütün dövrləri özündə birləşdirərək yeni bir mərhələyə-son dərəcə milli, xəlqi, məxsusi və bir o qədər də qlobal, yetkin, kamil ədəbiyyat səviyyəsinə yüksəlir və «Ümumşərq ədəbiyyatı» ünvanını qazanır.

Milli-azadlıq duyğusu, istiqlal ideyası bu ədəbiyyatın əsasını təşkil edirdi. Bu məkanda azadlıq ideyası təkcə coğrafi mənada deyil, tarixi-bədii kontekstdə də dərk edilirdi və bu proses – etnik yaddaşa, milli tarixə qayıdış şəklində təzahür edir.

Milli istiqlal ideyalarının intişarı ilə, Azərbaycan Xalq Cümhuriyyətinin quruluşu və çöküşünə qədərki mərhələ tarixi baxımdan da uzun bir zaman müddətini əhatə etmirdi. Ancaq həmin dövrün tarix, ədəbiyyat, mədəniyyət və dövlətçilik anlayışımıza gətirdiyi töhfələr bir, ya da iki yüz ilə sığmayacaq böyüklükdə idi. Bu böyüklüyün fərqinə varıldığındandır ki, həmin tarix bizlərə yetmiş il yasaqlanır və Azərbaycan xalqının neçə minillik taleyində onun etnik yaddaşı, bədii-fəlsəfi təfəkkürü, milli mənlik şüuru, etik dəyərlərinin bu qədər vahid və sistemli şəkildə ortaya çıxdığı bir dövr tarix səhifələrindən silinir. Beləliklə də, Azərbaycan Xalq Cümhuriyyətinin bitdiyi, sovet imperiyasının qurulduğu tarix ötən əsrin 20-ci illərinin başlandığı tarix hesab olunur. Arada qalan iyirmi üç ayın tarixini yaradan və çiyin-

lərində daşıyanlar vətən xaini damğası ilə damğalanır, o dövrü əks etdirən sənədlər saxtalaşdırılır və bu tarix düz yetmiş il ərzində təhrif olunmuş şəkildə təbliğ edilir.

Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti həyatının bədii ədəbiyyatda təsvirinin yenidən qovuşduğumuz müstəqillik dövründə tədqiqinə ciddi ehtiyac duyulmaqdadır.

Bütün dövrlərin ictimai-siyasi hadisələrinin mövcud dövrün bədii ədəbiyyatında əks olunması prizmasından çıxış etsək, milli istiqlal mücadiləsi tarixinin qaranlıq səhifələrinin aşkarlanması və uzun illər sovet ideologiyasının «vətən tarixi» deyə təbliğ etdiklərinin təkzib etmək üçün bunun gərəkli olduğunu demək olar.

Ümumiyyətlə, ayrı-ayrı ədəbi şəxsiyyətlərin ədəbiyyatın inkişafındakı rolu, onların bu irəliləyişdəki təkanları danılmazdır. Milli istiqlal ədəbiyyatında özünəməxsus yer tutan və talelərinə mühacirlik ömrü yazılan elə şəxsiyyətlərimiz var ki, Cümhuriyyət tarixinin öyrənilməsi baxımından onların əsərləri mühüm əhəmiyyət kəsb edir. Cümhuriyyət ədəbiyyatını yaradan və tənzim edən Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir bəy Hacıbəyov, Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminli məhz belə münəvvər şəxsiyyətlərdəndir. Onların Cümhuriyyət ədəbiyyatı kontekstində tanıtmağa və müdafiə etməyə çalışdıqları bir türk obrazı var – özünü bilən, özünə güvənən, bəşəri dəyərlərə bağlı, islami düşüncənin ən gözəl döyüşçüsü olan, hürriyyəti üçün hər şeydən keçən, vətəninə və ulusuna son dərəcə bağlı bir türk obrazı. Bunun üçün yorulmadan proqramlar hazırlayıb həyata keçirən bu ədəbi şəxsiyyətlərin ən böyük arzusu – dünya coğrafiyasına yayılan türkləri vahid Turan dövləti adı altında birləşdirmək idi.

Eləcə də, türkçülük, turançılıq və islamçılıq ideyalarının həmin dövrün bədii nəsrində inikası xüsusilə araşdırılmağa dəyər hesab olunur.

Ümumi müddəalar şəklində göstərilən bütün bu məsələlər yaradıcılıq süzgəcindən keçirərək tədqiq etmək mümkündür.

Bu ümumi xülasə «Azərbaycan Cümhuriyyətinin bədii nəsrdə təcəssümü» mövzusunun nə dərəcədə aktual olduğunu göstərməkdədir.

Monoqrafiyanın elmi yeniliyi hər şeydən əvvəl, bu mövzuda ilk dəfə olaraq ciddi, sistemli tədqiqat əsərinin yazılması ilə bağlıdır. İndiyədək Azərbaycan Xalq Cümhuriyyəti dövrü bu və ya digər şəkildə tədqiqat obyektinə çevrilsə də, bu dövrün bədii ədəbiyyatda təcəssümünə diqqət yetirilməmiş, bu sahədə hər hansı bir tədqiqat əsəri yazılmamışdır. Xüsusilə, ədəbiyyatşünaslıq kontekstində bu səpkidə tədqiqat aparılmamışdır.

Monoqrafiyanın elmi yeniliyini səciyyələndirən cəhətlərdən biri bəhs olunan problemin ayrı-ayrı mərhələlər fonunda təhlilə cəlb olunmasıdır. Bu cür yanaşma mövzunun tədqiqinin bütünlüklə əhatə olunmasına imkan vermişdir.

Monoqrafiyada sovet dövrü Azərbaycan nəsrində Cümhuriyyət həyatının bədii əksi ciddi şəkildə incələnmiş, həmin illərdə sovet ideoloji stereotiplərinin qəlibləri çərçivəsində yaranmış əsərlərdə mövzu ilə bağlı məqamların üzə çıxarılmasına çalışılmışdır.

Tədqiqat işində ilk dəfə olaraq Azərbaycanın istiqlaliyyət əldə etməsindən sonra yazılmış roman, povest və hekayələrdə Cümhuriyyət dövrünün bədii təcəssümü problemi araşdırılmışdır.

Monoqrafiyada Azərbaycan mühacirət ədəbiyyatında yaranan bədii nəsr nümunələrində Cümhuriyyət həya-

tının təcəssümü ciddi şəkildə araşdırılmışdır. Bütün bunlar əsərin elmi yeniliyini şərtləndirən məqamlardır.

Monoqrafiyanın yazılmasının əsas məqsədi Azərbaycan bədii nəsrində Cümhuriyyət dövrünün təcəssümünün tədqiq edilib üzə çıxarılmasıdır. 1918-1920-ci illərdə, sovet məkanında və nəhayət, çağdaş dövrümüzdə Azərbaycan Cümhuriyyətinin bədii və elmi həllini tapmaq üçün o dövrə qədərki konsepsiyaları, eləcə də həmin dövrdə mövcud olan fikirləri müqayisəli tədqiqata cəlb etmək əsas məqsədimizə xidmət edir.

Monoqrafiyada Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bədii ədəbiyyatda təcəssümünü araşdırmaq məqsədilə bir sıra vəzifələrin həyata keçirilməsinə çalışılmışdır: Belə ki, tədqiqat işində Azərbaycan Xalq Cümhuriyyəti mövzusu bədii nəsr kontekstində geniş və sistemli şəkildə araşdırılmış, türkçülük, turançılıq və islamçılıq ideyalarının inikası izlənilmiş, bədii düşüncədə istiqlal mücadiləsi tarixinə baxış və münasibət nəzərdən keçirilmişdir. Bununla yanaşı, Azərbaycan mühacirət ədəbiyyatında yaranmış bədii nəsr nümunələrində Cümhuriyyət həyatının təcəssümünə diqqət yetirilmişdir. Eyni zamanda, Azərbaycan nəsri kontekstində Cümhuriyyət dövrü tarixi şəxsiyyətlərinin bədii obrazı məsələsi səciyyələndirilmişdir.

Tədqiqatın əsas obyekti Azərbaycan bədii nəsrində cümhuriyyət mövzusunun təcəssümü məsələsidir. Azərbaycan ədəbiyyatı üçün qlobal və özünəməxsus hadisə olan Azərbaycan Cümhuriyyətinin həmin dövr üçün aktual olan bir sıra müəlliflərin yaradıcılığında nə dərəcədə əks olunması tədqiqatın başlıca obyektidir.

Əsas tədqiqat predmeti müxtəlif müəlliflərin bədii və elmi yaradıcılıqları olmaqla, lazım gəldikcə onların daxil olduqları və formalaşdıqları kontekstə də müraciət edilmişdir.

Cümhuriyyət dövrü milli istiqlal məfkurəsi və onun bədii ədəbiyyatda təcəssümünü tədqiq edən bir sıra araşdırmalar yaranmışdır. Xüsusən, ötən əsrin doxsanıncı illərindən başlayaraq, yəni Azərbaycanın müstəqillik qazanmasından sonra bu səpkidə yazılan araşdırmalar Cümhuriyyət ədəbiyyatının özünəməxsusluğunun üzə çıxarılması və ədəbi aləmə məlum olmayan bu dövrün bədii irsinin və sənədli materiallarının aşkar edilməsi baxımından təqdirəlayiqdir.

Onu da qeyd edək ki, keçmiş sovet məkanında bu mövzu ya ümumiyyətlə araşdırma obyekti olmamış, ya da ki, qeyri-obyektiv yanaşmalarla səciyyələnmişdir. Yalnız tarixi yaddaşa qayıdış dövründə Azərbaycan Cümhuriyyətinin qaranlıq səhifələri vərəqlənərək o zamankı mühacirlərin yazdığı tarixi əsərlər aşkarlanmış və yeni mərhələdə həmin dövrün həqiqətlərini əks etdirən monoqrafik tədqiqatlar meydana gəlmişdir. Bu baxımdan «Azərbaycan istiqlal mübarizəsi tarixi» (Hüseyn Baykara, 1992), «Milli Azərbaycan hərəkatı» (Mirzə Bala Məmmədzadə, 1992), «Azərbaycan milli hərəkatı» (Xaqani Məmmədov, 1996), «Azərbaycan Demokratik Respublikası» (Nəsib Nəsibzadə, 1990) və s. kimi əsərlər xüsusilə diqqəti cəlb edir.

Milli istiqlal dövrünün ədəbi yöndə araşdırılması baxımından Azərbaycan ədəbiyyatşünaslığında mühüm rolu olan görkəmli alim Yaşar Qarayevin xidmətləri əvəzsizdir. O, «Tarix: yaxından və uzaqdan» əsərində yaxından və uzaqdan görünən tarixlərin işığında cümhuriyyət yaddaşımıza da nəzər salır və müxtəlif başlıqlar altında həmin dövrün mümtaz şəxsiyyətlərinin ədəbi portretlərini yaradır (86).

Kollektiv nəşr olan «Azərbaycan Xalq Cümhuriyyəti» (19) monoqrafiyasında da həmçinin, onun işlədiyi «Cümhuriyyətə qədərki ədəbiyyatda milli intibah və

istiqlal ideyaları», «İstiqlal düşüncəsi xalq cümhuriyyəti dövründə: ədəbiyyat, dil, mədəniyyət quruculuğu» (ədəbiyyat hissəsi) hissələri xüsusi tədqiq manerası ilə seçilir.

Cümhuriyyət dövrü ədəbiyyatının araşdırıcılarından olan filologiya elmləri doktoru Aybəniz Əliyeva (Kəngərli) «Azərbaycan (1918-1920) qəzetində ədəbiyyat məsələləri» adlı tədqiqatında «Azərbaycan» qəzeti fonunda həmin mərhələnin ictimai-siyasi və mədəni həyatını, eləcə də mövcud dövrün poeziya və ədəbi tənqid məsələlərini öyrənməyə çalışır.

Bundan başqa, Alxan Bayramoğlunun «Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat» adlı monoqrafiyasında cümhuriyyət dövrünün bizə məlum olmayan bədii nümunələrini arayıb aşkar edir. Eyni zamanda həmin dövrün tarixi-ictimai və siyasi xülasəsini verir. Tapılan nümunələr içərisində Seyid Hüseynin «Yaşıl qələm» mükafatına layiq görülmüş «Həzin bir xatirə. İsmailiyyə» hekayəsi dərin lirizmi və psixoloji təsvir mahiyyəti ilə seçilir (32).

Cümhuriyyət məfkurəsinin ədəbi-nəzəri fikirdə populyarlaşmasında filologiya elmləri doktoru, professor Vaqif Sultanlının «Azərbaycan mühacirət ədəbiyyatı» monoqrafiyası, «Azadlığın üfüqləri» adlı məqalələr toplusu və digər səpkili araşdırmalarını da qeyd etmək lazımdır. Bu araşdırmalarda Cümhuriyyət ədəbiyyatının diqqətdən kənarda qalmış bir qolu – mühacirətdə yaranmış ədəbi-nəzəri irsi tədqiqata cəlb edilmişdir. Tədqiqatçının milli istiqlal mücadiləsi tarixində istər irəli sürdükləri ideologiya, istərsə də yaratdıqları bədii nümunərlə əvəzsiz rol oynayan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Mirzəbala Məmmədzadə, Məhəmməd Əmin Rəsulzadə, Abay Dağlı, Ümmülbanu (Banin) və başqa müəlliflər haqqındakı araşdırmaları yeniliyi və orijinallığı ilə diqqəti cəlb etməkdədir.

Uzun illər ətrafında gedən mübahisələrin səngimək bilmədiyi və ədəbi ictimaiyyətə Qurban Səid imzası ilə təqdim olunan «Əli və Nino» tarixi romanı ilə bağlı araşdırmalarda da Cümhuriyyət həyatının bədii nəsrdə təcəssümünə diqqət yetirilmişdir.

İlk dəfə 1973-ci ildə Vyanada alman dilində nəşr olunan bu romanın müəllifinin kimliyi məsələsi təkcə Azərbaycanda deyil, bütün dünyada, o cümlədən qonşu ölkələrdə də böyük polemika mənbəyidir. Bir qisim tədqiqatçı bu əsərin tarixi romanlar ustası Yusif Vəzir Çəmənzəminliyə, digər qismi isə Məhəmməd Əsəd bəy və Qurban Səid imzası ilə əsərlər yazan, 1920-ci ildə Bakını tərk etmiş, milliyyətcə yəhudi olan Leo Nessinbauma məxsus olduğunu iddia etməkdədir.

Bu istiqamətdə gedən araşdırmalarda gərgin və davamlı axtarışları ilə seçilən ədəbiyyatşünas – alim Pənah Xəlilovun «Əli və Nino problemləri» kitabı xüsusi maraq doğurur (76). Bu kitab müəllifin «Əli və Nino» romanı haqqında müxtəlif illərdə mətbuat səhifələrində dərc olunmuş məqalələrin məcmusudur.

Burada, Pənah Xəlilov əsərin Yusif Vəzir Çəmənzəminli qələminin məhsulu olması fikrini maraqlı faktlarla təsdiq etməyə çalışır. Nizami Cəfərov, Tofiq Hacıyev, Şamil Cəmşidov, Vasim Məmmədəliyev və Anar kimi nüfuzlu alim və yazıçılarımız da Pənah Xəlilovun elmi araşdırmalarını dəstəkləyərək «Əli və Nino» romanının məhz Yusif Vəzir Çəmənzəminliyə məxsus olduğunu təsdiqləyirlər.

Əsərin atribusiyasının monoqrafiyanın tədqiqat obyektinə bir o qədər dəxli olmasa da, roman məzmun cəhətdən araşdırmamızla birbaşa əlaqələnir. Xüsusən, romanda bariz şəkildə meydana çıxan cümhuriyyət həyatının təsviri, iki bir-birinə zidd milli xarakterin qarşıdurması, Asiya və Avropa mədəniyyətlərinin müqayisəsi və

əsərin ümumi ruhuna hakim olan milli-azadlıq çağırışları kimi aktual problemlər nəzər nöqtəsinə çevrilmişdir.

Məzmunundan daha çox müəlliflik məsələsi böyük rezonans doğuran «Əli və Nino» professor Pənah Xəlilovun araşdırmalarının nəticəsi olaraq Azərbaycan ədəbi ictimaiyyətinin əksər nüfuzlu nümayəndələri tərəfindən artıq öz həllini tapmış məsələ hesab olunsa da, bu istiqamətdəki düşüncələrin daha da aydınlanması və müəyyənlik qazanması üçün Məhəmməd Əsəd bəy və Qurban Səid imzalı digər 14 əsərin geniş tədqiqinə böyük ehtiyac vardır.

Eləcə də, Cümhuriyyət dövrü ədəbi-tarixi şəxsiyyətlərinin və onların yaradıcılıqlarının xarakterik cizgilərini özündə əks etdirən «Ağaoğullar» (Vilayət Quliyev), «Məmməd Əmin Rəsulzadə» (Şamil Qurbanov), «Məhəmməd Əmin Rəsulzadənin ədəbi dünyası», «Ağır yolun yolçusu» (Vaqif Sultanlı), «Məmməd Əmin Rəsulzadə» (Nəsiman Yaqublu), «Nəriman Nərimanov dünyası» (Şamil Qurbanov), «Nəriman Nərimanovun yaradıcılıq yolu» (Teymur Əhmədov), «Ədəbiyyatla yaşayıram» (Tofiq Hüseynoğlu) kimi monoqrafik tədqiqatlara yeri gəldikcə istinad edilmişdir.

Monoqrafiya nəzəri istinad baxımından Azərbaycan ədəbiyyatının analoji materiallarına, müxtəlif sayda nümunələrinə əsaslanır. Bu baxımdan xüsusən 1918-1920-ci illərdən bu yana Azərbaycan, eləcə də mühacirət ədəbiyyatşünaslığında problemlə bağlı ən səciyyəvi fikir və mülahizələrə müraciət olunmuşdur.

Monoqrafiyanın əsas təhlil metodu tarixi və tipoloji müqayisə üsuludur. Bundan başqa, yeri gəldikcə sistem-struktur, analitik təhlil metodundan da istifadə edilmişdir. Monoqrafiya nəzəri yanaşma üsulları və əldə olunan qənaətlərlə Cümhuriyyət dövrünün ictimai-siyasi və ədəbi-kulturoloji həyatı ilə bağlı araşdırma aparan müəlliflər

üçün mənbə ola bilər. Tədqiqatın nəticələrindən ali məktəblərin humanitar fakültələrində yardımçı vəsait kimi istifadə oluna bilər. Onun nəticələrindən həmçinin, Cümhuriyyət tarixi, ədəbiyyatı, mədəniyyəti ilə məşğul olan mütəxəssislər də faydalana bilər. Eyni zamanda, tədqiqat işi gənc nəslin milli özünüdərk prosesində əhəmiyyətli rol oynaya bilər.

Monoqrafiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. «Cümhuriyyət dövrü və bədii nəsr» adlı I fəsildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış bədii nəsr nümunələrində yenicə müstəqillik əldə etmiş milli dövlətimizin ictimai-siyasi və mədəni-kulturoloji həyatının təcəssümünə diqqət yetirilmişdir. Tədqiqatın «Sovet dövrü bədii nəsrində Cümhuriyyət mövzusu» adlanan II fəslində sovet hakimiyyəti dönəmində Cümhuriyyət həyatının bədii nəsrdə təcəssümü təhlil obyektinə çevrilmişdir. Monoqrafiyanın «Azərbaycan mühacirət ədəbiyyatında Cümhuriyyət dövrünün bədii əksi» adlı III fəslində mühacirətdə yaranan bədii nəsr və memuar nümunələrində Cümhuriyyət həyatının təsviri araşdırılmışdır. Tədqiqatın «Müstəqillik dövrü bədii nəsrində Cümhuriyyət həyatının bədii əksi» adlı son fəslində isə Azərbaycanın yenidən istiqlaliyyət əldə etməsindən sonra yaranmış nəsr nümunələrində Cümhuriyyət həyatının bədii əksi təhlil olunmuşdur.

I FƏSİL

CÜMHURİYYƏT DÖVRÜ VƏ BƏDİİ NƏSR

Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) təşəkkülü xalqımızın ictimai-siyasi və mədəni-kulturoloji həyatında mühüm rol oynamışdır. Azərbaycanın uzun illər davam edən Çar Rusiyasının müstəmləkəçilik zəncirindən xilas olması milli dövlətçilik məfkurəsinin formalaşmasına müəyyən imkanlar yaratmışdır. Bu dövrdə Dağlıq Qarabağda erməni separatizminin qarşısı alınmış, Azərbaycanın ərazi bütövlüyü təmin edilmiş, milli ordu yaradılmış, Bakı Dövlət Universitetinin əsası qoyulmuş, türk dili rəsmi dövlət dili elan edilmiş, bir sıra ciddi iqtisadi islahatlar aparılmışdır. Şübhəsiz ki, qısa bir zaman kəsiyində bu qədər qlobal problemlərin həll edilməsi ciddi, gərgin fəaliyyətin sayəsində mümkün olmuşdur.

Tarixdə çox nadir hallarda belə məqamlar olur: «Millətlərin təkamülü ümumi surətdə hadisələrin doğurduğu zərurətlərlə həmahəng olmaq nəticəsində baş verir. Xarakterləri çox mühafizəkar olsa da bu hal onların sürətli təkamülünə kafi dərəcədə sədd çəksə, çox müddətli inqilab baş verə bilər...» (111, s. 233).

XX əsrin əvvəllərində belə bir fenomenal hadisə məhz Azərbaycan xalqının tarixi taleyində baş verdi. Bilmək çətindir, bu şəraiti tarix özü hazırlamışdı, yoxsa cəmiyyətin ruhundan doğan bir tendensiya idi, hər halda şüurlar da gözlənilməz çevriliş baş vermişdi. Hər təbəqə, hər qövmdən millətin nümayəndəsi, özünüdərk, milli şüurun formalaşması yolunda sürətlə irəliləyir, vətəninə, xalqına, milli-tarixi yaddaşına sahib çıxırdı. İstiqlal mü-

cadiləsinin yorulmaz mücahidlərindən Mirzə Bala Məmmədzadə bu prosesi belə dəyərləndirir: «Bir millət bir nəhrə bənzər ki, daimi surətdə axmaqla bərabər sahillərinin hərəkətsizliyinə görə zahiri bir müvazinət mənzərəsi yaradır. İnsan nəhrinin axışına istiqamət verən amillər irsiyyət, din, adət, qanun, əxlaq, tərbiyə kimi sərt müxtəlif nüfuz şəbəkələrindən yaranır. Bu nizamlar böyük miqyasda dəyişikliyə uğramadıqca, ictimai inqilablar güclə seziləcək dərəcədə zəif olur...» (111, s. 233).

a) Dövrün siyasi - ideoloji mənzərəsi

Rusiyada baş verən inqilablar, xüsusən Romanovlar sülaləsinin devrilməsi ilə nəticələnən burjua inqilabının təkanverici dalğaları getdikcə bütün dünyaya yayılmaqda idi. Sanki, çevrilişlər, üsyanlar, milli-azadlıq hərəkatları hegemon dövlətlərin tərkibinə birləşdirilərək hürr yaşama haqları əllərindən alınan millətlərin və xalqların öz milli varlıqlarını dərk etmələri, dövlət sərhədlərini müəyyənləşdirərək müstəqilliklərinin digər dövlətlər tərəfindən tanınması tələblərilə çıxış etmələri üçün əlverişli zəmin yaranmışdı.

Dünya iqliminə hakim kəsilən milli qurtuluş havası Asiyada, o cümlədən, Azərbaycanda da duyulmaqda idi. Hələ XIX əsrin ikinci yarısından Azərbaycanın müxtəlif bölgələrində başlanan qaçaqçılıq hərəkatları milli özünüdərkin və milli qurtuluşun ilk simptomları kimi təzahür edirdi. Qaçaq Məmməd bəy Kavaler, Dəli Alı, Qaçaq Nəbi və b. çar istibdadına qarşı uğurla mübarizə aparan və təhkimçi kəndlilərin hüquqlarını müdafiə edən əsil xalq qəhrəmanları idi.

İlk baxışda olduqca ibtidai və passiv görünən, lakin təhtəlşüuri şəkildə millət olma gerçəyini idrak edərək «millət» adlı nəhri hərəkətə gətirən bu xalq hərəkatının

89467

M.i ...ov adına Azərbaycan Milli Kitabxanası

müxtəlif tərəfləri «Azəri ədəbiyyatında azadlıq mübarizəsi» (170), «Milli istiqlal mücadiləsi tarixi» (169), «Azərbaycan milli hərəkatı» (109) kimi tarixi qaynaqlarda tədqiqat obyektinə çevrilmişdir.

Etnik və tarixi birliyini dərk edən xalqın ruhundan doğan bu mübarizə iyirminci əsrin əvvəllərində daha da kəskin forma aldı. O günlərdə Azərbaycan öz tarixinin təbəddülatlarla, təzadlarla dolu dövrünü yaşayırdı. Ölkənin mövcud ictimai-siyasi mühiti, ziddiyyətli baxışların kəskin mübarizəsi, müxtəlif iqtisadi maraqların toqquşması, milli mənlik axtarışları ilə səciyyələnirdi.

Xaotik şəkildə cərəyan edən hadisələr – bir tərəfdə neft sənayesinə artan maraqlarla xarici kapitalistlərin Bakını istila etmək niyyətləri, digər tərəfdə bolşevik, menşevik basqınları, qardaş qırğını təhlükəsi yerli əhalini çıxılmaz vəziyyətdə qoymuşdu. Bir çox inqilabların eyni vaxtda baş verməsilə səciyyələnən bu dövr tarixə intibah dövrü kimi daxil oldu. AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev bu barədə yazırdı: «Məhz ehkamdan ayrılan müasir humanitar intibah üç ünvana qayıtmaq əlaməti altında baş verir: tarixə, ekologiyaya, bir də milli soya, kökə, təkrarsızlığa! Vahid ümumbəşəri tərəqqidə bu üç sabit, üç əzəli istiqamətlərin üçünün də mənşəyi və ünvanı Demokratik Cümhuriyyətin istiqlal təlimində var» (86; s.6).

Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Üzeyir bəy Hacıbəyov, Əhməd bəy Ağaoğlunun öndərliyi ilə meydana çıxan bu təlim milli-tarixi yaddaşa qayıdış, humanizmə söykənən islami dəyərlərin mübadiləsi, türkçülük, demokratik cümhuriyyətin yaradılması kimi mütərəqqi müddəalar əsasında həyata keçirilirdi.

Əsrin əvvəllərində istiqlal məfkurəsinin geniş vüsət alması və həmin dövrdə baş verən ictimai-siyasi hadisələr

Azərbaycanda müxtəlif istiqamətli partiyaların yaranması ilə şərtləndi.

«Hümmət» (1904), «Difai» (1905), «Rusiya müsəlmanları ittifaqı» (1906) və «Türk ədəmi-mərkəziyyət müsavat partiyası» (1911) yaranan müxtəlif yönümlü ilk partiyalar idi. Mirzə Bala Məmmədzadə həmin dövrün siyasi həyatına nəzər salarkən üç ictimai-siyasi cərəyan müəyyənləşdirir: mürtəce mühafizəkarlar, millətçi liberallar və inqilabçı millətçilər. İctimai-siyasi hərəkatın inqilabçı millətçilər qolunu gənclər təşkil edirdi ki, onlar da rus inqilabçıları ilə birlikdə çarizmi devirmək uğrunda mübarizə yolunu tutmuşdular. Lakin bu siyasi istiqamətlər içərisində Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan yeganə partiya «Türk adəmi mərkəziyyət Müsavat partiyası» idi. Böyük türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyi missiyası firqənin əsas bəyannaməsi idi.

Mirzə Bala Məmmədzadə çağdaş araşdırıcılar üçün də monumental mənbə mahiyyətində olan «Milli Azərbaycan hərəkatı» əsərində bu firqənin Azərbaycan mühitindəki yerini müəyyənləşdirir: «Azərbaycan qədim zamanlardan bəri tarixin müxtəlif dövrlərində özünəməxsus siyasi varlıq göstərərək müstəqil dövlət halında yaşamışdır. Azərbaycan xalqı isə millət olmaq üzrə zəngin bir kültür həyatına malik bulunmuş və bu bunun məntiqi nəticəsi olaraq siyasi bir ideal daşımışdır. Bu ideala tərcüman olan milli Azərbaycan «Müsavat» xalq firqəsi 1918-ci ildə milli Azərbaycan cümhuriyyəti istiqlalının elanındakı təşəbbüsü, bu təşəbbüsün fikirdən işə keçirilməsi yolundakı fəaliyyəti və nəhayət qızıl rus istilasına qarşı milli mücadilə işində göstərdiyi yolgöstərənliyi ilə bütün azərbaycanlıların biricik siyasi təşəkkülüdür» (111; s. 209).

Nəsib Nəsibzadənin də «Azərbaycan Demokratik Respublikası» (1990) kitabında qeyd etdiyi kimi, sözü gedən dövrdə Azərbaycanın türk yurdu kimi varlığı məsələsi həll olunurdu. Bu da publisistik müstəvidə geniş əks-səda doğurmuşdu.

Soy axtarıcılığı, milli xarakterin qorunması məsələsi o zamanın publisistikasının ortaya qoyduğu ən böyük problemlərdən idi ki, bu da bütövlükdə Cümhuriyyət məfkurəsinin ictimai-siyasi həyatda olduğu kimi, ədəbi-kulturoloji arenada da aparıcılığını şərtləndirirdi...

Həmçinin, Azərbaycan aydınları bu illərdə İranda baş qaldıran milli-azadlıq hərəkatında yaxından iştirak edir, mübarizənin başçılarından Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri və başqaları ilə sıx əlaqələr saxlayır, İran inqilabını Azərbaycan mətbuatında geniş işıqlandırırdılar. Hətta M.Ə.Rəsulzadə İstanbulda «Türk ocağı»na daxil olduqdan sonra «Türk yurdu» dərgisində «İran türkləri» başlığı altında silsilə yazılar dərc etdirmişdir.

Bu dövrü milliyyət əsri adlandıran öndər ideoloq M.Ə.Rəsulzadənin Azərbaycan mühitində yeri və mövqeyi inkarolunmaz idi. «Rəsulzadə bütün ömrüm boyunca Şərq dünyasında rastlaşmadığım, mübaliğəsiz söyləyə biləcəyim fövqəladə namdar insanlardan biri idi. Məhəmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin inam bəsləyən fədakar mücahid və örnək bir insandı. Böylələrinə zamanımızda və hələ bizim tərəflərdə rastlaşmaq həmən-həmən imkansız olduğu kimi, bütün dünyada da rastlanmaz...» (161, s. 147) deyən İran məclisinin sabiq başqanı Seyid Həsən Tağızadə dahi siyasətçinin xarakterik cizgilərini əks etdirir. Onun «Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi» (Bakı,

1991), «Azərbaycan davası» (Bakı, 1998), «Stalinlə ixtilal xatirələri» (Bakı, 1991), «Azərbaycan Cümhuriyyəti» (Bakı, 1990), «Azərbaycan problemi» (Ankara, 1996), «Kafkasya türkləri» (İstanbul, 1993), «İstiqlal məfkurəsi» («Azadlıq» qəzeti, Bakı, 1990), «Qurtulan şərqin simvolu» (Azərbaycan, Ankara, 1981), «Milli Azərbaycan hərəkatının xarakteri» («Azərbaycan yurd bilgisi», İstanbul, 1934) kimi irili-xırdalı bütün əsərlərində iri planda görünən Azərbaycan və onun istiqlalı obrazı var. O, bütöv bir kütləni arxasında apara biləcək əsil xalq qəhrəmanı idi. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Yaşar Qarayev onun bu rolunu qiymətləndirərkən «...milləti nə Avropa mənşəli bolşevizm»in, nə də qatı mistik təəssüblü «idtihadçılığ»ın cazibəsi cəzb elədi. Ölkə və xalq hərəkatının öz ruhundan, əsəbindən və ağrısından süzülən milli təlimin və şəxsiyyətin – suveren, azad Azərbaycan ideyasının və Məmməd Əmin Rəsulzadənin ardınca getdi! ADR belə yarandı» - deyir (86, s. 666-667).

Dünyanın çeşidli alim və tədqiqatçılarından professor Qothard Coske, professor Berd Fon Mende, professor Herbert Duda, professor Herbert Yanski, doktor Bertold Spuler, Cohannes Benzinq, professor Tadeuş Svyatoçovski Azərbaycan Xalq Cümhuriyyətini yüksək qiymətləndirir və həqiqi millətçiliyin düzgün qavranılması kimi xarakterizə edirdilər.

Həqiqətən də, məhz Məhəmməd Əmin Rəsulzadənin sayəsində Azərbaycanda «azadlıq və «istiqlal» milli ruh mərtəbəsində dərk edilir, yaşam idealı kimi qavranılırdı. Heç də təsadüfi deyil ki, 1920-ci il mayın 28-də Azərbaycanın hərbi xadimi Cahangir bəy Kazımbəylinin söylədiyi kimi, «28 May» yalnız Milli istiqlalımızın elanı günü kimi deyil, Vətən uğrunda şəhid verdiyimiz gün kimi də tariximizə yazılmalıdır. 28 May günündə

düşməklə cavabımız ruhumuzun yüksəkliyinin, mənəvi qalibiyyətimizin simvolu olacaqdır» (22, s.78).

Əsrin əvvəllərində çap olunmağa başlayan və ictimai-siyasi, milli mənəvi problemləri öz səhifələrində işıqlandıran «Şərqi-rus», «Hümmət», «Həyat», «Molla Nəsrəddin», «Füyuzat», «İrşad», «İqbal», «Tərəqqi», «Təkamül», «Yoldaş», «Məktəb», «Dirilik» və b. mətbuat orqanları fəaliyyət göstərirdi.

Cümhuriyyət illərində Azərbaycan milli mətbuatı formalaşmağa başladı. «Azərbaycan» (rusca və türkcə), «Azərbaycan hökumətinin əxbarı», «İstiqlal», «Al bayraq», «Bəsirət», «İttihad», «Gələcək», «Şeypur», «Doğru yol», «El», «Əfkari-nəfisə», «Xalq sözü», «Hürriyyət», «Zəhmət səsası», «Məşəl» və b. qəzet və dərgilər nəşr olunmuşdur ki, bunun qırx ikisi türkcə, qırx dördü rusca, altısı isə digər dillərdə yayımlanmışdır.

Mirzə Bala Məmmədzadə «İstiqlal» qəzetində (18 yanvar 1920) dərc etdirdiyi «Tutduğumuz yol» adlı məqalədə müstəqil Azərbaycan dövlətçiliyinin əhəmiyyətinə diqqəti yönəldir.

Eləcə də, Azərbaycan Xalq Cümhuriyyəti dövründə müsəlman aləmində yeganə universitet olan Bakı Dövlət Universiteti (1919) təşkil olundu, Hüseyn bəy Mirzəcamalov və Məhəmməd Ağayevin təsisçiliyi ilə Azərbaycanda ilk muzey «İstiqlal» muzeyi açıldı.

Hələ 1917-ci ilin aprelində yaranan «Müsəlman mühərrir və ədiblər cəmiyyətinin» missiyasını 1919-cu ildə təşkil olunan «Yaşıl qələm» ədəbi birliyi davam etdirir.

Yaşıl rəng cəmiyyətin islam rəngi kimi götürülmüşdür. Əli bəy Hüseynzadə «Qırmızı qaranlıqlar içində yaşıl işıqlar» deyərkən də yaşılı imperiya qaranlıqları içərisində parlayan cümhuriyyət işığı kimi görürdü.

1918-ci ilin mart hadisələri mətbuatda böyük rezonans doğurmuşdur. R.İsmayılov daşnakların törətdikləri qırğınlar haqqında 1923-cü ildə nəşr olunan «Azərbaycan tarixi» kitabında olduqca obyektiv məlumat verir. Lakin Mustafa Quliyev «Türk qadınının yolu» kitabında oktyabrın Azərbaycan düşmənlərinin 1918-1920-ci illərdə baş verən hadisələri antisovet qiyamının yatırılması kimi dəyərləndirir.

Nəsiman Yaqublu yazır ki: «Mart hadisələri Milli istiqlal mübarizəsinin nəinki məqsədində, eləcə də forma və vasitələrində keyfiyyət dəyişikliyi yarandı» (161, s. 46) M.Ə.Rəsulzadə mart hadisələri haqqında «Unudulmaz faciə» adlı məqaləsində bəhs edirdi.

Eləcə də, Cümhuriyyət mətbuatının digər nümayəndələri Məhəmməd Hadi, Əhməd Cavad, Abdulla Şaiq, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Üzeyir bəy Hacıbəyov kimi görkəmli sənətkarlar Azərbaycan milli istiqlalını alqışlayan əsərlər yazırdılar. Ən geniş yayılmış kütləvi janr publisistika idi. Ədəbiyyatın ən güclü bir qolu milli azadlıq və müstəqillik, türkçülük ideallarını təbliğ edirdi. Eyni zamanda, bəzi təsadüfi müəlliflərin – Əliqulu Qəmküsar, Hacı Kərim Sanılının Azərbaycan hökumətini tənqid edən əsərləri də bolşevik mətbuatı səhifələrində çap olundu, lakin belə nümunələr səciyyəvi deyildi və kəmiyyətcə də çoxluq təşkil etmirdi.

Mirzə Bala Məmmədzadə «İstiqlal» qəzetində (18 yanvar 1920) dərc etdirdiyi «Tutduğumuz yol» adlı məqalədə müstəqil dövlətçiliyinin əhəmiyyətinə diqqəti yönəldərək yazırdı:

«Tutduğumuz yol millət yoludur. Bizcə, bu yol olduqca müqəddəs, olduqca ilahidir...

Mədəniyyəti, ədəbiyyatı, sənəti, fənni, siyasəti bütün bu kimi nemətləri ölməz bir yaradıcılıq etmək üçün

məmləkəti və istiqlaliyyəti ümummillətə məxsus etməliyik. Bütün türkləri bu vətənin müsavi hüquqa malik oğlu görməkdən ötrü Azərbaycanı daxilən bir Cümhuriyyət, həm də bir Xalq Cümhuriyyəti halında qurmalıyıq» (118).

b) Cümhuriyyət həyatının sosial – psixoloji və mənəvi - əxlaqi təzahürü

Azərbaycan tarixinin şərəfli səhifələrindən birini təşkil edən Cümhuriyyət dövrü ədəbiyyatı (1918-1920-ci illər) mövzu, problem və üslub baxımından özünəməxsus çalarlara və keyfiyyətlərə malikdir. Bu özünəməxsusluq hər şeydən əvvəl, müstəqil dövlətçiliyin formalaşdırdığı ictimai-siyasi ab-havadan qaynaqlanmaqdadır. Qeyd edək ki, bu dövrdə «bədii məhsul məzmunca bir neçə əsas, aparıcı sosial mövzu ətrafında mərkəzləşirdi: bayraqdakı rənglərin – türklük, islam və müasirlik idealının mədhi, türk və islam tarixinin tərənnümü, çağdaş modeldə ilk müstəqil, suveren milli dövlətin dəstəklənməsi, onun yaranması salnaməsinin, milli dövlətçilik ideologiyasının ifadəsi, təsbiti, ordunun hərbi uğurlarının bədii təminatı; ermənilərin Qarabağ davası, Azərbaycanda dinc əhalinin vəhşicəsinə qətli və ərazilərin talan olunması, daşnakların Bakıda tarixi abidələri, elm və mədəniyyət ocaqlarını yandırması, 28-31 mart hadisələri, millətin türk keçmişinin və islam tarixində şəhidlik və qəhrəmanlıq səhifələrinin mədhi və yada salınması; şimaldan yaxınlaşan qara dumandan və vətənin başı üstünü almaqda olan təhlükədən doğan həyəcan və təşvişin ifadəsi» (19). Şübhəsiz ki, sadalanan mövzu və problemlər Cümhuriyyət dövrü ədəbiyyatının məzmun və formaca rəngarəngliyini və çox şaxəliliyini şərtləndirməkdədir.

Qeyd etmək lazımdır ki, «Azərbaycan nəsri Cümhuriyyət illərində özünəməxsus inkişaf yolu keçmiş, istər

ideya-problem, istərsə də bədii-estetik çalarları ilə seçilən bir çox sənət örnəkləri ortaya çıxarmışdır. Şübhəsiz ki, qısa bir dövr ərzində böyük nəsr nümunələrinin yarandığını iddia etmək yanlış olardı. Ancaq bununla belə Cümhuriyyət dövründə bədii nəsr öz təkamülünün yeni bir mərhələsinə daxil olmuş, ədəbiyyatımızın məzmun və forma baxımından bir çox bənzərsiz nümunələri məhz bu illərdə yaranmışdır» (123, I c. s.17). Yaranan nəsr nümunələri bir sıra sosioloji və bədii-estetik xüsusiyyətləri ilə diqqəti cəlb etməkdədir. Hər şeydən əvvəl, bu illərdə yaranan bədii nəsr nümunələrində Cümhuriyyət həyatının nə dərəcədə bədii təcəssümünü tapması maraq doğurur. Digər tərəfdən Cümhuriyyət illərində yaranan bədii nəsr nümunələri dövrün bədii-estetik düşüncə sistemini öyrənmək baxımından da diqqəti cəlb edir.

Şübhəsiz ki, Cümhuriyyət dövründə nəsr poeziya qədər inkişaf etməmişdir. Bu da təbiidir. «Məlum olduğu kimi, poeziya ilə müqayisədə bədii nəsr cəmiyyətdə hökm sürən ictimai-siyasi prosesləri qeyri-çevik formada əks etdirməyə meyllidir. Nəsrin qeyri-çevikliyi bir tərəfdən milli ədəbiyyatımızda şeir ənənələrinin güclü olması ilə bağlıdırsa, qarşı tərəfdən janrın poetikasından qaynaqlanmaqdadır. Bu amil özünü Cümhuriyyət dövrü nəsrində də aşkar büruzə verməkdədir. Belə ki, bəhs edilən dövrün bədii nəsr örnəkləri daha çox ənənəvi mövzulara üstünlük verməsi ilə səciyyələnir» (123, I c., s.17). Lakin bununla belə yaranmış mövcud bədii nəsr nümunələrində bu və ya digər şəkildə Cümhuriyyət həyatı inikasını tapdığından bütün bədii örnəklərin ənənəvi mövzularda yazıldığını söyləmək doğru deyildir.

Məlumdur ki, Azərbaycan ədəbiyyatı tarixinin digər mərhələləri ilə müqayisədə Cümhuriyyət dövrünün zaman baxımından qısa ömürlü olması bu illərdə sözün həqiqi mənasında böyük ədəbi nümunələrin yaranmasına

imkan verməmişdir. Ayrı-ayrı tədqiqatlarda doğru qeyd olunduğu kimi, «...zaman məhdudiyyəti səbəbindən Cümhuriyyət dövrü ədəbiyyatının bədii-estetik konsepsiyasının sonadək formalaşa bilməməsi bütövlükdə onun məzmununa və istiqamətinə təsirsiz qalmamışdır. Həmçinin Cümhuriyyətin süqutundan sonra cümhuriyyətçilik məfkurəsinin ciddi siyasi yasaqlarla üzləşməsi bu konsepsiyanın sonralar cücərə biləcək rüşeymlərini qeyri-münbit zəmin içərisinə almışdır. Lakin bununla belə nəsr nümunələrinin bəziləri zamanın nəbzini tutması, dövrün ruhunu əks etdirməsi, cərəyan edən hadisələrə aktiv reaksiya verməsi ilə seçilməkdədir» (123, I c.; 17).

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bədii nəsr nümunələrini yaradan yazıçılar müxtəlif ədəbi nəsli təmsil etməkdədir. Bu illərdə istər yaşlı, istər orta, istərsə də gənc nəsli təmsil edən yazıçılar yazıb-yaratmışlar. Əlbəttə, qısa bir zaman kəsiyini əhatə edən bir dövrün ədəbi prosesinin nəsillər kontekstində təhlilə cəlb olunması doğru hesab edilə bilməz. Elə buna görə də monoqrafiyada bəhs olunan dövrün ədəbiyyatında Cümhuriyyət həyatının təsviri ümumi şəkildə təhlilini tapmışdır. Bütövlükdə Azərbaycan Xalq Cümhuriyyəti illərində Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Seyid Hüseyn, Tağı Şahbazi və digər yazıçıların bədii örnəkləri daha çox maraq doğurmaqda və ədəbi-nəzəri fikrin diqqətini cəlb etməkdədir.

Mollanəsrəddinçi ədib Cəlil Məmmədquluzadənin bu illər yaradıcılığının məhsulu olan «Nigarançılıq», «Konsulun arvadı», «Xanın təsbehi», «Qəssab», «Rus qızı», «Zırrama» və başqa hekayələri dövrün ictimai-siyasi əhvali-ruhiyyəsini satirik-yumoristik səpkidə əks etdirən bədii nümunələr kimi diqqəti cəlb edir. «Müəllifin yaradıcılıq üslubunun bir növ davamı kimi səciyyələnən

bu hekayələrdə insanların şüurunda və cəmiyyətin ehkamlarında yaşamaqda olan köhnəliyin qalıqları və ifrat mühafizəkarlıq tənqid və ifşa hədəfinə çevrilmişdir. Bu əsərlər çarizmin yıxıldığı, müstəqil Azərbaycan dövlətinin qurulduğu dövrdə yazıçının dünyagörüşünü, ideya-estetik baxışlarını əks etdirməkdədir» (123, I c., s.17-18).

Qeyd edək ki, Cəlil Məmmədquluzadənin adı çəkilən hekayələrində («Konsulun arvadı», «Qəssab» və «Xanın təsbehi») cəmiyyətdə qadın azadlığı və onların ictimai həyatda iştirakı məsələlərinə toxunulmuşdur. Yazıçının bu dövr yaradıcılığında xüsusi yer tutan «Xanın təsbehi» hekayəsində Molla Münşinin kimsəsiz Pəri arvadı özünə sığə etməsi əhvalatı təsvir olunmuş və əhvalat fonunda «...bir tərəfdən cəmiyyətdə qadınların hüquqsuzluğu probleminin mövcudluğuna və bunun ağır mənəvi fəsadlarına diqqəti yönəltmiş, digər tərəfdən zamanı keçmiş olan sığəlik adətinə qarşı çıxmışdır. Hekayədə təsvir olunan əhvalatların Azərbaycanın Güneyində cərəyan etməsi də rəmzi səciyyə daşımaqdadır» (123, I c., s.18).

Cəlil Məmmədquluzadənin «Rus qızı» hekayəsində isə satirik obraz kimi düşünülmüş Qulam Hüseynin timsalında «...cəmiyyətdə cərəyan edən hadisələrdən xəbərsiz olan, milli-siyasi proseslərə qarşı biganə mövqeyi ilə seçilən obraz tipi yaradaraq onun daxili aləminin cılız təzahürlərinə diqqəti çəkmişdir» (123, I c., s. 18).

Cəlil Məmmədquluzadənin Cümhuriyyət dövründə yazdığı «Zırrama» hekayəsi bütövlükdə yazıçının yaradıcılığında xüsusi yer tutan bədii örnəklərdən biridir. Ədibin hekayə yaradıcılığından bəhs edən tədqiqatçıların əksəriyyətinin adı çəkilən hekayəyə bu və ya digər şəkildə istinad etməsi təsadüfi hesab edilməməlidir. «Yazıçının yaradıcılığında xüsusi yer tutan «Zırrama» hekayəsində milli əxlaqın mənfi xüsusiyyətlərini mənimsəmiş, daxili-mənəvi dünyasının eybəcərliyi ilə seçilən, rəftarı və hə-

rəkətləri gülüş və təəccüb doğuran ziyalı obrazı yaradılmışdır» (123, I c. s. 18). Belə bir əsərin Cümhuriyyət dövründə yaranması təsadüfi sayılmamalıdır. Məhz həmin illərdə cəmiyyət həyatında mənəvi-əxlaqi təmizlik probleminin aktuallıq kəsb etməsi, ədəbiyyatın bu məsələyə həssas münasibəti diqqətdən qaçırılmamalıdır.

«Molla Nəsrəddin» ədəbi məktəbinin digər görkəmli bir nümayəndəsi olan Əbdürrəhim bəy Haqverdiyevin bu dövr yaradıcılığının məhsulu olan «Şair» hekayəsi ədibin ədəbi axtarışlarının aparıcı xüsusiyyətlərini əks etdirməsi ilə diqqəti çəkir. Xatırladaq ki, Cümhuriyyət dövründə yarımçıq dərc olunan bu hekayə sonralar yenidən işlənərək «Mirzə Səfər» adı ilə oxuculara təqdim edilmişdir.

Bu illərdə daha çox dramaturgiya və poeziya sahəsində yazıb-yaratmağa üstünlük verən Cəfər Cabbarlının «Parapetdən Şamaxı yoluna qədər» adlı hekayəsi də Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai-siyasi həyatının bəzi məqamlarını öyrənmək baxımından maraq doğurur. Satirik-yumoristik üslubda qələmə alınmış hekayədə o illərdə nəşr olunan «Azərbaycan» qəzeti redaksiyasında çalışan müxbirlərin və digər əməkdaşların yolda yağışa düşmələri və bununla bağlı başlarına gələn macəralar bədii təcəssümünü tapmışdır. Satirik-yumoristik ruhu ilə seçilən hekayədə yazıçı şəhər rəhbərliyinin fəaliyyətini tənqid hədəfinə çevirmişdir.

Milli istiqlal ideyası ədəbiyyatımızın digər sahələrində olduğu kimi bədii nəsrdə də öz əksini tapırdı. «İsmailiyyə» (Seyid Hüseyn), «Əsrimizin Səyavuşu» (Məhəmməd Əmin Rəsulzadə), «Əsrimizin qəhrəmanları» (Abdulla Şaiq), «Sınıq qanadlar» (Ağababa Yusifzadə) və başqa əsərlər məhz bu qəbildəndir.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü bədii nəsrimizin adı çəkilən təkrarsız nümunələri içərisində yazıçı

Seyid Hüseynin «Həzin bir xatirə» və «İsmailiyyə» hekayələri özünəməxsus yerlərdən birini tutur. «Son dərəcə maraqla oxunan bu əsərlər əslində ənənəvi hekayədən daha çox xatirə üslubunda qələmə alınmışdır. Belə ki, müəllif Azərbaycanın siyasi-mədəni həyatında müstəsna rol oynamış İsmailiyyə binasının tarixçəsini incələmiş, bu tarixçənin istiqlal və azadlıq hərəkatı ilə bağlı məqamlarına diqqət yetirmişdir. Əslində İsmailiyyənin simasında yazıçı bütün ruhu və qəlbi ilə bağlı olduğu doğma Azərbaycanın obrazını yaratmışdır» (123, I c.s. 18-19).

Xatırladaq ki, Seyid Hüseynin hekayələri canlı müşahidədən qaynaqlandığına görə olduqca təsirli çıxmışdır. Belə ki, yazıçı bilavasitə İsmailiyyə binasının yandırılmasının, bu hadisələr fonunda Azərbaycan xalqının yaşadığı faciələrin şahidi olmuşdur. «Heyhat, İsmailiyyə yandırılmışdı. Səqfi tökülmüş, içərisindən xəfif bir tüstü çıxıyordu. Mübaliğəsiz deyirəm, həyatımda o qədər mütəəssir olmamışdım. Məyus bir halda onun dörd ətrafını gəzib dolaşdım. İçərisinə daxil oldum. Ənqazi üzərində əyləşib biixtiyar bir halda düşünməyə başladım. Fikirləşir, orada keçirilən gurultulu iclasları, məslək mübarizələrini birər-birər nəzərimdən keçiriyor, heç bir əsəri qalmayan müxtəlif təşkilatlar haqqında mühakimə ediyordum» (32, s. 220). Ona görə də əsər bədii formada qələmə alınsa da, yazıçının üslubunda publisistik ahəng özünü büruzə verməkdədir. «Yazıların daxili strukturunda bədii və publisistik çalarlar o qədər məharətlə qaynayıb qarışmışdır ki, onların sərhədlərini müəyyənləşdirmək mümkün deyildir» (123, I c. s.19).

Seyid Hüseynin «İsmailiyyə» hekayəsi aşağıdakı ibrətamiz sözlərlə tamamlanır:

«Bilirsiniz, İsmailiyyənin yandırıla bilmədiyini aləmə isbat edən bir həqiqət hankısıdır?

Azərbaycan parlamanı üzərində üç rəngli və səkkiz güşə yıldızlı təmuc üçün Azərbaycan bayrağı» (32; 222).

Qeyd edək ki, «İsmailiyyə» hekayəsinin bu sözlərlə bitirilməsi təsadüfi səciyyə daşımır. Seyid Hüseyn hekayədə qaldırdığı bu sözləri ilə əsərin ideya yükünü əks etdirmək məramı izləmişdir. Hekayədən doğan qənaətə görə, hər bir millətin taleyi və gələcəyi onun istiqlalı, müstəqil dövlətçiliyi ilə sıx bağlıdır və tarixdə yalnız istiqlal əldə etmiş dövlətlər və xalqlar öz müqəddəratlarını həll etmək qüdrətinə malik ola bilərlər. Yazıçının bu qənaəti Cümhuriyyət dövrünün Azərbaycan xalqının ictimai düşüncəsinə aşılamış olduğu istiqlal məfkurəsinin bədii təcəssümü kimi diqqəti cəlb edir.

Eləcə də, Məhəmməd Əmin Rəsulzadənin «Əsrimizin Səyavuşu» əsəri mövcud dövr bədii nəsr nümunələri içərisində özünəməxsus yer tutur. Süjet xətti mifoloji qaynaqlardan götürülən bu əsərdə əsas qəhrəman Səyavuş obrazıdır. Xalq Cümhuriyyəti Səyavuş obrazı vasitəsi ilə simvollaşır, necə ki, mifik xalq qəhrəmanı Səyavuş Südabənin mənfur ehtiraslarının qurbanı olmadı, eləcə də Xalq Cümhuriyyəti öz həqiqiliyi və saflığını mühafizə edə bildi.

XX əsrin əvvəllərində milli istiqlalçıların «türkləşmək, islamlaşmaq və müasirləşmək» çağırışlarına səs verənlərdən biri də məhz Abdulla Şaiq idi. İstiqlal, müstəqillik, türkçülük, turançılıq, azərbaycançılıq, milli dövlətçilik ideyaları digər həmkarları kimi bütün varlığı ilə milli məfkurəyə bağlı olan Abdulla Şaiqin də bədii-estetik idealına çevrildi.

Xüsusən, Birinci Cahan müharibəsi və onun acı nəticələri, milli özünüanlama, yad siyasətə milli məfkurə ilə qarşı durmaq, xalqların azadlığı və maariflənməsi kimi məsələlər ədibin cümhuriyyət dövrü nəsr yaradıcılığında öz inikasını tapdı.

Onun «İblisin hüzurunda» hekayəsi və «Əsrimizin qəhrəmanları» romanı bu cəhətdən xarakterikdir.

Yazıçı «İblisin hüzurunda» hekayəsində axıdılan bütün qanların, törədilən cinayətlərin baisi kimi iblisi göstərir. «...Əngin bir boşluq içərisində sakin kimi görünən yer kürəsi qalanlıqlar içində dalğın-dalğın yuvarlanırdı.

Bütün təbiətə, bütün aləmə hakim olan o şübhəli səssizliyə qarşı hər şey dilsiz, hər şey duyğusuzdu.

Bu anda uçurumlu, yalçın bir qaya başında qulaqları batıracaq qədər dəhşətli bir qanad çarpması, dalınca komandanlara məxsus «hazır!» deyə qalın və qorxunc bir səs gurladı. Ölüm qorxusu verən o səsin şiddət və heybətindən bütün dünya titrədi. Mühüm bir hadisə baş vermiş kimi hər yandan qorxunc teyflər səs gələn səmtə qaçır və o ağır sükutu ötə-bəridə eşidilən şiddətli qanad çarpması, bayquş ötüşünə bənzər iyrənc səslər pozur, ortalığı qara kölgələr titrədirdi...» (150, s. 77).

Bu təsvirdən də göründüyü kimi, Birinci Cahan savaşının dünyanı qana boyaması, saysız talanlara məruz qalan insanların ah-naləsi iblis əməli kimi qələmə verilir. Lakin əsərin əsas ideyası iblisin öz xəbis toxumlarını artıq XX əsr insanının mənəviyyatına səpməsi mövzusu üzərində qərarlaşır. Bu baxımdan «İblis»in nitqi maraq doğurur: «-Çalışqan oğullarım! Bu gün əldə etdiyimiz böyük müvəffəqiyyətlər sizin səy və qeyrətinizin nəticəsidir. İşlər gündən-günə istədiyimiz bir şəkil almaqda və böyük bir həyəcanla bəslədiyim arzular gözlədiyim çiçəkləri verməkdədir. Bu ilki tərəqqimiz mənə ümid etdiyimdən ziyadə ümidlər verir. Adəmin həyat səhnəsinə ayaq basdığı və bəni-insanları azdırmağa söz verdiyi gündən bəri belə bir müvəffəqiyyətə nail olmamışdır» (150, s. 77).

Dünyanın qanla çalxandığı bu dövrdə öz məqsədinə nail olmuş iblis öz havadarlarına istirahət vermək istəyir. İblis balaları bu barədə tərəddüd edərkən, İblisin hiyləgərlikdə, siyasətdə, fitnə-fəsad törətməkdə ən mahir oğlu Xənnas heç bir narahatlığa əsas olmadığını bəyan edir. O, mənəviyyatı pozulmuş, xaos içərisində yaşayan XX əsr insanının şəxsində insanlığını, şərəf və mənliyini unudaraq iblisə çevrilən insanların çox olduğunu söyləyir. Və dünyadan gətirdiyi bir nəfəri buna misal göstərir. O, yer üzünün bütün faciələrini «insan»ın gözü önündə canlandırır: «Göylər, tarlalar alov içində çatır-çatır yanırdı. Əli qılınclı bir yığın insancıqlar barbarlara məxsus bir tövrdə sürü-sürü məzlum insanları qabaqlarına qataraq qılıncdan keçirir, himayəsiz qalmış zavallı insanlar vəhşətlə bir-birinə soxularaq, yalnız başlarını gizlətməyə və bununla özlərini müdafiəyə çalışırdılar. Çoluq-çocuq çöllərə, meşələrə, daşlar altına sığınmış, ətrafı vəhşilərə belə dəhşət verəcək bir fəryad və şivən qaplamışdı» (150; s. 79). Belə bir dəhşətli mənzərə qarşısında insan oğlu laqeydliklə «Əcəb tamaşadir!» söyləyir.

İblis müharibə səfalətlərini yaşayan, ölən, əzilən, sürünən insanları ona göstərərək: - «Bunlar sənin bacı və qardaşlarındır və onların «sənin yardımına ehtiyacı var» (150, s. 79) - dediyi zaman insan oğlu: «xırda pulum yoxdur» - söyləyir.

Beləliklə, hekayə İblisin qalibiyyəti ilə bitir.

Yazıçının əsrin güzgüsünə çevrilən və bu kimi problemlərin daha geniş planda işləndiyi əsəri «Əsrimizin qəhrəmanları» romanıdır. Romanın bir hissəsi 1909-cu ildə yazılmış, «Gülzar» dərsliyində və «İqbal» qəzetində dərc olunmuşdur. Lakin daha sonra Süleyman Sani Axundov romanın Lermontovun «Zəmanəmizin qəhrəmanları» əsəri ilə eyniyyət təşkil etdiyini bildirdikdən sonra o, romanı yarımçıq qoyur. Sonralar Azərbaycan Xalq Cüm-

huriyyəti dövründə ədib yenidən həmin əsəri yazaraq tamamlayır. «Yazıçının doqquz il sonra yenidən bu əsərə qayıtmasının bir səbəbi də elə bu siyasi-ictimai olayların çevik dəyişməsi, milli-müstəqilliyin reallaşması imkanları və bu yolda gəncliyə olan ümidi, inamı idi. Odur ki, artıq sonrakı nəslin Zəki, Əhməd, Əşrəf kimi gənc nümayəndələri süjet mərkəzinə çəkilir» (139, s. 143).

Müxtəlif illərdə yazılması səbəbindən əsərdə iki mühüm məsələ – XIX əsrin sonu, XX əsrin əvvəlləri üçün xarakterik olan «atalar və oğullar» problemi və milli-azadlıq mübarizəsi ideyası ön plana çəkilmişdir.

Yazıçı romanın qələmə alındığı illərdə ictimai-siyasi, sosial-psixoloji mühitdə mövcud olan ziddiyyətləri üç müxtəlif meylin təsvirində əks etdirə bilmişdir. Əşrəf və onun təbəqəsindən olan varlı övladlarının şəxsində «Qərb mədəniyyəti»nin acı dalğası ilə vətən övladlarının uğradığı mənəvi düşkünlük, özünə yadlaşma bəlası, Əhmədin timsalında mənən tam təkmilləşməyən, yaşadığı dövrün konfliktləri və təzadları fonunda şəxsiyyətin daxili eroziyaya uğrayaraq sağlam mövqeyini itirməsi, nəhayət Zəki obrazı vasitəsilə millətin açıq fikirli, sağlam əqidəli oğullarının xalqın milli istiqlalı uğrunda apardığı dönməz mübarizə təcəssüm etdirilmişdir.

Milli istiqlal ədəbiyyatının sayılan araşdırıcılarından Əflatun Saraclı romanın mündəricəsini belə səciyyələndirir: «Əsrimizin qəhrəmanları» romanının 1918-ci ildə yazılan bölümlərində cahan savaşı, 1917-ci il inqilabı dövründə Azərbaycan gəncliyinin müəyyən bir təbəqəsinin həyatı, arzu və amalı, dünya-baxışı və əməlləri qələmə alınır.

...Bu bölmələrdə vətən, millət, azadlıq ideyaları, əxlaq və tərbiyə, maarif və məktəb məsələləri ilə qovuşuq verilir» (139; s. 110). Bu mənada Zəki, Əşrəf, Əhməd, Məhərrəm əmi, Ağamürsəl, İskəndər bəy, Mus-

tafa, Nəzakət, Rəmziyyə kimi surətlər kolliziyası romanda qoyulan problemlərin təsviri və həllində özünəməxsus rol oynayır.

Müəllif hadisələrin təsvir edildiyi illərdə, xüsusilə sahibkarlar cəmiyyətində mövcud olan, «atallar və oğullar» porodoksunu Ağamürsəl və Əşrəf obrazlarının timsalında göstərmişdir. Qeyri-sağlam mühitdə tərbiyə alan, hər gün kozinolarda əyyaşlığa qurşanan atasının yaratdığı ailə konflikti zəminində yaxşı oxuyan və gələcəkdə təhsilini davam etdirmək istəyən Əşrəfin istiqamətini və həyat fəlsəfəsini tamamilə dəyişir. Nəticədə o, mənəvi boşluğa sürüklənərək öz ucuz istəklərinin qurbanı olur. Məhərrəm əmi obrazının belə ailələr üçün söylədiyi fikirlər olduqca ibrətamizdir: «Sən bir ailə üzvü olduğun kimi müəyyən bir cəmiyyətin üzvü və vətəndaşısan. Bir ailə üzvünün etdiyi yaramazlıq ailə üzvlərinə nə qədər ziyan verərsə, onun yaramazlığı mənsub olduğu cəmiyyətə, yaşadığı mühit və ölkəyə də bir o qədər ziyanlıdır. Mənim sözlərim yalnız sizə aid deyil. Ümumiyyətlə bizim həyata olan bu yanlış görüşümüzü, bu böyük ictimai nöqsanlarımızı, bu çirkin tərbiyə və əxlaqımızı göstərmək və bununla gələcəyimizi gözümüz qarşısında canlandırmaq istəyirəm» (150; s. 180). Bu ictimai, milli, həyati vəzifəni anlamayan Ağamürsəl və oğlu Əşrəfin müdhiş sonu qocanın söylədiklərini bir daha təsdiq edir.

Romanda Əhməd surəti «vətən və millət» məfhumu barədə qətiyyən düşünməyən Əşrəflə həmvətənlərinin milli və mənəvi azadlığı uğrunda yorulmadan mətinliklə çarpışan Zəki xarakterinin kəskin toqquşduğu nöqtədə yaradılan obrazdır. Belə ki, o, hadisələrin başlanğıcında onu da öz arxasınca sürükləyən Əşrəfə uymayaraq yalnız elmlə məşğul olması oxucuda rəğbət oyadırsa, digər tərəfdən yaşadıqları mərhələnin ictimai-siyasi inqilablar

burulğanında azadlıq və qurtuluş naminə inqilabi mübarizəyə qoşulan Zəki ilə yollarını ayırdığı və elmini millətinin gələcək inkişafına yönəltmədiyi üçün xudbin xarakter təsiri bağışlayır. Hətta şöhrət və sərvət düşkünlüyü onu mənən elə bir bataqlığa düçar edir ki, özünün də edilən yardımlarla belə bir mərtəbəyə çatdığını unudaraq iş üçün yanına gələn gəncləri qovur.

Abdulla Şaiq Əhməd obrazının müstəqillik uğrunda gedən qaynar mübarizədən, vətən və millət dərdlərindən uzaqlaşmasını acı təəssüflə bildirir: «Əhməd çox dəyişmişdi. Onu nə ictimai işlər maraqlandırırdı, nə də xalqın, vətənin müqəddəratı. Sərvəti, şöhrəti artdıqca xalqa olan münasibəti də dəyişirdi. Onun ictimai şüuru inkişaf etməkdənsə gündən-günə geriləyirdi» (150, s. 251). İctimai-siyasi təfəkkürlərindəki təzad səbəbindən əlaqələri tamamilə kəsilən keçmiş iki dostun – Zəki və Əhmədin mükaliməsi bunu bir daha təsdiq edir. Zəkinin: «- Əhməd, sən xalqın oğlusan, - dedi, - belə bir fəlakətli gündə onu düşünməyən övlada nə ad vermək olar? Sənin vücudunun, biliyinin bu xalqa, bu ölkəyə bir faydası olmayacaqsa nəyə lazımsan?

...İnqilabçılardan uzaqlaşdın, siyasətdən yaxanı bir kənara çəkdin. Bu gün İran inqilab içində çırpınır. Bütün namuslu inqilabçılar İran xalqını əyyaş və müstəbid şahların pəncəsindən qurtarmaq üçün heç bir fədakarlıqdan çəkinmirlər» (150, s. 265-266) – deyərək onu qanlı üsuli-idarəni yıxmaqda mübarizəyə təşviq etməsinə qarşı Əhmədin: «Bura bax, dostluğumuz öz yerində, məslək öz yerində. Bir də hansı üsuli-idarə olur-olsun, mənim üçün nə fərqi var? Kim eşşək olsa, mən ona palanam» - cavabı onun simasında həmin dövrün daxilən naqis, əqidəsiz «ziyalı»larının acınacaqlı vəziyyətini aşkarlayır.

Əsrin əvvəllərində, Azərbaycan cümhuriyyətinə gedən yolda baş qaldıran inqilabi hadisələr, milli azadlıq

meylləri «Əsrimizin qəhrəmanları» romanının Zəki obrazında tam həllini tapır. Müəllif burada, millətin azad gələcəyinin nə olduğunu bilən və bu yolda hər cür əsarətə qarşı mübarizə aparan qəhrəmanın timsalını yaratmışdır. Zəki digər həmyaşıdlarına nisbətən daha dərin ictimai-siyasi təfəkkürə malik bir gəncdir. Bu cəhət onun Əşrəf və Əhmədlə həyata və siyasətə dair söhbətlərində özünü göstərir. Əşrəf sərvəti, Əhməd isə elm və ixtisası üstün tutarkən, Zəki bunlarla yanaşı ictimai şüuru və əxlaqı vacib sayıb deyir ki: «Bu olmayınca əşrəflərin sərvəti, əhmədlərin elmi və ixtisası, dənizdəki dalğalar üzündəki köpüklərdən başqa bir şey deyildir!» (150, s.197).

Azadlıq uğrundakı haqlı mübarizəsinə görə Moskva Universitetindən qovulan Zəki böyük həsrətlə: «Ey minlərlə gənci öz qucağında bəsləyən bilik ocağı, sənin başında azadlıq bayrağının dalğalandığı günü görsəydim!» (150; s. 208) - deyir. Onun sonrakı inqilabı fəaliyyəti Bakı və İranla bağlıdır. O, «bu tarixi şəhər də inqilabçılar vətənidir» (150; s.209) – deyərək Bakıya üz tutur.

Lakin onun bolşeviklərə qoşulması apardığı siyasi mübarizəni milli məzmundan uzaqlaşdırır. Bir sıra tədqiqatçıların qeyd etdiyinə görə, müəllif sonralar «sosrealist» ədəbiyyatının əsaslarına uyğun əsərə əl gəzdirmişdir. Ədəbin oğlu K.Talıbzadənin söylədiklərinə əsaslanaraq tədqiqatçı-alim Əflatun Saraclı bu barədə yazır: «Abdulla Şaiq amalı, əməli, əsərləri ilə AXC-yə, istiqlal və hürriyyətə ürəkdən bağlı olan, məramına, istəklərinə uyğun çeşidli janrlarda əsərlər yazan qələm sahibidir. O, Şura dönəmində təqib və təzyiqlər nəticəsində «Füyuzat» və füyuzatçılar, müsavatçılar, xüsusilə Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, N.Yusifbəyli, F.Xoylu və b. haqqında obyektivlikdən uzaq fikir söyləsə də, ürəyində əstahfürullah demişdir və bunları məcburi yaz-

dığını yaxın dostlarına, ailə üzvlərinə də söyləmişdir. (139, s. 117).

Bakı Komitəsi tərkibində İran «Ədalət» təşkilatı ilə birlikdə çalışan Zəki İranın azadlığı uğrunda mübarizədə həlak olur. Onun məsləkdaşı Mustafanın son sözləri azadlıq aşiqinin ölümünə rekviem kimi səslənir: «Əşrəf də öldü, Zəki də. Ancaq o, yubka qurbanı, bu isə azadlıq və inqilab qurbanı oldu. Aralarında nə böyük fərq var!» (150, s. 267).

Bu iki ölüm arasındakı fərq müxtəlif ictimai-sosial təbəqələrin keçilməz uçurumunu bir daha aşkarlayır.

Abdulla Şaiqin romanda yaratdığı Məhərrəm əmi obrazı da həmin dövrün işıqlı ziyalılarının əks etdirilməsi baxımından əhəmiyyətlidir.

Məhərrəm əmi əsil xalq ziyalısıdır. Gələcəyin, azadlığın, qurtuluşun yalnız elm və maariflə ola biləcəyinin fərqinə varan o zamanın nadir insanlarındandır. Odur ki, rast gəldiyi kiçik uşaqları məktəblərə yazdırır, istedadlı cavanlara təhsil almaqda kömək edirdi. O xalqın cəhalətinin iki böyük səbəbini göstərir: «Bizim iki düşmənimiz var, biri İranda, Ərəbistanda təhsil almış ruhanilər və İranı aşıb gələn mərsiyəxanlardır. İkincisi xalqı istibdad pəncəsində əzməkdə olan əyyaş və başsız İran padşahlarıdır» (150, s. 183)

Bu əsarətdən xilas yolunu o, Qərb mədəniyyətində görürdü. Lakin qeyd edək ki, bu da bir tərəfli mövqe təsiri bağışlayır. Məhərrəm əmi obrazı bəzi qaynaqlarda verilən məlumatlara görə tarixi şəxsiyyətdir. Abdulla Şaiqin də onunla şəxsi tanışlığı olmuşdur.

Daim vətən, millət, azadlıq barədə düşünən, xalqın və cəmiyyətin qurtuluş yollarını axtaran Məhərrəm əmi zamanın ağır girdabında təkliyini və çarəsizliyini anlayınca ağlını itirir. Əsərdə onun «allah axtarıcılığı» prosesi xüsusi motiv təşkil edir. Onun üçün düzəldilmiş məzhə-

kədə guya allahın hüzurunda olan Məhərrəm əmi İran şahı Nəsrqulunu və Türkiyə hökmdarı Həmidqulunu allaha şikayət edir. Onların xalqın azadlığını buxovladığını bəyan edir.

Lakin Cümhuriyyət dövrü ədəbiyyatı araşdırıcılarından Əflatun Saraclı öz monoqrafiyasında qeyd etdiyi kimi, Abdulla Şaiq zamanın diktəsilə bu obraz üzərində yenidən işləmişdir. Onun Rusiya çarı, İran şahı və Türkiyə hökmdarı ilə bağlı ziddiyyətli münasibəti də bundan irəli gəlir.

Eyni zamanda, yazıçı Məhərrəm əmi surəti vasitəsilə «ana dili» probleminə toxunmuş, onun təmizliyi və lətifliyinin qorunması düşüncəsini təlqin etmişdir.

Yazıçının əsərdə yaratdığı elmə, təhsilə xüsusi diqqət göstərən İsgəndər bəy obrazı cümhuriyyət illərində xeyriyyəçi fəaliyyəti ilə tanınan Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin prototipidir.

Nəzakət və Rəmziyyənin şəxsində romandakı qadın obrazları cəmiyyətin inkişafını şərtləndirəcək bilikli, açıqgörüşlü surətlərdir.

Abdulla Şaiqin «Əsrimizin qəhrəman»ları romanı həmin dövrün ictimai-siyasi, mənəvi-psixoloji durumunu, cümhuriyyətə gedən yoldakı təbəddülatları əks etdirməsi baxımından da əhəmiyyətlidir. «1905-ci il inqilabını qara irtica əvəz etdikdən sonra Bakıda da inqilabçıların vəziyyəti xeyli ağırlaşmışdı. İrtica illərində onların böyük bir hissəsi həbs olunmuş, sürgünlərə göndərilmişdir. İnqilabçılar amansız şəkildə təqib olunurdular. 1908-ci illərdə təzyiq və təqiblər daha da qüvvətləndi. Hökumət Bakıdakı inqilabi hərəkatı axıra qədər boğmaq üçün xüsusi tədbirlər görməyə başladı. Qafqaz canişini Voronsov-Daşkovun əmri ilə Bakıya yeni hərbi qüvvələr gətirildi, jandarmlar, xəfiyyələrin və casusların sayı daha da artırıldı» (150, s. 221).

Abdulla Şaiq əvvəldə də qeyd etdiyimiz kimi, sonralar «sosializm realizmi» prinsiplərindən çıxış edərək əsərə bəzi dəyişikliklər etmiş və dolayısıyla da xalqın azadlıq axtarışlarının istiqamətini bolşevik hərəkatına yönəltmişdir. Beləliklə də, Azərbaycan Cümhuriyyəti mərhələsini əks etdirən hissələr təhrif olunmuş halda işıqlandırılmışdır. Lakin yuxarıda romandan seçdiyimiz örnəkdə Azərbaycan Cümhuriyyətinin necə bir irticanın, keşməkeşin və mürəkkəb tarixi mərhələnin içindən keçərək öz istiqlalını bəyan edə bilməsinə dair özünəməxsus bir mənzərə yaradılmışdır.

Abdulla Şaiq bəhs olunan dövrün ədəbiyyatında xüsusi yer tutan «Əsrimizin qəhrəmanları» romanında «...belə bir məfkurəni təlqin etməyə çalışır ki, hər bir gənc öz millətinin ağrıları ilə yaşamalı, məmləkətinin taleyinə biganə qalmamalıdır. Çünki millətin gələcəyi vətənin azadlığı və abadlığı ilə sıx bağlıdır» (123, I c.; s. 20). Şübhəsiz ki, bu düşüncənin ictimai-siyasi həyatda olduğu kimi, ədəbiyyatın da başlıca ideya xəttinə çevrilməsi o dövrdə olduqca aktual idi. Ona görə də yazıçının bu mövqedən çıxış etməsi təəccüb doğurmamalıdır.

İmzası Azərbaycan oxucularına o qədər də məlum olmayan yazıçı Ağababa Yusifzadənin «Sınıq qanad» romanında da Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bədii mənzərəsi yaradılmışdır. «Həcm etibarı ilə o qədər də böyük olmayan və ötən əsrin əvvəllərində yazılmış kiçik həcmli romanlardan seçilməyən bu əsərin süjeti məhəbbət mövzusu üzərində qurulmuşdur. Lakin qeyd etmək lazımdır ki, «Sınıq qanad» romanı məhəbbət mövzusunda yazılsa da, burada yeri gəldikcə pərdəli şəkildə dövrün ictimai-siyasi proseslərinə də münasibət bildirilmişdir» (123, I c.; s. 20).

Qeyd edək ki, Cümhuriyyət həyatının təsviri yalnız yuxarıda bəhs olunan bədii nəsr nümunələrilə tamamlanmır. Bu dövrdə ədəbiyyatımızın görkəmli nümayəndələri ilə yanaşı, ədəbi prosesdə o qədər də tanınmayan M.Rəfizadə, İ.Oruczadə, İ.Qəmbəroğlu və başqa yazıçıların bu dövrdə müxtəlif mətbuat orqanlarında dərc etdirdikləri əsərləri maraq doğurmaqdadır. Şübhəsiz ki, Cümhuriyyət dövrü nəsri gələcəkdə daha ciddi tədqiqat obyektinə çevriləcəkdir.

II FƏSİL

SOVET DÖVRÜ BƏDİİ NƏSRİNDƏ CÜMHURİYYƏT MÖVZUSU

Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə Cümhuriyyət məfkurəsinin ciddi şəkildə təqib olunmasına başlanılmışdır. Ona görə də bu illərdə yaranan bədii nəsr nümunələrində Cümhuriyyət həyatının açıq şəkildə təsvirinə ciddi maneələr yaranmışdır. Lakin bununla belə həmin dövrün bədii nəsrinin ayrıca təhlil olunmasına ciddi ehtiyac duyulmaqdadır. Çünki bu dövrdə yaranan bədii nəsr nümunələrində qoyulan qadağalara və ağır senzura şərtlərinə baxmayaraq istər-istəməz dövrün hadisələrinə bu və ya digər şəkildə münasibət bildirilmişdir.

XX əsrin ilk onilliklərində milli nəsr əvvəlki ünvanını tamamilə itirir, vahid ideya təbliğatçısı olan, mövcud dövrü və atributlarını təsvirə yönələn sosializm realizmi ədəbiyyatı yaranırdı. Tematik baxımdan problematik roman üslubundan uzaqlaşılır, sovet respublikasının maraqlarını təmin edən əsərlər meydana gəlirdi. «...Proletar ədəbiyyatının realizmi, öz mahiyyəti etibarilə klassik ədəbiyyatın realizmindən, əlbəttə, fərqli olacaqdır, yaşadığımız dövrün sürəti məzmunun inkişaf etməsində və əsərin ümumi quruluşunda göstərilməyə bilməz. Proletar ədəbiyyatının realizmi, sosializm cəmiyyəti qurmaq uğrunda mübarizə aparan proletarların son məqsədlərini bütünlüyülə düşünmək vəzifəsilə ən sıx surətdə bağlıdır...» (93, s.2). Beləliklə, getdikcə ədəbiyyat vahid partiyanın bir orqanına çevrilir, mövzu cəhətdən, «sxematik ədəbiyyat» bərqərar olurdu.

«Yeni ədəbiyyatın» normativi müəyyənləşdirilərkən əsrin əvvəllərində ədəbiyyatda öz əksini tapan milli

özünüdərk amilləri kobud şəkildə rədd edilirdi. «Hər dürlü nasionalizm, müsavatçılıq və dilçilik ünsürü sosializm quruluşuna atılan bir bomba qədər zərərlidir. Bu bombaları məhv etmək, onların partlayışını bizə düşmən ünsürlərin zərərinə çevirmək bizim qalibiyyətimizi təmin etmək üçün zəruridir» (124, s.31).

Lakin bədii yaradıcılıqda hər nə qədər sosialist ədəbiyyatı ənənələrinə sadiq qalınsa da, əsrin əvvəllərində xalqımızın ictimai-siyasi həyatında baş verənlər bir çox məqamlarda təhrif olunmuş şəkildə bədii düşüncənin baş mövzularından birinə çevrilirdi. Müasir ədəbiyyatımızda inqilabi-tarixi mövzuda yazılan bədii əsərlərin böyük qismi məhz bu dövrün payına düşür.

Bu illərdə Mehdi Hüseyn, Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Süleyman Rəhimov, Əli Vəliyev, Mir Cəlal, Ənvər Məmmədxanlı, Hüseyn Abbaszadə və başqa yazıçıların yazmış olduğu roman, povest və hekayələrdə bu və ya digər şəkildə Cümhuriyyət dövründə baş verən ictimai-siyasi hadisələr bədii əksini tapmışdır.

«Dumanlı Təbriz», «Gizli Bakı», «Döyüşən şəhər» (Məmməd Səid Ordubadi), «Studentlər», «1917-ci ildə» (Yusif Vəzir Çəmənzəminli), «Yoxuşlar», «Dünya qopur» (Əbülhəsən Ələkbərzadə), «Şamo» (Süleyman Rəhimov), «Burulğan» (Ənvər Məmmədxanlı), «Dirilən adam», «Bir gəncin manifesti» (Mir Cəlal), «Daşqın», «Səhər» (Mehdi Hüseyn), «Burulğanlar» (Hüseyn Abbaszadə) və digər inqilabi-tarixi romanlar məhz bu qəbildəndir.

a) Cümhuriyyət dövrü siyasi münaqişələr və sinfi mübarizələr kontekstində

Ədəbiyyatımızın 1920-30-cu illəri əhatə edən sovet dövrü mərhələsinin başlanğıcı tariximizin siyasi-mədəni

təbəddülatlarla zəngin tarixi məqamlarını özündə ehtiva edirdi.Odur ki, bu mərhələdə yaranan nəsr əsərlərinin problematikasını siyasi-sosial ziddiyyətlərin kəsişməsi səciyyələndirirdi. Bu mənada mövcud dövrdə bədii düşüncənin daha çox tendensiyalı ədəbiyyat platformasında cərəyan etdiyini müşahidə edirik. Belə ki, bəhs olunan mərhələdə sovet idelogiyası birdən-birə öz ədiblərini yetirə bilməzdi. Ona görə də müxtəlif təqib və təzyiqlər nəticəsində milli ədəbiyyat öz məzmununu tədricən itirir, "proletar ədəbiyyatı" ünvanını qazanırdı. Nəzərə alsaq ki, mövcud bədii nəsrin aparıcı nümayəndələri Cümhuriyyət məfkurəsinin müdafiəçiləri və təbliğatçıları idi, mənzərə aydın olar.Beləliklə, ədəbiyyatda iki meyl özünü göstərirdi.Zahirən vahid ideologiyanın ifadəçisinə çevrilən ədəbi nümunələrdə yeri gəldikcə, xalqın varlığında, ictimai həyatında özünəməxsus yer tutan hadisələri işıqlandırmağa çalışan milli məfkurəli və sovet konyuktur sisteminin əsirinə çevrilən yazıçılar bu müxtəilf meylləri təmsil edirdilər.Bu bölmədə tarixi həqiqətlərə münasibət baxımından müəyyən mənada mütərəqqi mövqe tutan yazıçıların siyasi munaqişələr və sinfi mübarizələr kontekstində Cümhuriyyət dövrünə baxışı nəzər nöqtəsinə çevrilmişdir.

Sovet dövrü Azərbaycan ədəbiyyatında tarixi romanın ilk nümunəsini yaradan bir sıra inqilabi-tarixi romanların müəllifi Məmməd Səid Ordubadidir. Yazıçı Azərbaycan xalqının tarixi irslərini ortaya çıxarmaq və onun ictimai-siyasi həyatında baş verən tarixi hadisələri gələcək nəsillərə ötürmək naminə uzun illər araşdırma aparmış və bu zəhmətin nəticəsində «Dumanlı Təbriz», «Gizli Bakı», «Döyüşən şəhər» romanları meydana gəlmişdir. Professor Mir Cəlal «Qocaman ədibin yaradıcılıq yolu» əsərində bu barədə deyirdi ki, Məmməd Səid Ordubadi öz romanlarını qələmə aldığı zaman «Azər-

baycan ədəbiyyatında tarixi roman janrı yaranmamışdı və izlənməli bir nümunə yox idi.

Şərq və Azərbaycan inqilabi hərəkatı tarixi yazılmamışdı, hətta tarixçilərin özü üçün bir çox mühüm tarixi hadisələr nəzəri qiymət cəhətdən bir problem olaraq qalmaqda idi. Bu sahədə dərin elmi tədqiqat az idi. Öz gücünə inanan ədib bu çətinliklərdən qorxmamışdır» (119).

Məmməd Səid Ordubadi Azərbaycan tarixini təhrif edənlərə öz etirazını bildirir və bu yöndə müxtəlif yazılarla çıxış edirdi. Bir tərəfdən də yazmaq istədiyi inqilabi-tarixi mövzulu romanları üçün tarixi mənbələrə müraciət edir, mütəmadi tədqiqlər aparırdı.

Beləliklə, ədib İranda milli azadlıq hərəkatına həsr olunmuş ilk romanı «Dumanlı Təbriz»i (1927-1940) qələmə alır.

Yazıçı eyni zamanda, Şərq tarixindən yazan Şərqə yad müəlliflərin əsərlərini tənqid edərək Şərq insanına yaxından bələd olmadan ondan yazmanın mümkünsüzlüyü fikrini müdafiə edirdi. O deyirdi: «Burası nə qədər ki, dastanlar, min bir gecələr Şərqidir, burası nə qədərki, əsrarəngiz Şərqdir, o qədər də yeni və ünyançı Şərqdir» (127; s. 31).

Müəllif Şərqi bu tərəfi ilə tanıtmağa çalışırdı. Elə «Dumanlı Təbriz» də bu ehtiyacdan yaranmışdır.

İranda Səttarxan və Bağırxanın rəhbərliyi ilə milli-azadlıq hərəkatı başlamışdı. Xüsusilə, Səttarxanın nüfuzu bütün Azərbaycana yayılmışdı. Şəninə şerlər, mahnılar qoşulurdu. Alovlanmaqda olan bu hərəkat imperialist dövlətlərin mənafeyinə zidd olduğu üçün, onlar Məhəmmədəli şahı müdafiə edir, inqilabı boğmağa çalışırdılar. İran inqilabının başlıca səbəblərindən biri kəndlilərlə mülkədarlar arasındakı ziddiyyət idi. Bir sözlə, İran mübarizəyə qalxmışdı.

Eləcə də həmin dövrdə inqilabi hərəkatların yuvasına çevrilmiş Bakıda işləyən iranlı fəhlələr 1904-cü ildə yaradılmış «Hümmət» təşkilatında iştirak edir, sonra əxz etdikləri inqilabi ideyaları İranda yayırdılar.

Bu barədə Səttarxan deyirdi: «Biz qafqazlı yoldaşların inqilaba olan xidmətlərini, xüsusən Bakı işçilərinin köməyini heç vaxt unuda bilməyəcəyik. Qafqazlı yoldaşlar, Bakı və Tiflis işçilərinə mənim salamımı aparın, biz beşinci il inqilabının oğlunu böyüdəcəyik. Siz mənim dilimdən onlara söyləyin. Səttərxanın inqilaba xəyanət etmədiyini, yenə də öz yolunda olduğunu xəbər verin» (127; s. 16).

Lakin bu hərəkatda baş verən bəzi ziddiyyətlər hərəkatın milli-azadlıq ruhunun tam formalaşdığını göstərir, belə ki, bəzən xaotik şəkil alan inqilabi mübarizəyə öz mənafeyini güdən təsadüfi adamlar da qoşulurdu.

Əsərdə Səttərxan, Bağır xan, Əbülhəsən, Əmir Həşmət, İbrahim bəy Cahangirov kimi inqilabçı obrazlar, Səmədxan, Ağa Seyid Əsədulla, müstəşriq Gertman və s. kimi imperialist dövlətlərin maraqlarını ifadə edən və yayan mürtəce surətlər yaradılmışdır.

Çar qoşunlarının Təbrizə daxil olduğu vaxt inqilabi şuranın tarixi iclasında Əbülhəsən bəy deyir:

«...Pərdə enir. Təbriz inqilabının birinci səhnəsi qapanır... İnqilab ölməyir, o yalnız öz hərəkət məntəqəsini dəyişir. İnqilabın gücü mərkəzə köçürülür...» (127; s. 277-278).

Bu hərəkat məğlub edilsə də, əsrlərlə müstəmləkə əsarətində olan İran xalqının milli şüurunun oyanmasında özünəməxsus rol oynayır.

Romanın sonunda Romonovlar sülaləsinin devrilməsi, Rusiyada inqilabın qalib gəlməsindən bəhs edilir, gələcək mübarizə üçün yeni yollar axtarılır. Xalqın bir-

liyini yaratmaq və cəhalətə qarşı mübarizə aparmaq kimi məsələlər ortaya qoyulur.

İnqilabın uğursuzluğunun səbəbləri mənfi obraz Siqətül' islamın dilindən göstərilir: «Hər məmləkətin inqilab rəhbərləri o məmləkətin özündən doğmalıdır. Öz rəhbərlərini yetirməmiş bir ölkədə inqilab hərəkatını irəliyə aparmaq mümkün deyildir. Bu yalnız İrana məxsus deyil, hər bir ölkədə belədir» (127, s. 80).

Bolşevik ideologiyasının dinə qarşı mübarizə adı altında müxtəlif xalqların, dolayısıyla da, bəşəriyyətin mədəniyyətini yox etməyə çalışırdı. Miss Hannanın dili ilə Əbülhəsən bəyə bu siyasət belə ifadə olunur: «Mən, belə məlum, çoxdan bəri, dünyanın dağıtmaq və mədəniyyətin kökünü qazmaq istəyənlərin yolunu izləyən və bu yolda çalışan bir zatla qarşı-qarşıya otururam... Yenə sənə deyirəm, fikrin bolşevik fikridir. Bu fikirlə dünya idarə olunmaz!» (129, s. 538-539). Bu mənada Miss Hanna obrazına haqq qazandırmaq olar.

Romanda müəllif günümüz üçün aktual olan bəzi məqamları doğru qiymətləndirmişsə də, sosrealizmin «sxematik ədəbiyyat» normativindən yaxa qurtara bilməmişdir.

Ədibin yaradıcılığının ciddi tədqiqatçılarından olan Yavuz Axundlu bu barədə deyir: «...Romanın yazıldığı və çap edildiyi illərin ab-havası burada da öz mənfi təsirini göstərmişdir. Romanda təsvir edilən hadisələrin iştirakçısı olan, dövrün ictimai-siyasi mənzərəsini mükəmməl bilən müəllif bir sıra məsələlərdən sərf-nəzər etmiş, onları hətta xatırlatmağı mümkün saymamışdır» (8; s. 58).

İran inqilabında özünəməxsus rolu olmuş M.Ə.Rəsulzadənin, bu hərəkatdan öz maddi yardımlarını əsirgəməyən Hacı Zeynalabdin Tağıyevin ümumiyyətlə adı çəkilmir, Nərimanov isə bir dəfə yad edilir.

Məmməd Səid Ordubadi İran inqilabına həsr etdiyi əsərdən sonra həmin dövrdə Bakıda baş verən ictimai-siyasi hadisələri nəzər nöqtəsinə çevirdi. Beləliklə, yazıçının «Gizli Bakı», «Döyüşən şəhər», «Dünya dəyişir» trilogiyası meydana gəldi. Bu romanlar qocaman ədibin uzun müddətli axtarışlarının və çoxsaylı arxiv materiallarına müraciətinin nəticəsi idi. «Lakin o illərdə Azərbaycanda inqilabi mübarizə və milli azadlıq hərəkatı ilə bağlı bir çox sənədlər mənfi saxlandığından müəllif bunlarla tanış olmaq imkanından məhrum idi. Digər tərəfdən, xalqın tarixi, xüsusən yaxın keçmişin hadisələri yuxarıdan verilən vahid model üzrə yazılırdı. Həm elmi ədəbiyyatda, həm də bədii əsərlərdə bolşevik ideologiyasına, Lenin təliminə istinad olunmalı, başqa partiyaların mübarizə yolu ləkələnməli, bütövlükdə xalqın tarixi təhrif olunmuş şəkildə yeni nəslə çatdırılmalı idi». (8; s. 82).

Göründüyü kimi, Məmməd Səid Ordubadinin inqilabi-tarixi romanlarında dövrün ictimai-siyasi, tarixi mənzərəsi tendensiyalı şəkildə əks olunmuşdur.

Yazıçının bu qəbildən olan əsərlərindən biri də «Gizli Bakı» (1927-1940) romanıdır. Əvvəlcə «Zirzəmi» adlandırılan bu əsər bir-birinə qarşı duran siniflərin mübarizəsi ilə müşayiət olunur. Roman XIX əsrin 90-cı illərindəki Bakının təsviri ilə başlayır: «Alçaq daxmalardan sısqa işıqlar, qırıq şüşəli pəncərələrdə saralıb sönən gözləri xatırladan beşlik lampalar, mazut gölməçəli uçuq hasarlar, qara, hisli divarlar, qapıların qarşısında durub ailə başçısını gözləyən qadınlar, bir dəri, bir sümükdən ibarət olan arıq, sısqa fəhlə uşaqları gözə çarpdıqca, mübarizənin nə üçün başlandığını çox asan təsəvvür etmək olardı» (129, s. 33).

Yuxarıda göstərdiyimiz kimi, burada ədib istər hadisələrin təsvirində, istərsə də obraz yaradıcılığında

sxematik sovet təfəkküründən kənara çıxa bilməmiş, bəzi bolşevik inqilabçıların fəaliyyətini böyüdülmüş, qabarıq cizgilərlə vermişdir.

Romanda fəhlə nümayişi və tətilləri, 1905-ci il qırğını və s. hadisələr təsvir olunmuşdur. Burada Bakı milyonçuları Hacı Zeynalabdin Tağıyev və Musa Nağıyev obrazları mənfi fonda təcəssüm etdirilmişdir.

«Döyüşən şəhər» romanı da «Gizli Bakı»nın davamıdır. Bu romanda tariximizin 1918-ci illərini əhatə edən mühüm hadisələr – Bakıda gedən sinfi vuruşmalar, bolşevik, menşevik, eser, daşnak, müsavat partiyaları arasındakı mübarizə öz əksini tapmışdır.

Əsərdə Bakı komissarlarına geniş yer verilmiş, erməni xəyanətlərindən danışılmışdır. Bir ermənilə dililə Araratyana: «...Mən ana-bacı hörməti gördüyüm Azərbaycan qadınlarının evini qarət etdim. Qarşıma süfrə açan qızları bir parça çörəyə həsrət qoydum, xəstəliyimdə başım üstündə oturanların başını kəsdim, kəndlərini yandırdım. Namuslu və dinc ermənilərin də rahətliyini pozdum, daşnaklara qoşularaq, milli müharibələrə yol açdım. İki millətin bir-birinə silah qaldırmağına şahid oldum.

Nəticədə, hər iki millətin nifrətini qazandım» (130; s. 202-203).

Ədib «Leylanın romanı» fəslində Şimali Qafqaz xalqlarının ruslaşdırılması və məhv edilməsi siyasətinin bariz nümunəsini göstərir.

Eləcə də «Döyüşən şəhər» romanında mənfi surətin dili ilə: «Ac məmləkətdə sosializm qurmaq sabun köpüyü ilə ev tikmək kimi bir şeydir» (130, s. 33) həqiqətini bəyan edir.

Azərbaycan tarixinin XX əsrin başlanğıcından 30-cu illərin sonuna qədərki hadisələrini romanlaşdırmaq

istəyən Yusif Vəzir Çəmənzəminli bu ideyasını beş mərhələdə həyata keçirmək fikrində idi.

«Çarpışmalar», «Studentlər», «1917-ci ildə», «Xaricdə», «Tərtər» - beş kitabdan ibarət romanın ayrı-ayrı hissələri belə adlanmalı idi.

1905-1909-cü illərin mürəkkəb ictimai-siyasi hadisələri «Çarpışmalar»da, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra xaricə mühacirət edən ziyalılardan biri dəstənin zamanın xislətinə uyğun olaraq bədbin, peşman əhval-ruhiyyəsini «Xaricdə», yeni və parlaq həyatın yeganə ünvanı kimi qəbul etdiyi sovet inqilabının tərənnümünü «Tərtər»də göstərməliydi. Yazıçının davamlı araşdırıcılarından olan Kamran Məmmədovun «Məşələ dönmüş ömür» monoqrafiyasında qeyd etdiyi kimi, bu romanlardan yalnız ikisi – «Studentlər» və «1917-ci ildə» yazılıb tamamlanır.

«Studentlər»in ilk variantı «Günah» adı ilə 1914-cü ildə yazılmış, 1931-ci ildə üzərində işlənərək kitab şəklində çap olunmuşdur.

«1917-ci ildə» romanı isə 1931-1934-cü illərdə yazılaraq 1935-ci ildə nəşr olunmuşdur.

«Studentlər»in müqəddiməsində müəllif əsərin mündəricəsini və qələmə alınma məramını belə açıqlayır: «Studentlər» inqilabdan əvvəl türk (azərbaycanlı) tələbələrin həyatını göstərir. Bu həyat çox da zəngin, mündəricəli və yüksək məfkurə izincə qoşan bir həyat deyil. Bu da babalar həyatının müasir bir şəklidir.

...Tələbələrimizin içində inqilab ruhlu əməkçi kütləni düşünən, ictimai yaraların nərədən doğduğunu anlayanlar da var idi. Lakin bunların bütün fəaliyyəti irtica dövrünün qorxunc məngənəsi arasında əzilirdi. Yığılışmaq yasaq, danışmaq yasaq, hökumətə qarşı baş verə biləcək hər bir hərəkət susdurulur, insanlar həbsə və sürgünlərə sürdürülürdü... Səlmanla Əhməd havası

xəfiyyə qoxuyan bu mühitdə yaşayır və onun dəhşətini hər an duyurdular...

O zaman tələbə həyatı və mühiti belə idi» (41, II c.; s. 7).

Əsər Rüstəmbəyin Kiyevə gəldiyi ilk gündən tanıdığı ərli qadın Sofya xanımla görüşməsi ilə başlayır, ayrılması ilə də bitir. Təbii ki, romanda diqqətə çarpacaq mövzunu və obrazları ön plana çəkmək üçün bu, xüsusi ədəbi forma idi.

Sonralar Rüstəmbəy başqasının qadınına göz dikdiyi üçün daxili əzablar keçirir. Və öz hərəkətini «bağışlanmaz səhv» adlandırır. Bu səbəbdəndir ki, romanın ilk variantına «Günah» adı seçilir.

Belə hesab edirlər ki, «Studentlər» romanında ədibin avtobioqrafiyası öz əksini tapmışdır. Vaxtlarının çoxunu dini və elmi mübahisələrlə keçirən Rüstəmbəylə Əli, «min bir fəsadla» zəngin olmağa çalışan, intriqalar yaradan Qulu, ənənəvi yolla gedərək qadına bir tərəfli yanaşan Fərəməz, Qulamrza, Cəfər inqilabi məfkurənin daşıyıcısı və yayıcısı kimi çıxış edən Səlman Əhməd və özünü nəyin bahasına olursa-olsun, yalnız təhsilini başa vurmaq məcburiyyətində hiss edən Bəhram romanda istəkləri və istiqamətləri bir-birindən kəskin fərqlənən tələbələr qalereyasını yaradır.

Eləcə də, Azərbaycan xalqının tarixində özünəməxsus rolu olan, xüsusilə ermənilərlə mübarizə məqsədilə yaradılan və bu yöndə misilsiz xidmətlər göstərən «Difai» burada terrorçu təşkilat kimi qələmə verilir. Həmçinin, Azərbaycanın Cümhuriyyət tarixində bir çox istiqamətdə mühüm rol oynayan Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin əsərdə mənfi obrazı yaradılmışdır. Fikrimizcə, romanın qəhrəmanı Rüstəmbəyin dili ilə türkçülük, turançılıq və islami ideyaların kəskin tənqidi sovet nəsrinin xarakterik cəhəti kimi ortaya çıxırdı.

«Xalqlar nümayəndələri nitqlər söyləməyə davam edirdilər. Hər nitq mənsub olduğu xalqın istibdaddan çəkdiklərini, dərd və tələblərini müasir bir dillə anladırdı.

...Həyəcanlı dodaqlardan qopan hər bir nitq nalə və gizli göz yaşları saçırdı və hər bir vəkil də milli yaraların sağalmasını Rusiyanın federativ şəkildə qurulmasında görürdü» (41, II c. s. 295).

«Bir zamanlar Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan və «Müsavat» partiyasının sıralarında yer alan bir şəxsin bu sətirləri yazması maraq doğurur. Şübhəsiz ki, bu, sovet ədəbiyyatı gerçəyinin ən bariz nümunəsi idi.

«İştə həyat, iştə tarix, iştə ədəbiyyat – daima eyni çırpıntı, təkərrür edən eyni ritm. Tarix – təkərrür dairəsində fırlanan əzəli və əbədi bir çarx; bu gün vaqe olan hadisələr təkrar-təkrar olmuş və təkrar olacaq. İnsan, yeni deyə bu hadisələrə qapılıb ölür, öldürür... Yox, bu hadisələr yeni deyil; insan aldanır...» (41, II c. 328) – deyərək insanın qurtuluşu naminə daim axtarışda olan əsərin qəhrəmanı Rüstəmbəyə içində yaşadığı tarixi hadisələr, siniflər, qurumlar və fərdlərin siyasi sahədə çarpışmaları birdən-birə qəribə görünür. O: «İnsan nə tühaf məxluqdur: sanki dünyada başqa işlər yoxmuş da, qanlı vuruşmalarda, mücadilə və çarpışmalarda istirahəti – qəlb arayırmış!.. Yox, bu doğru yol deyil; özünə tərəf dönməli, şəxsi səadət aramalıdır!..» (41, II c. s. 322).

Bu daxili monoloq «Studentlər»in ümumi ruhunun yekunu kimi səslənir.

Azərbaycan tarixinin «azadlıq» şüarı ilə başlayan ictimai-siyasi hadisələrlə zəngin böyük bir mərhələsi və sadə insanların bu mübarizədəki fəaliyyəti Abdulla Şaiqin ictimai mündəricəli «Araz» romanında təcəssüm etdirilmişdir.

Ədib dövrün mühüm hadisələrini bir nəslin (ata-oğul-nəvə-nəticə) fonunda əks etdirməklə həm zaman etibarilə daha uzun mərhələnin hadisələrini izləyə bilmiş, həm də sıravi insanlarda getdikcə qüvvətlənən və təkmilləşən inqilabi şüurun inkişafını göstərə bilmişdir.

Romanda XIX əsrin ikinci yarısından başlayaraq XX əsrin iyirmi-otuzuncu illərinə qədər baş verən siyasi hadisələr təsvir edilir. Müəllif həmçinin, burada ağalar-qullar dünyasının cəmiyyət həyatında yaratdığı böyük uçurumu siyasi inqilabı şərtləndirən və sürətləndirən səbəb kimi göstərir. Əsər qəhrəmanın daxili dünyasını açmaq və gələcək fəaliyyətinin istiqamətini müəyyənləşdirmək baxımından maraqlı bir təsvirlə başlayır: «19-cu əsrin sonuna doğru yavaş-yavaş neft buruqları ilə qucaqlanmağa başlayan Suraxanı kəndində hər kəsin nəzərini bir ev cəlb edə bilərdi. Adam boyundan alçaq, divarları palçıqla suvanmış bu ev hər kəsin xəyalını uzaqlara, dumanlı keçmişlərə aparır, zehnində bir-birini izləyən fikirlər onu köhnə bir aləmə atırdı. Bu alçaq evin şərq tərəfindən, hasara nisbətən uca qapısından girən adamı, hər şeydən əvvəl, həyətin ortasında balta zərbələri ilə yaralanmış qoca və çılpaq əncir ağacı qarşılayırdı. Bir qədər irəlidə hisli-paslı iki kiçik pəncərə arasında alcaq və rütubətli otağa açılırdı» (150, I c. s.292). Bu təsvir əsərin qəhrəmanı və onun gələcək fəaliyyəti haqqında ilkin təsəvvür yaradır. Araz obrazı 1897-ci il hadisələrindən başlayaraq Çar sarayındakı qanlı qırğın, Rus-Yapon müharibələri və onun doğurduğu nəticələr, «17 oktyabr manifesti» və digər mürəkkəb hadisələrin ən qaynar nöqtəsində göstərilir. Eləcə də, mövcud dövrdə Bakıya gələn rus və qeyri-millət nümayəndələrinin müxtəlif siyasi istiqamətləri – çar tərəfdarlarını, menşevik, bolşevik və daşnakları təmsil edərək yerli fəhlələri bu siyasi hərəkatlara cəlb edirdilər. «Çar üsuli-idarəsi bütün

xalqlar kimi Azərbaycan xalqını da iqtisadi cəhətdən öldürmək, ona canlanmaq, dirçəlmək imkanı verməmək üçün min bir şərait hazırlayırdı; kəndlərdə, şəhərlərdə təsərrüfat, sənaye və mədəniyyət işlərini tərəqqi və inkişaf etdirmək yerinə zülm və istibdad qurdları olan pristav, naçalnik, qubernator və qradonaçalniklər təyin edir, rüşvət düşkünü olan bu çar quyruqları yerli bəylərlə, burjuaziya ilə əlbir olub, xalqa bəla kəsilirdi. Buna görə də hər tərəfdən əzilməkdə, boğulmaqda olan və heç bir yandan ümid və qurtuluş yolu görməyən kütlə cana doyub bəzən əsaslı, mütəşəkkil mübarizə əvəzinə yanlış yollara sapırdı» (150, I c. s.314).

Dövrün sosial-siyasi mənzərəsini dəqiq konturlarla müəyyənləşdirən müəllif burada, «sosializm realizmi» ədəbiyyatının ənənəvi normativlərindən çıxış edərək yerli hökumət nümayəndələrinin «milli burjuaziya» adlandırır. Professor Təhsin Mütəllimov roman haqqındakı təsəvvürlərini belə ümumiləşdirir: «Romanda Arazın atası və babasının həyat yolu, taleyi yığcam, bir qədər də xatirə şəklində təsvir olunsa da, bir-birini əvəz edən ardıcıl hadisələr Arazla başlanır. Bu da təbiidir. Çünki Bakıda 1905-ci ilə qədər siyasi mübarizələr zəif və pərakəndə inkişaf etdiyi halda, 1904-1907-ci illərdə siyasi mübarizələr mütəşəkkil ədəbi cərəyanlara çevrilmişdir. Araz baba və atasına nisbətən daha fəal, ardıcıl və yetkin bir inqilabçı kimi inqilabi hadisələrin mərkəzində inkişaf edir» (123, I c. s.237).

O, həqiqətən də vətənini hər şeydən çox sevən, daim azadlığa doğru can atan və bu yolda qorxmadan çarpışan igid, mərd vətən oğullarının ümumiləşmiş obrazıdır.

Onun Vətən məfhumu ilə bağlı düşüncələri partiya üzvlərindən bir gənclə mükaliməsində ortaya çıxır: «-Bir gün söz arasında düşmənlərdən birisi mənə dedi ki, «siz

fəhlələrdə, bütün yoxsullarda vətən məhəbbəti yoxdur. Siz bu ananın övladı deyilmisiniz? Onu nə üçün sevmirsiniz?» - Mən isə cavabında: «Vətəni siz sevmirsiniz, - dedim, - sizin sevdiyiniz yalnız puldur. Vətəni sevən də bizik, onu azad edən də biz olacağıq!» (150, I c. s.358).

Ancaq Araz yanlış istiqamətdə azadlıq axtarışında idi. «Azadlıq» - deyə vəd edilən şey əslində, «xalqlar həbsxanasın»dan başqa bir şey deyildi. Ölkəmizdə azadlığın tək hədəfi Arazın timsalında güclü və əqidəli vətən oğullarına «burjuaziya» kimi tanıdılmışdı.

Romanda Qasım və Aslan bəylərin timsalında meşşan xislətli yerli sahibkarların obrazı yaradılmışdır.

Əsərdə hələ əsrin əvvəllərində Çar müstəmləkəsinin inqilabi hərəkatı zəiflətmək məqsədilə erməni-müsəlman qırğınını həyata keçirməsi niyyətləri barədə məlumat verilir. Lakin tarixi faktların təsdiq etdiyi kimi, bu bolşevik hərəkatının növbəti siyasəti idi. Məqsəd isə, milli yaddaşı məhv etmək, ərazi bütövlüyünə son qoymaq və müstəmləkə siyasətini uğurla həyata keçirməkdən ibarət idi. «Burjuaziyanın öz faydasına hökumətdən tələb etdiyi qanuni-əsasinin iç üzünü, menşeviklərin proletariata xain çıxdığını açıb göstərməliyik. Menşeviklər hər yerdə məğlub olur. Müsəlman fəhlələri dəstə-dəstə axıb təşkilata yazılır. Bilirsiniz ki, müsəlman fəhlələri bizim üçün böyük qüvvədir. Onları fiqrəmizə cəlb etməyincə mədənçilərə qalib gəlmək olmaz! Biz yaxın zamanda uzun, davamlı tətillərə və nümayişlərə başlamalıyıq!» (150, I c. s.359). Bolşevik hərəkatının bir nümayəndəsinin dilindən söylənən bu nitq mövcud siyasi hərəkatın müsəlmanlar haqqında əsas siyasi istiqamətini bir daha təsdiq edir. Bu mövqeyi əks etdirmək həm də «sosializm realizmi» ədəbiyyatının prinsiplərinə sadiq qalan yazıçı münasibətidir.

Rusiyada baş verən inqilabın təsirilə ölkəmizdə 1920-ci ildə aprel çevrilişinin həyata keçirilməsi və milli hökumətin çöküşü iyirminci-otuzuncu illərin digər yazıçıları kimi Əbülhəsən Ələkbərzadənin yaradıcılığında da öz əksini tapmışdır.

Ədib «Yoxuşlar» və «Dünya qopur» romanlarında sovet ideologiyasının diktə etdiyi yazıçı tendensiyası ilə mövcud dövrün hadisələrini işıqlandırır. Hər iki əsərdə inqilablar epoxasının məngənəsinə düşmüş insanların mənəvi çaşqınlığı, siyasi təfəkkürsüzlüyün acı nəticələri və iki bir-birinə zidd siyasi rejimə münasibət məsələsi əsas yer tutur.

«Yoxuşlar» romanında Sovet hakimiyyətinin qurulması yeni mərhələyə keçid kimi dəyərləndirilir. Burada milli həyatla inqilabi gerçəklər arasında təzad problemi özünü göstərir. Tamamilə milli və mənəvi azadlıq tələqin edən Azərbaycan Xalq Cümhuriyyətinin çökdürülməsini xalqın sahibkarlığın və zülmün məğlubiyyəti kimi dəyərləndirməsi buna aydın sübutdur. Əksinə, əsl istismarçı və müstəmləkəçi siyasi rejim olan sosializm sadə insanlara sosial rifah vəd etdiyi üçün siyasi səhnədə qalib kimi çıxış edir. Məlum məsələdir ki, mövcud dövrün yazıçıları da sosialist realizminin təmsilçisinə çevrilərək tariximizin Milli hökumət dövrünü kəskin tənqid obyektinə çevirir.

Eyni tendensiya yazıçının «Dünya qopur» romanında da davam etdirilir. «Dünya qopur»da bədii konfliktin əsasında zidd dünyagörüşlərin, zidd xarakterlərin toqquşması əsas yer tutur. Surətlərin fərdi təbiəti, ictimai səciyyəsi də məhz bu mübarizələrdə aşkara çıxır, aydınlanır. Əsərdə milli qurtuluşun simvolu olan Azərbaycan Cümhuriyyəti dağıdılmalı, yox edilməli köhnə dünya, həqiqi əsarət və istibdadın təmsilçisi olan Sovet hakimiyyəti yeni dünya kimi obrazlaşır.

Bu, özünün aydın ifadəsini bolşeviklərin Bakıya daxil olması xəbərinin qəfil yayılması və insanların bu xəbərə müxtəlif reaksiyalarının əks olunduğu əsərdən bir parçada öz əksini tapır:

«–Bolşeviklər, bolşeviklər!

Heç kəs bilmədi ki, bu sözlər kimin ağzından çıxdı. Qrammofon susdu. Qulaqlar şəkləndi. Bir an, kiçik bir an səssiz-səmirsiz keçdi. Böyük izdihamın elə bil, həniri lap qəfilcə batdı.

Eşitdiyinə inanan çox azdı; çünki «müsavat» cəmi üçcə ay bundan əvvəl təsdiq edilməmişdimi?

Palanlı bir atın belində çox güclə gəzdirdiyi «Yarım dünya» ləqəbi ilə məşhur olan, on-on iki pudluq Ağasəfər buna necə inanar, ya da inanmaq istərdimi? Gözü qarşısında «müsavat»ın tanındığı gün varlıların düzəltdikləri təntənəli bayram, qulaqlarında isə o gün üçün özünün əzbərləyib türk dili ilə dediyi nitq, Osmanlı türklərinin mənşəyi haqqında qondarılmış ərkinoqon-bozqurt əfsanəsi, qəlbində isə gec-tez parlamentə seçilmək xülyası baş qaldıran millətpərəst Ağasəfər buna inana bilərdimi? « (48, s.13).

Bu epizod mövcud siyasi hadisələr axınında müxtəlif baxışlar sistemini özündə təcəssüm etdirir. Həmçinin bu proses bir-birindən kəskin fərqlənən müxtəlif tiplərin xarakterində və hadisəyə münasibətində bariz şəkildə ortaya çıxır.

Təsadüfi deyil ki, Azərbaycan Cümhuriyyətinin havadarlarından olan Ağasəfərin əsərdə mənfi obrazı yaradılmışdır. O, millətpərəstlikdə ittiham edilir. Şübhəsiz ki, bu, sosialist realizmi prinsiplərinə sadiq qalan sırf yazıçı yanaşmasıdır. İstər Cümhuriyyət dövründə, istərsə də günümüzdə milli-azadlıq və igidlik rəmzi kimi sitayiş edilən Bozqurt başlanğıcı «qondarılmış ərginekon-bozqurt əfsanəsi» adlandırılır. Bu, əlbəttə, vəd edilən saxta sosial

rifah naminə millətin öz milli başlanğıcından ayrılması idi. Həmin proses siyasi cəhətdən maariflənməyən ən sadə xalq kütləsinin timsalında bəlkə də təbii hal idi. Lakin xalqımızın düşünən beyinlərinin şəxsində onun mənəvi dəyərlərinin sovet maşınında üyüdülməsi faciəvi təsir yaradırdı.

Əsərdə biri-birinə zidd iki qüvvə var – biri varlılardan Həmzənin təmsil etdiyi milli hökumətin tərəfdarları, digəri isə muzdur Veysin başçılıq etdiyi yeni hökumətin qurulması uğrunda mübarizə etməyə müntəzir qrupdur.

30-cu illər nəsrində yaradıcılığının dərin poetikası və fəlsəfi tutumu ilə fərqlənən Ənvər Məmmədxanlı Azərbaycan Xalq Cümhuriyyəti illərində ölkədə baş verən inqilabi-tarixi hadisələri öz nəsr müstəvisində nəzər-nöqtəsinə çevirmişdir. Ədibin «Ananın çırağı» kino-novellası və «Burulğan» povesti bunun ən canlı örnəkləridir.

Yazıçının tarixi mövzulu «Ananın çırağı» əsəri tariximizin fəhlə üsyanları, inqilabi hərəkatlar, siyasi ideologiyaların mübarizəsi ilə şərtlənən mərhələsini əks etdirir. Təbii ki, Ənvər Məmmədxanlı da digər müasirləri kimi hakim ideologiyanın çərçivəsindən kənara çıxa bilməyərək mövcud tarixi hadisələri müəyyən tematik çərçivədə işıqlandırmışdır. Belə ki, ananın keçmişə, xatirələrə səfəri üslubunda qələmə alınmış kino novellada «Ananın çırağı» «qırmızı azadlığın qırmızı çırağı» kimi dəyərləndirilmişdir. Burada xalqlara istibdad və əsarət gətirən Sovet Rusiyasının qırmızı bayrağı azadlığın və işığın rəmzi kimi mənalandırılmışdır. Əsərdə cümhuriyyət illərinin qanlı-qadalı hadisələri, ingilislərin Bakıdakı hökmranlığı, bolşevik hərəkatının azərbaycanlılardan ibarət nümayəndələrinin Həştərxana gedərək orada milli hökumətə qarşı çevriliş planının hazırlanması və sadə fəhlələrin bu işdə fəal iştirakı kimi məsələlərə toxu-

nulmuşdur. Burada, milli hökumət nümayəndələri mürtəcə ruhlu xəfiyyə və jandarmlar kimi təsvir edilmişdir. Əksinə, sovet ideologiyasını təmsil edən şəxslərin müsbət obrazı yaradılmışdır. Novellada müəllif dövrün ictimai-siyasi ruhundan irəli gələrək 1918-20-ci illər Bakısının maraqlı təsvirini yaratmışdır. «Qaranlıq payız gecəsi yarıdan keçmişdi.

Xəzri güclənmişdi, qasırğaya çevrilmişdi.

Çəpəki yağış bütün şiddətilə İçərişəhərin yastı damlarını qamçılayırdı, novalçalardan daşdayan köpüklü sular döngə və dalanlarda şarıldayırdı.

Bütün evlərdə işıqlar sönmüşdü, çöldə-bayırda inscins gözə dəymirdi.

Hərdən ay bir anlığa qara buludlar arasından çıxanda, tufanlı gecənin mənzərəsi qorxunc cazibədarlığı ilə bir an görsənirdi, sonra yox olurdu.» (104; s.218).

Belə bir gecədə inqilabi-siyasi fəaliyyəti səbəbindən həbs edilən oğlu məhbəsdən qaçaraq Həştərxana gedir. Bu məqamda oğulun anası ilə dialoqu tarixi baxımdan maraq doğurur. «...burda dəniz körpüsündən qayıqlardan birini açıb dənizin o tayına keçməliyəm... qorxma, ana, tək yox, iki yoldaşımla bərabər – orda, dənizin o tayında, Həştərxanda doktor Nəriman da bizi gözləyir... indi dənizin o tayı bizimkilərin əlindədir...» (104, s.219-220).

Hadisələrin sonrakı inkişafında ana xəyalən geriyə qayıdır və oğlu ilə bərabər keçirdiyi məqamları xatırlayır. Lakin elə bu məqamda oğlu azadlıq uğrundakı son qəti addımını atır. « Körfəzdə lövbər salmış iki hərbi gəminin projektorları uzaqlarda dəniz üstündəki qaranlığı bıçaq kimi yardı, sonra sağa-sola vurnuxdu və getdi tənha bir qayığı qayçı kimi ağzına aldı.

Qayıqda üç nəfər kürək çəkirdilər.

Birinci səs dedi:

- Bəlkə yönümüzü dəyişək!

İkinci səs dedi:

- Faydası yoxdur.

Üçüncü səs dedi:

- İrəli, ya ölüm, ya azadlıq!

Və qayıq üstündə bir top mərmisi guruldadı.

Qayıq sıçradı sular üstünə qalxdı, bir an asıldı elə bil havada qaldı, sonra yenidən içəri şığdı və ağ köpüklü dalğaların qaynarında yox oldu...» (104, s.221-222).

Bu epizod əsərin qəhrəmanını milli məzmunundan uzaqlaşdırır. 1918-1920-ci illər yad siyasi təbliğatın nəticəsində mübarizə meydanına atılan digər vətən övladları kimi, o da istismarçı rejimin sadiq əsgərinə çevrilir. Bu, özünü onun – inqilabi fəaliyyəti nəticəsində həbs olunan Fərhadın məhbəsdən qaçaraq yeni XI ordunun tərkibində siyasi hərəkata qoşulmasında, fəhlə tətillərində iştirakında, sovet ideologiyasının rəhbər simasına mənəvi bağlılığında və nəhayət, «internasional» marşının səslaları altında işğalçı sovet qoşunlarının tərkibində Bakıya daxil olaraq «azadlıq» bəyan etməsində göstərir.

Novellada təsvir edilən ana obrazı yaddaşının müxtəlif anımlarını oyadır və bu xatirələr – qaçaqçılıq hərəkatı zəminində həlak olan həyat yoldaşı və mövcud siyasi ideologiyanın fəal mübarizlərindən olan oğlu ilə bağlıdır.

Ənvər Məmmədxanlının novellada hadisələrin inkişafı boyunca «qırmızı kitab» və «rəhbərin şəkli» kimi simvollaşdırdığı iki elementin xalqlara azadlığın və rifahın yolunu göstərəcək mühüm amillər kimi qiymətləndirməsi onun da sovet nəsrinin sxematik çərçivəsindən kənara çıxa bilmədiyinin təzahürüdür.

İnqilablar epoxasının çək-çevirinə düşən insanların ruhi sarsıntıları və daxili təzadları Ənvər Məmmədxanlının «Burulğan» (1934) povestində öz əksini tapmış-

dır. Tədqiqatçı-alim Yaqub İsmayılov əsərin mündəricəsinə dair yazır: «Burulğan»da tarixi dövrün, ictimai mühit və siyasi iqlimin təsviri şəksizdir. Amma bu da həqiqətdir ki, yazıçı toxunduğu mətləblərə bir qədər başqa sayaq, daha çevik təfəkkür işığında yanaşmağa can atdı. Bu məqsədlə də əsərə, ilk öncə dövrün səciyyəvi ölçüləri ilə «istehsal olunmayan» həyata baxışı ilə xüsusi fərqlənən ziyalı-mühəndis tipi gətirdi» (83, s. 10).

Yazıçı iki siyasi təfəkkür arasındakı ziddiyyəti – sovet siyasi düşüncəsinin yetirdiyi bir qrup insanla Azərbaycan Cümhuriyyəti dövründə Parisdə təhsil alaraq mühəndis ixtisasına yiyələnən, saf vicdanlı Rüstəm obrazı arasındakı münaqişə zəminində daha bariz şəkildə əks etdirir.

Ənvər Məmmədxanlının müxtəlif mövqe, baxış və duyğuların doğurduğu ziddiyyəti, qəhrəmanların içərisinə düşdüyü və çıxış yolu tapmaqda çətinlik çəkdiyi burulğana bənzər həyatı, həmçinin paradoksal siyasi görüşlərin toqquşmasını nəzər nöqtəsinə çevirən əsəri mövcud dövrün ictimai-siyasi ruhundan irəli gələrək «Burulğan» adlandırılmışdır.

İctimai mühit və sosial-siyasi atmosferin insanların həyatlarında doğurduğu faciəvi məqam Rüstəm ilə qızı Vəsilə arasındakı dərin mənəvi uçurumla şərtlənir.

Qeyd etdiyimiz kimi, Rüstəm milli hökumət dövründə xaricdə yüksək ali təhsil almış, sonralar Bakıya qayıdaraq burada əmək fəaliyyətinə başlamışdır. O, burada baş mühəndis işlədiyi mədəndə hörmət qazansa da, cəmiyyət həyatında baş verən sosial-siyasi meyllər onu insanlardan uzaqlaşdırır. Sosializm realizminin müəyyənləşmiş tələblərinə uyğun olaraq «kontrol rəqəmlər»in qeyri-reallığı, məlumat və alqışların saxtalığı onun mənəviyyatındakı böhranı daha da artırır. Hadisələrin inkişafı elə bir kulminasiya nöqtəsinə çatır ki, bütün səmimiyyəti

ilə vahid siyasi ideologiyanın vədlərinə inanan qızı Vəsilə ona tamamilə yadlaşaraq evdən gedir. Yaqub İsmayılov Vəsilənin mövqeyi ilə bağlı belə bir məqamı nəzərə çatdırır. «Əsərdə gənc Vəsilə yeni ictimai-siyasi mühitin fəal nümayəndəsi kimi ümumiləşdirilmişdir. Sovet quruluşunun tərbiyəsi ilə böyümüş bu qız inandığı ideya-məqsəd yolunda canından keçməyə, lazım gələrsə doğma atasından belə üz döndərməyə hazırdır» (83, s.13).

Bu fakt, xalqları neçə minillik keçmişindən ayıran sovet ideologiyasının fərdlərin yaddaşına yeritdiyi dərin psixoloji təsirin böyük gücünü bir daha isbat edir. Bu mənada tədqiqatçı-alim Tehran Əlişanoğlunun bir təsbiti maraqlıdır: «Burda dövrün bütün təzadları, inqilabın cəmiyyətdə buraxdığı təsirlər ayrı-ayrı obrazlar, onların düşüncə və hərəkətlərində təcəssüm edilir. Burulğan təkcə neft mədənlərində baş vermiş hadisələrlə məhdudlaşmır, o bütövlükdə cəmiyyəti culğayır, insanların içindən keçir, onların münasibət və qarşılaşmalarında, zəmanəyə və cəmiyyətə baxışlarında üzə çıxır, vüsəti və vəhşəti ilə romantik pafos doğurduğu kimi, haqlı etirazlara da səbəb olur. Usta Səməd, Vəsilə kimi insanları ağuşuna alıb bəslədiyi halda, Rüstəm, Seyfi, Varyaları götürüb kənar atır» (50, s.102).

Əsərdə Rüstəm haqq-ədalət tərəfdarlığı və dünyəvi düşüncəsilə tarixi keçmişinə sahib çıxan tamamilə milli xarakterdir.

Lakin «fənn də, elm də firqəyə xidmət etməlidir» - deyən Vəsilə vulqar sosializm elementlərini özündə daşıyan, milli başlanğıcından olduqca uzaqlaşmış bir obrazdır.

30-cu illər nəsri üçün xarakterik olan sosializm normativlərinin əksinə olaraq, Ənvər Məmmədxanlı "Burulğan" povestində həmin dövrün ictimai- siyasi mənzərəsinin inikasında liberallığa can atmış və bəzi

məqamlarda buna nail olmuşdur. Lakin yazıçı bu müstəqilliyini uzun müddət davam etdirə bilməmiş, Rüstəm obrazının "dəyişmə" prosesini konkret siyasi normativlər kontekstində göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti tarixinə öz əsərlərində bu və ya digər şəkildə münasibət bildirən yazıçılardan biri də Mir Cəlaldır. Yazıçı «Dirilən adam», «Bir gəncin manifesti» romanları və bəzi hekayələrində Cümhuriyyət həyatından bəhs etmişdir.

Sosial-psixoloji istiqamətdə işlənən «Dirilən adam» (1934-1935) romanında inqilablar dövrünün məngənəsində sıxılan «kiçik adam»ları – sadə işçiləri sərhədlərindən çox-çox uzaqlarda baş verən, adını tələffüz belə edə bilmədikləri ictimai proseslərin hərəkətverici qüvvəsinə çevirərək cəmiyyətdə gedən dirilmə hadisəsinin əsas qəhrəmanı səviyyəsinə yüksəldilməsi stixiyası vahid ideologiyanın təsir və qüvvəsini artıran amil kimi özünü göstərir.

Əsərdə əsasən, üç siyasi istiqamət və sinfi təbəqələrin ona münasibəti məsələsi göstərilir. Çar Rusiyasının təmsil edən Nikolay, Azərbaycanda yenicə qurulan islam hökuməti – Müsavat partiyası və mövcud sistemi devirib yeni hökumət qurmağa cəhd edən bolşevik hərəkatının ideoloji mübarizəsi sadə insanların keşməkeşli həyatları fonunda təsvir edilir. «Ay müsəlmanlar, bilin ki, islam hökumətimiz cavandır, təzədir, qüvvəsi azdır. Gərək siz qolundan tutub qaldırasınız. Elə ki, qüvvətləndi, kasıbdan naloq da almayacaq, heç nə də istəməyəcək. Hələ indilikdə islam zəifdir, gətirin, verin!» (120, s. 22) – burada müəllif kəndliləri dövlət adından istismar edən mülkədarların tüfeyli həyat tərzini və özbaşınalığını nəzər nöqtəsinə çevirməklə yanaşı, mövcud dövrdə milli istiqlaliyyətin təntənəsinə çevrilən Azərbaycan Xalq Cümhuriyyətinə sosrealist mövqedən yanaşaraq tənqidi mü-

nasibət bildirir. Belə bir yanaşma romanda hadisələrin inkişafının sonrakı mərhələrində də özünü göstərir.

Əsərin mənfi obrazı Bəbir bəyin dilindən Azərbaycan Cümhuriyyəti ideologiyası və məramı təhrif olunmuş şəkildə açıqlanır: «...Mən ki, qabaqdayam, hökumət öz əlimizdədir. İş başında durub müsəlman... Hürriyyətlik dediyin nədi? Özümüzük, lap loru deyək: özümüzük dana! Kimi deyirsən yıxım, kimi deyirsən tikim. O bizim əlimizdədir. Şəhərdə elə hörmətimiz var, bütün kəndi selə verəm, bir deyən olmaz, a bəy, gözün üstə qaşın var. İxtiyarım özümdədir» (120, s. 25).

Kasıb-dövlətlinin bərabər hüquqlu yaşaya biləcəyi kommunist cəmiyyətini yaratmağa çalışan bolşevik hərəkatının fəal mübarizlərindən – Qiyasın bütün yoldaşlarını müsavat zülmündən qurtarmağa çağırması, həmin partiyanın sədri fəhlə Qara kişinin Müsavat ideyalarını «müsavatçıların zəhərli fikirləri» adlandırması mövcud dövrün ictimai-siyasi mənzərəsini təyin edən maraqlı fakt kimi diqqəti cəlb edir.

Müəllif vətənin bolşevik sabahına inamını aşağıdakı sətirlərdə ifadə edirdi: «Əsrlər boyu tapdalanmış dünya bu gün, yalnız bu səhər nədənsə nəfəs alır, dincəlirdi. Nə üfüqlərdə, nə dərələrdə duman, nə dağlarda bulud görünür, nə yerlərdə fəryad eşidilirdi. Deyəsən yaranandan bəri döyüş və çarpışmalardan yorulan dünya böyük bir tənəffüsə çıxmışdı. Ani sakitlik müdhiş və böyük günlərin sərlövhəsini yazırdı.

Yox! Belə görünsə də, belə deyildi. Kainat susmuş, diqqətini toplamışdı.

Qoca tarix yeni və böyük bir natiqə, həyatın qızıl komandanına söz verirdi. Bu natiq üfüqlərdən yüksələn günəş, qəlblərdə qaynayan sevinc, nəzərlərdə böyüyən səhər idimi? Bəlli deyil, lakin bəlli olan bir şey var idi.

Hamı, hər yer, hər şey bu natiqi, onun göylər kimi saf səsini dinləmək istəyirdi.

Sükut çox sürmədi. Şəhər tərəfindən qopan şən və şaqraq səslər şüalar kimi aləmə yayıldı» (120, s. 121).Bu təsvirdə də sosialist təfəkküründən doğan mükəmməlçilik xisləti özünü göstərir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə baş verən tarixi-siyasi hadisələr təhrif olunmuş və hakim ideologiyanın siyasi istiqamətinə uyğunlaşdırılmış şəkildə Mir Cəlalın daha çox sosial xarakter daşıyan digər romanı «Bir gəncin manifesti» əsərində müəyyənlik qazanmışdır.

Sovet nəsrinə xas olan inqilabi təfəkkürü formalaşmamış sadə insanların siyasi mübarizə meydanına gətirilərək süni qəhrəman səviyyəsinə yüksəldilməsi stixiyası bu romanda da özünü göstərir.

Əsərin qəhrəmanı Mərdanın yerli sahibkarla konflikti nəticəsində birdən-birə düşünülməmiş addımlarla şəhərə üz tutması, orada, qeyri-müəyyən bir məkanda inqilabçılarla dostlaşması və bolşevik hərəkatının önündə gedən rəhbərlərdən birinə çevrilərək doğma kəndinə qalib kimi qayıtması buna aydın sübutdur.

Rusiyada baş verən inqilabın güclü dalğası yaxın Asiya ölkələrindən – o cümlədən milli istiqlalına yeni qovuşmuş gənc və azad Azərbaycandan da yan keçməmişdir. Ölkə həyatında yaranan bu xaotik vəziyyət romanda belə təsvir olunur: «Bəziləri bunu, bu həngaməni, ümumiyyətlə dünya işlərinin çəlpəşik düşməsi ilə, bəziləri allahın günahkar bəndələrə keçən qəzəbi ilə, çoxları isə bəylərin, böyüklərin qudurğanlığı ilə izah edirdilər. Bunların hansının düz olduğunu düşünüb müəyyən etməyə vaxt da yox idi. Bir-birini təqib edən, bir-birindən sərt və nagəhani görünən hadisələr ara vermirdi» (120, s. 160).

Yeni qurulan milli hökumət bir tərəfdən özünü doğrultmağa çalışırdı, digər tərəfdən isə ölkəyə daxil olan yad siyasi axınlarla mübarizə edirdi. Belə bir şəraitdə sinfi təbəqələr arasındakı tarazlığı bərpa etmək və xalqın sosial tələbatını tamamilə ödəmək mümkün deyildi. Bundan faydalanan bolşevik hərəkatının nümayəndələri sadə xalqın nümayəndələrinə sosial rifah vəd edərək onları milli hökumətə qarşı hazırlayırdılar. «– Nə qədər ki, bu hökumət var, nə qədər ki, Sarı İmanqulunun oğlu qaçaq Qənbər, Ələs bəylər iş başındadır, belə olacaq. Camaat Nikolayın boyunduruğundan qurtarmamış bağladılar müsavat boyunduruğuna... Bağladılar! Yaman bağladılar. Allah var deyirlər, allah... Boş sözdür» (120, s.242) – deyən fəhlə Bağırın, eləcə də onun digər silahdaşları Yəhya və Yaqubun timsalında bolşevik hərəkatının rəhbərləri öz məqsədlərinə nail olmuşdular.

«Müsavatçıların, iş başına keçən bəy-xanın aralığa saldığı, qızışdırdığı bu ədavət bizim camaat – kəndliyə, muzdura, rəncbərə ağır bir müsibət oldu. Bu allahsız əliqanlılar xalqa bəla, müsəllət olublar» (120; s.180) – deyən Mərdan milli hökumət nümayəndələrini «müsavat çuğulları» adlandırır. Siyasi hadisələrin mürəkkəb axınına düşmüş insanların gücü təbliğat nəticəsində yüksələn «Nəsib bəylərin çarxları devrilsin» (120, s. 255) – nidalarına Sovet partiyası tərəfindən aldadılaraq sosial bərabərsizlik vəd edilən fəhlələrin «Bizim yolumuz qırmızı Rusiyanın yoludur!» (120, s. 255) – səsləri qarışır. Xalqa «yalançı hakimiyyət» təlqin edən bolşevik hərəkatının nümayəndəsi Yəhya obrazının dilindən mövcud siyasi rejimin saxta məramı belə açıqlanır: «Biz sinif mübarizəsi aparırıq. Biz cəmiyyətdə istismarçıların hamısı ilə mübarizə aparırıq. Özü də tin dalından atıb vurmaqla yox: biz öz sinifdaşlarımızı ayıldırıq. Biz, yəni komsomolçular, Kommunist Partiyasının yaxın köməkçisiyik.

Partiyamız bu saat burjuaziyanı, müsavat ağalığını yıxmaq, hakimiyyəti ələ almaq üçün çalışır. Lenin, bizə öyrədib ki, burjuaziya hökumət başından yıxılmayınca, hakimiyyət zəhmətkeşlərin əlinə keçməyincə inqilab baş tutmaz, kasıb ağ gün görməz, qapaz altından qurtulmaz! Köhnə quruluşun bünövrəsini qazımaq lazımdır! İstismarçıları – bəy-xan hökumətini, vətənimizi imperialistlərə satan, xalqın var-yoxunu hərraca qoyan xainləri yıxmaq lazımdır. Məsələ budur!» (120, s. 238).

Bəli! Xalqlara azadlıq və bərabərlik vəd edən «17 oktyabr manifesti»nin müstəmləkəçilərin xalqları özlərinə ram etmək üçün istifadə etdikləri boş söz və saxta tezisdən başqa bir şey olmadığı illər sonra aşkarlandı. Mövcud hadisələr məkanında bunun fərqinə varan milli nümayəndələri isə ya ölümə, ya da sürgünə göndərilirdilər.

Hələliksə, Azərbaycanın həqiqi müstəqilliyi və milli mənliyi uğrunda mübarizə aparacaq övladı Bağırın şəxsində Lenin ideologiyası uğrunda dar ağacından asılırdı.

Həmçinin, «proletar ədəbiyyatı»nın xislətinə uyğun olaraq «millətlərin qardaşlığı və həmrəyliyi» şüarının ədəbiyyata gətirilməsi tendensiyası azərbaycanlı Mərdanın erməni Surenlə qardaşlığı məsələsində özünü göstərir. Halbuki, tarix boyu azərbaycanlılarla milli ədavət aparan ermənilərin Azərbaycanda on səkkiz min günahsız əhalinin qətliamı ilə növbəti milli qırğını o qədər də uzaq tarix deyildi. Əsərdə müsavatçı Məşədi Müseyibin dilindən Surenin kimliyi məsələsi belə açıqlanır: «- Kimdir Suren dayı? Suren dayı bizim qəhrəman əsgərlərimizin qılıncından qurtulmuş dağ ermənisi! Kim bilsin, havaxtsa bolşevikliyə qoşulan bir dığa! Onu bilirsiniz ki, bu saat düşmənlərimiz əl altından işləyirlər? Yaqub öz başına atılıb sənin dustağını qaçırmır. Ona bu cəsarətli verən var. Bu zəmanədə Suren dayı müsəlman kəndinə qonaq

gəlməz! Onun məramı var, onun mətləbi var. Onu göndərən var. O, vacib işə gəlib. Yəqini belədir!..! (120, s.176).

Həmin tarixi mərhələdə böyük inamla «kommunist» ideologiyasına bağlı olan həmvətənlərimiz bunun fərqinə varmasa da, «erməni lobbiləri»nin məsul vəzifələrdə yerləşdirilərək xalqın içərisinə yeridilməsi Azərbaycanı parçalamaq və milli başlanğıcından ayırmaq uğrunda aparılan böyük siyasətin bir hissəsi idi.

Romanda «Müsavat» hökumətini təmsil edən Vəznəli kişi, Məşədi Müseyib, Fərzixanov və b. surətlər mənfi planda işlənmişdir. Onlar soyğunçu, talançı kimi tanıdılan Milli hökumətin hərc-mərclik yaradan mürtəce ruhlu nümayəndələri hesab olunurlar. «Hökumət adamları illərdən bəri acıxmış, quduzlaşmış canavarlar kimi əhalinin qanına susamışlar. Zəhmət adamlarının malı, canı hər an təhlükədədir. XX əsrdə başlanan bu misilsiz dərəbəyliyin necə, nə ilə nəticələnəcəyinin çarəsini bilənlər hanı!» (120, s.268). Və yaxud: «Müsavatın kəshakəs vaxtıdır. Aləm bir-birinə qarışıbdır, it yiyəsini tanımır. Yol-rız, qaçaq-quldurla, başkəsən, oğru, cibgirlə doludur. Dinc əhali gözlənilməz tələyə düşmüş kimi birtəhər öz başını qorumağa çalışır. Qonşudan-qonşuya arxayın gedə bilmirsən. Hər axşam min cinayətlə qovuşur, hər səhər min vay xəbəri, min bir dəhşətlə açılır» (120, s.267).

Təbii ki, «Müsavat» partiyasına və onun təmsilçilərinə belə bir təhkiyəçi münasibəti «sosializm realizmi» ədəbiyyatının normativ-tətbiqi əsasından irəli gəlirdi. Həmçinin, ölkədə tez-tez çaxnaşmalar salan və qanlı toqquşmalar törədən «Daşnaksütun» partiyasının fəaliyyəti, bolşevik hərəkatının gizli mübarizəsi və yerli sahibkarlarla yaranan ixtilaflar, eləcə də Xəzərin sahillərində öz qoşunlarını yerləşdirən ingilis hökmranlığı kimi

mürəkkəb hadisələr dövrün sosial-psixoloji vəziyyətini olduqca gərginləşdirirdi.

Əsərdə Azərbaycanda ingilis hökmranlığı məsələsi xüsusi epizod təşkil edir. Müəllif Sona obrazının dili ilə ingilisləri müsavatçıların müttəfiqləri hesab edir. «Sona camaat arasındakı danışıqlardan bilirdi ki, aylarla yollar basa-basa gəlib buralara çıxan o «boz şeytan» uzun və murdar fil xortumu ilə yalnız nefti sormur. Gecə-gündüz dağda-daşda sümsünür, ağlı kəsən yumşaq və «yağlı» yerlərdə mıx-tövləsini bərkitməyə, vətən torpağının şirəsini, fağır-füqəranın qanını sormağa çalışır». (120, s.192).

Əsərdə milli hökumət tərəfdarlarından qaçaq Qənbər obrazı ingilis hökumətinin müdafiəçi kimi göstərilmişdir.

Mərdan obrazı bolşeviklərin verdiyi dəstəklə ingilis hökumətinin nümayəndəsinə və tərəfdarlarına etiraz edir: « - Britaniya nümayəndəsi yeddi iqlim basa-basa burada, Azərbaycanda nə qələt eləyir? Sizin Britaniya ağaları ilə qohumluğunuz haçandandır?.. Ana torpağı niyə və kimə satmaq istəyirsiniz? Xalqı köməksiz görmüsünüz? Yox, keçmiş ola! Xalqın öz haqqını qorumağa gücü çatar! Daha o zaman keçmiş ola! Siz görən ağacları kəsdilər» (120, s.246).

Romanın «Azadlığı qorumaq – onu fəth etmək qədər müqəddəsdir» (120, s. 304) epiqrafı ilə verilən «Qanlı gün» sərlövhəli fəsli «Gəncə üsyanı»na həsr olunmuşdur. «Atışma səsinə gecədən camaat ayılmışdı. Damlara, divar başlarına çıxıb qulaq asanlar bunun mənasını anlaya bilmirdilər. Uzaqda, şəhər tərəfdə, gecənin zil qaranlığı içində get-gedə şiddətlənən partapartın nə demək olduğunu bilən yox idi.

Səhərə yaxın faytonçu Əhməd vağzaldan gəldi, deməyinə görə «Gəncə bəyləri, müsavat zabitləri üsyan eləyiblər» (120, s.304).

Azərbaycan tarixindən məlum olan Gəncə üsyanı bildiyimiz kimi, xalqımızın milli-azadlıq mübarizəsinin ən şanlı səhifəsidir. Uzun illər həmin tarix təhrif olunmuş və dəyişdirilmiş şəkildə təbliğ olunsa da, çağdaş dövrümüzdə Azərbaycan xalqının cəsur və millətsevər övladlarının böyük şücaət göstərdiyi «Gəncə hadisələr»inin öz əksini tapdığı xeyli sənədli material aşkar olunmuşdur.

Həmin dövrdə bundan xəbərsiz olan sadə millət nümayəndələri öz «milli varlıq»larına qarşı mübarizəyə qaldırılırdı. Mövlan kişi kimilər də yad təbliğatın nəticəsində: «Daşa basmaqla olsa da, düşməni yaxın qoydu yoxdur! Daha müsavatın ayağı altında tapdanmağa halımız qalmayıb!.. Bir oğlum səngərdədir. Qoca canımı da aparıram» (120, s.311) - deyərək yad ideologiya uğrunda mübarizəyə qalxır. Azərbaycana baçqınçı kimi daxil olan «Qızıl ordu»nun əsgərləri azadlıq müjdəçisi kimi qarşılanır. «Onların günəşdən yanmış tunc sifətində qabaran kin və intiqam cizgilərini görmək çətin deyildi. Onlar quduz müsavatçıların, xan-bəy Gəncəsinin yerə-göyə sığmayan cinayətindən hiddətə gəlmişdilər. Gəncənin, qırmızı Gəncənin yenicə başlayan işıqlı sabahını, zəhmətkeşlərin əsrlərdən bəri arzulayıb nail olduğu azadlıq günlərini qorumağa, vətən torpağını xainlərdən təmizləməyə, zülm və sitəmin rişəsini kəsməyə gedirdilər» (120, s.323).

Bəli! Bu, xalqımızın Mərdan kimi fəal övladlarının yanlış siyasi təfəkkürlə silahlandırılaraq öz azadlığı deyil, əsarəti uğrunda mübarizə meydanına atılması idi. Gəncə – Milli Cümhuriyyətimizin alınmaz qalası idi. Gəncə qırğını ölkəmizin və milli yaddaşımızın işğalı, Azərbaycan Cümhuriyyətinin çökdürülməsi ilə nəticələndi.

Milli oyanışını yaşayan Azərbaycanın Cümhuriyyət dövrü müxtəlif tarixi proseslərin kontekstində Hüseyn

Abbaszadənin «Burulğanlar» romanında da əks etdirilmişdir.

Süjeti yetmiş ildən artıq zaman müddətini əhatə edən «Burulğanlar» əsərində tariximizin Azərbaycan Cümhuriyyəti və onun çökdürülməsi, Şura hökumətinin qurulması, İkinci Dünya müharibəsi, eləcə də ondan sonrakı mərhələsi mürəkkəb ictimai-siyasi hadisələrin qovuşuğunda təsvir edilmişdir. Ümumiyyətlə, əsərin qəhrəmanı Həmidin timsalında əzab və iztirablardan keçən, burulğanlar içində burulan və saflaşan qəhrəman obrazı axtarışı Hüseyn Abbaszadə yaradıcılığı üçün xarakterikdir. Lakin bu cəhət həm də dövrün ruhundan doğan bir manera idi. Artıq müharibədəki qalibiyyətini təmin edən sosializm realizminin ədəbiyyat səhnəsinə keyfiyyətcə yeni – həyatın keşməkeşlərindən, təbəddülatlarından qalib çıxan qəhrəman obrazının gətirməsi ilə bağlı idi.

Azərbaycanda ingilis ağalığının hökmran olduğu bir məqamda əsərin qəhrəmanı Həmid şəxsi ədavət səbəbindən dayısı Turabın vasitəsilə Həştərxana yola salınır. Burada, Turab obrazı haqqında verilən qısa məlumat maraq doğurur: «Turab on ikinci ildə siyasi fəaliyyətinə görə həbs edilib Şimala sürgün edilmişdi. Keçən il Rusiyada Şura hökuməti qurulandan sonra dustaqxanadan çıxıb Həştərxana gəlmişdi. Doğma şəhərinə qayıtmaq Turab üçün hələ təhlükəli olsa da, Bakıya partiyanın tapşırığı ilə gəlmişdi. Gizli yolla Həştərxana neft göndərmək işinə başçılıq edirdi». (1, s.28).

Bu, sonralar Bakıda «qanlı illər» - deyə xatırlanan, Xəzər neftinin yadelli işğalçıların əlində olduğu, rus bolşeviklərinin vətənin övladlarının əli ilə qanlı çevrilişə hazırlaşdığı və milli hökumətin son günlərini yaşadığı olduqca gərgin tarixi dövr idi. Bu baxımdan romanın qəhrəmanı Həmidin belə bir mərhələdə Həştərxanda

«Qızıl ordu»nun sıralarında xidmət edən azərbaycanlı əsgərlə mükaliməsi çox maraqlıdır: «Bizim müsürman əsgərlərinin ayrı şəhərdə nə azarı var? Bəyəm Bakımızda əsgər lazım deyil? Orda aləm bir-birinə qarışıb. İngilislər, nə bilim daha kimlər çəyirtkə kimi dolublar şəhərə. Üstəlik danışırlar ki, Tiflisdən nemislər də Bakıya qoşun çəkməyə hazırlaşırlar. Hələ Xəzəri demirəm. İngilis gəmiləri dənizdə ağa kimi belədən-belə gəzirlər. Siz də yığılıb oturmusunuz burda. Day bu nə əsgərlik oldu?!» (1; s.57).

Əsgər Həmidin vətənimiz darda ikən burda kiminlə vuruşursunuz? – sualına: «Kiminlə vuruşuruq? Əksinqilabçılarla, ağqvardiyaçılarla. Həştərxanda martın onunda başlanan o hadisələri nə tez yaddan çıxardınız. Əksinqilabçıların qaldırdığı qiyamdan çox keçməyib, əgər onda şəhərdə hərbi hissələr olmasaydı on səkkizinci ildə Bakı kommunası dağılan kimi Həştərxan da əldən getmişdi. İndi ağalar burda ağalıq eləyirdilər» (1, s.57) – deyə cavab verir.

Azərbaycanın mövcud şəraitdə xilaskara ehtiyacı var ikən, onun övladlarının başqa ölkədə yad ideologiya uğrunda menşeviklərə qarşı vuruşmasının yanlışlığı Həmid obrazının dilindən ifadə edilir: «Bakıda vəziyyət heç də burdakından yaxşı deyil. Həştərxanda əsgər çoxdu; onun keşiyində duran tapılar. Hər ölkənin qoşunu öz torpağında qalsa, başqa yerə soxulmasa, ara belə qarışmaz. Özünüzə umac ova bilmirsiniz, özgəyə ərişdə kəsirsiniz. Əvvəl evin içi, sora çölü» (1, s.58).

Bu, heç bir yad təsirə uymayan, daxilən təmiz, sadə bir azərbaycanlı övladının mövqeyidir.

Həmid iyirminci il çevrilişindən sonra Bakıya qayıdaraq köhnə iş yerində – körpüdə işləməyə başlayır. Artıq milli hökumət çökdürülmüş, ingilislər Bakını tərk etmiş və Şura hökuməti qurulmuşdur. Hər yerdə «Yaşasın

fəhlə-kəndli hökuməti», «Şura hökuməti», «Yaşasın dünya inqilabı!», «Bütün ölkələrin proletarları, birləşin!» şüarları səslənirdi.

Əsərdə yaradılan bolşevik Matros Həbib obrazı dövrün siyasi mənzərəsinin əks etdirilməsi baxımından maraqlıdır. İnqilab sözü onun dilindən düşmür, hər işi inqilabla bağlayır.

Romanda diqqətimizi cəlb edən digər nüansı nəzərinizə çatdırırıq: «Umur baba da Turab kimi inqilab naminə, azadlıq yolunda qurban getmişdi. Turab firqəçi idi, bolşevik idi, ancaq Umur baba firqənin nə olduğunu bilmirdi. O, sularında əsrlərdən bəri dədə-babasının balıq tutub güzəran keçirdiyi dəli Xəzəri azad görmək istəyirdi. Qoca hər dəfə dənizdə xarici gəmilərlə rastlaşanda elə bilirdi ki, əcdadının müqəddəs ruhunu təhqir eləyirlər, dünya başına fırlanırdı» (1, s.102).

Burada Sovet nəsri mövqeyini müdafiə edən yazıçı münasibəti Şura hökumətinin Azərbaycana həqiqi azadlıq gətirməsi müddəasını əks etdirmişdir. Lakin zaman bu tezisin nə qədər saxta olduğunu bir daha sübut etdi. Təəssüf ki, iyirminci illərdə ölkəmizdə Turab kimi yanlış siyasi əqidə ilə aşılanaraq mürtəce hərəkat yolunda qurban gedənlərlə yanaşı, sadəcə olaraq doğma yurdunu yad tapdağından azad görmək istəyən siyasi təfəkkürü formalaşmayan Umur baba kimi sovet hökuməti tərəfdarları da vardır.

Əsərdə Balağa obrazının timsalında günahsız insanların Çekanın «ölüm dəyirman»ında üyüdülərək repressiya qurbanı olması faktı bolşevizmin terrorçu xislətini sübut edir. Lakin Həbib kimi bolşeviklər Azərbaycan Cümhuriyyətinin düşünən beyinlərini məhv edən «Çeka»nı «haqq, ədalət» mücəssəməsi hesab edirlər «-Mən sənə inanıram Xələfov, amma çekaya səndən və özümdən çox inanıram. Orda qərəz-filan ola bilməz. Çekaya

işləməyə hər yerində duranı götürmürlər, inqilaba, xalqa sadiq şəxsləri seçirlər» (1, s.128).

Həmçinin, romanda İkinci Dünya müharibəsi dövründə Azərbaycan bir qrup hərbi və siyasi mühacirlərinin Alman hökuməti ilə birgə danışıqları nəticəsində azərbaycanlı əsirlərin əslikdən azad edilərək xüsusi düşərgəyə köçürülməsi prosesi təsvir edilir. Burada məqsəd azərbaycanlı əsirləri yad təsirlə məğlub edilən milli hökumətin yenidən dirçəldilməsi uğrunda mübarizəyə yönəltmək və müstəmləkəçi imperiyanın mənafeyinin müdafiəsindən çəkindirmək idi. «Almanlar biz azərbaycanlılara böyük etibar göstərib, təkrar edirəm, böyük etibar göstərib, əlimizə silah verib, vətənimiz Azərbaycan torpağını azadlığa çıxarmaq üçün imkan yaradır. Dünyanın bu qarışıq çağında bundan gözəl nə ola bilər?! Şəxsən mən bu müqəddəs məqsəd uğrunda ölməyə hazıram. And içirəm ki, on canım olsaydı, onunu da tərəddüd eləmədən bu yolda qurban verərdim. Amma təəssüf ki, hamı bu müqəddəs işin mənasını, əsl mahiyyətini düzgün dərk etmir» (1, s.255).

Lakin sosializm realizmi ədəbiyyatının dəyərləri əsasında qələmə alınan bu romanda Ruhulla Axundov və onun kimilər xalqın arasına millətçilik və şovinizm toxumları səpən vətən xaini və satqınlar kimi təcəssüm etdirilmişdir.

Xalqımızın tarixi keçmişi, mənəvi-psixoloji həyatı Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığının son mərhələsində nəşr etdirdiyi «Geriyə baxma, qoca», «Üçatılan» və «Qaçaq Süleymanın ölümü» əsərlərində öz əksini tapmışdır.

Ədib «Geriyə baxma, qoca» romanında yaxın tariximizin ictimai-siyasi hadisələrini məhz zaman kontekstində göstərir və araşdırır. Onun burada, ömrünün ahıl çağında xəyali olaraq uşaqlıq və gənclik çağı ilə görüş-

məsi də bu tendensiyadan irəli gəlir. «Bu, müəllifin konkret ideya-bədii məqsəd ilə bağlı idi; keçmişi gəncliyə yaxşı tanıtmaq, kimliyimizi, tarixi-milli mənliyimizi göstərmək və onları yeni cəmiyyətin daha fəal qurucuları kimi yetişdirmək niyyətindən irəli gəlirdi» (82, s. 93).

O, burada xalqı qəhrəmanlıqlarla zəngin keçmişinə qaytararaq yaxın-uzaq keçmişlərin və nəsillərin canlı rabitəsini təmin edir.

Bu mənada təhkiyəçi-qəhrəmanın keçmiş və tarixlə bağlı düşüncələri maraqlı səslənir: «Hətta indi, yəni yaşlı vaxtımda dönüb keçmişə baxmaq istəyəndə elə bil ki, içəridən bir səs təşvişlə mənə deyir: «Geriyə baxma, qoca! Lakin mən baxmaq istəyirəm. Mən bu keçmişin çox əzablı, çox kədərli olduğunu bilirəm, ancaq yenə də ona təkrar-təkrar tamaşa etmək, nəyi isə anlamaq istəyirəm. Bəlkə də bu mənim «nə isə»ni o zaman babamla nənəmin, atamla anamın bir zaman yaşadıqları, xoşbəxt olduqları gözəl hissləri əzaba, kədərə, kinə, nifrətə döndərən qəddar səbəbi bilmək arzum idi ki, indi də məndən əl çəkmirdi» (46, s. 51).

Bu, bir şəxsin mənsub olduğu millətin tarixi keçmişinə olan hörmətidir. Bəli! Nə olursa-olsun yaddaşlar oyadılmalı, tarixlər xatırlanmalıdır. Hətta bu keçmiş əzablı və kədərli tarixin izlərini özündə yaşatsa da, unudulmamaq üçün yenidən yaddaş süzgəcindən keçirilməlidir. «Muradın mahir sənətkar səmimiyyəti ilə canlandırılan uşaqlıq aləmi tədricən öz «mən»inin hüdudlarından kənara çıxıb, müxtəlif hadisə və vəziyyətlər mühiti ilə də əlaqələnir, dövrün səciyyəsini aydınlaşdırmağa xidmət edir, keçmiş haqqında, insan həyatı və taleyi haqqında qənaətlərimizi zənginləşdirir» (82, s.95-96).

Həmin dövrün ictimai-siyasi mənzərəsini müəyyənləşdirən bu hadisələr uşaq yaddaşına sığmayacaq

qədər sərt və ciddi həqiqətlərdir. Murad yaşadığı qısa zaman müddətində insanlar arasındakı bərabərsizliyi görüb dərk etmişdi. Eləcə də, Nikolayın taxtdan salınması, getdikcə yayılan qaçaqçılıq hərəkatları, Müsavat hökumətinin qurulması, türk qoşunlarının Azərbaycana gəlməsi və nəhayət, XI qızıl ordunun işğalçı gəlişi ilə milli hökumətin çökdürülməsi və Şura hökumətinin qurulması kimi olaylar onun yaşadığı tarixin müxtəlif səhifələri idi. O, müsavat hökumətinin qurulmasını belə xatırlayır: «Atamgilin söhbətlərindən onu da hiss edirdim ki, bu yeni hökumət atamda və onun məclisində iştirak eləyənlərdə, nə isə yeni bir əhvali-ruhiyyə doğurmuşdur. Birinci dəfə olaraq mən onların söhbətlərindən tez-tez «milli azadlıq», «milli Azərbaycan hökuməti» kimi ifadələr eşidirdim. Mən birinci dəfə atamın dilindən «vətən» sözü eşidirdim və mənə elə gəlirdi ki, bu söz harda isə unudulub qalmışdı və yalnız indi çıxırdı meydana, mənim anam indi, yalnız indi bu sözün mənasını başa düşürdü» (46, s.171).

Sonralar yenidən bu xatirələrə qayıdan müəllif ölkənin ayrı-ayrı xanlıqlara parçalanmasını və Arazın hər iki sahilində çarizmin və İran şahlarının qəddar siyasəti nəticəsində millətin özünə yadlamasını təəssüflə qeyd edir. Lakin hadisələrin sonrakı inkişafında yazıçı vahid ideologiyanın tələblərinə uyğun olaraq «Müsavat» hökumətinin xalqa vəd etdiyi bərabərliyi vermədiyini və varlı-kəndli ixtilafının hələ də qalmaqda olduğunu yazır: «...Müsavat hökumətinin bərabərlik ideyası əslində mücərrəd bir şey imiş və onun real fəaliyyətində bu «bərabərlik» hiss olunmurmuş. Onlar zəhmətkeş xalqın gözüaçıq, qabaqcıl adamlarını dövlət işlərinə nəinki cəlb etməmiş, hətta bu barədə heç düşünməmişlər» (46, s. 175).

Daha sonra müəllif Şura hökumətinin qurulması və bu hökumətin sosial rifah vəd etməsi ilə bağlı fikirlərini qeyd edir. Bu da təbii ki, mövcud dövrün siyasi düşüncəsindən gələn bir tendensiya idi. Tədqiqatçı alim Yaqub İsmayılov «Geriyə baxma, qoca» romanı haqqındakı tədqiqatını belə ümumiləşdirir: «Geriyə baxma, qoca» hansı emosional təəssürat və psixoloji vəziyyət nəticəsində deyilmiş nida, əsərə qoyulmuş ad olsa da, dönüb geriyə baxmağa dəyər. Belə baxış ona görə mütləqdir ki, onsuz irəli getmək çətin, bəlkə də qeyri-mümkündür. Axı, keçmişi mükəmməl bilmədən, özümüzü lazımınca tanıyıb dərk etmədən gələcəyi arzuladığımız şəkildə necə qurmaq, böyük və vüsətli nailiyyətlərə necə çatmaq olar? Romanın mühüm ictimai-estetik dəyəri də bizi keçmişlə, tarixi gerçəkliklə yaxından tanış etməsində, hansı inkişaf yolu keçdiyimizi və haraya doğru getdiyimizi emosional dillə, real bədii xatirələrlə əyaniləşdirməsindədir» (82, s.98).

Hadisələrin sonrakı inkişafında sovet psixologiyasının açıq təsiri duyulan roman yeni quruluşun sadə insanların təfəkküründə yaradığı psixoz vəziyyətinin təsviri və xalqımızın tarixi hadisələrlə zəngin keçmişini özündə təcəssüm etdirməsi cəhətdən maraq doğurur.

İlyas Əfəndiyevin tarixi-inqilabi mövzuya həsr etdiyi digər əsəri «Üçatılan» povestidir. Əsər XX əsrin ilk illərində, 1915-20-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələrdən bəhs edir.

Burada, inqilab nəticəsində ucqarlarda yeni quruluşun bərpa olunması və ictimai həyatın dəyişməsi və müxtəlif sosial təbəqələrin bu hadisələrə münasibəti məsələsi ön plana çəkilir.

«Üçatılan» rəmzi xarakter daşıyır. Keçmişdə bu silah xalq qəhrəmanlarına, dövlət əleyhinə çıxmış qaçaqlara çox xidmət etmişdir. Artıq zaman dəyişib, yeni

quruluş bərqərar olub və üçatılan da artıq keçmişə çevrilib. Bu yanaşma xalqımızın tarixində özünəməxsus rol oynayan bir sıra siyasi-tarixi hadisələrin də artıq keçmişə çevrildiyinə işarədir. Lakin tamamilə milli xarakter təsir bağışlayan ziddiyyətli və mürəkkəb obraz olan Ərşad hələ də keçmişi yaşatmaq istəyənlərdəndir. Əsərin sonunda o da yeni quruluşa təslim olur, milli-tarixi keçmişin artıq çox uzaqda qaldığını qəbul edir.

Yazıçının Azərbaycanın bütövlüyü və azadlığı uğrundakı mübarizəyə həsr olunmuş digər əsəri «Qaçaq Süleymanın ölümü» povestidir. Povestdə hadisələr XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda gedən milli azadlıq hərəkatına həsr olunmuşdur. İlyas Əfəndiyev bu əsəri yazmaqla çar zülmünə və İran şahına qarşı mübarizə aparmış Azərbaycanın igid oğullarının ümumiləşdirilmiş obrazını yaratmışdır. Tarixi faktlara əsaslanan İlyas Əfəndiyev burada, bütün dünyada məşhur olan erməni satqınlarının nümayəndələri – Kasparov, Vartan, Haykanuş kimiləri haqqında da qeydlər etmişdir.

b) Sovet ədəbi konyuktur sistemi və Cümhuriyyət məfkurəsi

Sosrealist prinsipləri əsas götürərək milli gerçəklikdən kənarda qavranılan «yeni dövr» ədəbiyyatını proletar ruhlu inqilabı mövzularla dolğunlaşdıran bir qrup yazıçıdan biri də Mehdi Hüseyndir. O, hesab edirdi ki, mübarizə, qalibiyyət, çətinlikləri böyük qəhrəmanlıqla aradan qaldırmaq praktikası ədəbiyyatımızın başlıca qayəsi olmalıdır.

Ümumiyyətlə, «sovet nəsri» kontekstində «millilik» anlayışı qəbul olunmur, hətta leksikondan çıxarılaraq «beynəlmiləl» məfhumu ilə əvəzlənir. Bütün bunlar döv-

rün ruhundan doğan tendensiya idi və mövcud zamanda yaranan bədii nəsr faktlarında öz əksini tapırdı.

Mehdi Hüseyn də «inqilablar epoxası»nın axarına düşərək bir-birinin ardınca sovet gerçəkliklərini özündə təcəssüm etdirən əsərlər yazmağa başlayır. Beləliklə, xalqımızın milli mübarizə tarixi mövcud dövr yazıçılarının obyektivindən çıxır və yerini yalançı proletar inqilabını vəsf edən əsərlərə verir.

Sosialist ədəbiyyatın səciyyəvi xüsusiyyətləri – tendensiyalı mövzu seçimi, həyat həqiqətlərindən olduqca uzaqda yaradılan və formalaşdırılan qondarma qəhrəman idealizəsi, zamanın aktual atributlarının bədii obraz səviyyəsinə yüksəldilməsi Mehdi Hüseyn yaradıcılığının konkret nümunələrində özünü büruzə verir.

«Tunel» (1927), «Daşqın» (1933-1936), «Kin» (1935), «Tərlan» (1937-1938) kimi müxtəlif janrlı əsərlərdə sovet insanının qeyri-real obrazı yaradılır. Bu kontekstdə «proletar» tarixinin ilk illəri təsvir olunur. Tamamilə savadsız, cəhalət əsiri yazıçı qəhrəmanları birdən-birə qeyri-adi təkamül yolu keçərək siyasi təfəkkürlü ideal obraz səviyyəsinə yüksəlirlər.

Mehdi Hüseynin «Şair» kinodramında xalqın azadlığı uğrunda eyni cəbhədə xidmət edən iki dostun – Niyazi və Fərhadın yolları ayrılır. «Milli istiqlal və milli mübarizə» yolunu seçən, müsavat ideyalarını əsas götürən Niyazi «mən müsavatçı deyiləm» deyir. O ziddiyyətli, mürəkkəb xarakterdir. Bu da zamanın tələbindən gələn özünəməxsusluq idi. «Müsavat» partiyasının qətiyyətlə rədd olunduğu bir məkanda bütöv müsavatçı obrazı yaratmaq qeyri-mümkün idi. Odur ki, Niyazi – tamamlanmamış obrazlardandır.

«Daşqın» romanının birinci hissəsinin ilk nəşrinə müqəddimə yazan Rəsul Rza deyirdi: «İki dünyanın dizdizə gəldiyi böyük günlərin yaralı səhifələri bu gün belə

kimsənin xatirindən çıxmamışdır. Bu günlərin dəhşətli gurultularına qarışaraq sovrulan dumanların içində itən, sızılan qanlardan boğulan qəhrəmanlar Azərbaycan əməkçilərinin xatirindən silinməyəcək» (64, s. 3).

Bəhs edilən günlərdə xalqımız milli varlığı uğrunda mübarizə aparırdı və «Azərbaycançılıq» milli ideoloji məfkurəsi mövcud dövr ziyalılarının əsas həyat qayəsinə çevrilmişdi. Lakin bütün bunlar ya zamanın kölgəsində qalır, ya da «üzdəniraq tarix» kimi təbliğ edilirdi. Nəticədə yuxarıda adlarını qeyd etdiyimiz yaradıcılıq nümunələrinin timsalında sovet nəsri saxtalaşdırılmış və qondarma tarixin təbliğatçısına çevrilmişdir.

Milli gerçəklikdən uzaq inqilabi-tarixi roman istiqamətində Mehdi Hüseynin «Komissar» və «Səhər» romanları bədii nəsr faktı kimi nəzərə çarpır.

Müəllifin müxtəlif illərdə üzərində işləyərək yenidən nəşr etdirdiyi «Komissar» (1942-1950) romanında əsrin əvvəllərində ölkəmizdə baş verən hadisələr, eləcə də çarizmlə mübarizədə məhz Rusiya maraqları yönündə aparılan hərəkat təsvir edilir. Əsərdə həmin dövrdə belə bir siyasi qütbləşmənin başında dayananlardan birinin – Məşədi Əzizbəyovun bədii obrazı yaradılır. O, əvvəllər digər milli istiqlal mücahidləri ilə bərabər «Hümmət» təşkilatında işə başlayır. Sonra milli mübarizə yolunu seçənlərlə Sovet Rusiyasına birləşmək istəyənlərin yolları ayrılanda «Hümmət» də bolşevik təşkilatına çevrilir.

«Komissar»dan on il sonra yazıçı «Səhər» romanının yazır. Romanın yazılmasında məqsəd Məşədi Əzizbəyovun obrazının yenidən geniş şəkildə işləmək olsa da, sonra müəllif istiqamət dəyişdirir və birinci rus inqilabının Azərbaycanın həyatında doğurduğu təbəddülatlar, mübarizə fonunda insanların həyatını təsvir edir. Bununla yanaşı, əsərdə Məşədi Əzizbəyovun obrazına da geniş yer ayırır.

Şəhərdə başlayan inqilabi hərəkat və siyasi mübarizənin romanın «Oyanan kənd» hissəsində artıq kənddə davam etdirildiyi göstərilir.

Əsərdə kəndli Bayram obrazına geniş yer verilməsi də sosrealist ədəbiyyatı prinsiplərindən gələn tendensiya idi. Avam kəndlinin qaynar şəhər ictimai həyatına gətirilməsi, tezliklə cəmiyyət həyatındakı siyasi mübarizəyə təşviq edilərək qısa müddətdə savadlanması nə qədər qeyri-real görünsə də, sovet nəsri üçün xarakterik hal idi. Bir parça çörək üçün şəhərə işləməyə gələn Bayram siyasi tətillərdə iştirak edir, bolşeviklərin xüsusi dəstələrində fəaliyyət göstərir. Və ailəsinin yanına aylar sonra, o zaman da kənddə inqilabi ruh yaratmaq məqsədilə vəzifələndirilərək göndərilir.

Əslində Məşədi Əzizbəyov və yaxın silahdaşlarının fəaliyyəti Bakı neftinə göz dikmiş Lenin və əlaltılarının fitnəkar siyasətlərinin bir parçası idi. Svetayev, Smirnov, Orlov, Şaumyan, Orcenikidze və digərləri Azərbaycan zəhmətkeşlərinin havadarları deyil, sadəcə olaraq, bu böyük planın Azərbaycandakı icraçıları idi. «1906-cı ilin sonu yaxınlaşır, fəhlələrin bir həftə əvvəl başlamış tətili hələ də davam edirdi. Ala-torandan şəhərin ən ucqar yerlərinə qədər işləyən qudok səsləri çoxdan eşidilmirdi. Hər gün səhərdən axşama kimi zavod borularından burula-burula qalxaraq bozumtul Bakı səmasını qaraldan qatı tüstülərdən əsər-əlamət belə görünmürdü. Bütün maşınlar dayanmışdı. Çarxlar fırlanırdı. Ağır çəkiclərin qulaq batıran cingiltisi şəhərdə əks-səda yaratmırdı. Bakının əyri-üyrü küçələrindən gurultu ilə gəlib keçən konkalar da hərəkətdən qalmışdı.

Dünən axşamdan bəri aramsız əsən külək get-gedə qüvvətlənir, evlərin arasına soxularaq yalquzaq kimi ulayırdı. Dənizdə tufan qalxır, Xəzərin az köpüklü çılğın dalğaları sahili gəmirirdi. Qurğuşun rənginə çalan bulud-

lar şəhər üzərindən ağır-ağır gəlib ötdükcə elə bil dənizlə göy qovuşurdu. Hər tərəfdə əzəmətli bir intizar hökm sürməkdə idi». (62, s. 3-4).

Bu zahiri sakitlik idi. Azərbaycanı bölüşdürmək arzusunda olanlar fəhlələr arasına iğtişaşlar salır və «fəhlə izdihamı»nın hərəkətverici qüvvəsinə çevrilirdi.

Məşədi Əzizbəyov, Bayram, Xanlar kimi fəhlə üsyanlarının önündə gedən həmvətənlərimizin mövcud siyasi arenadakı varlığı xarici imperialistlərin xalqımızı öz övladlarının əli ilə vurmaq cəhdlərinin bariz təzahürü idi.

«Mən bu qaranlıq mühitdə elə qüvvətli bir məşəl yandırmaq istəyirəm ki, onun işığından yalnız bizim nəsil yox, bütün Azərbaycan fayda görsün» (62, s. 64) – deyən Əzizbəyovun ən böyük uğursuzluğu doğma şəhərində Rusiyanın məşəlini yandırmaq istəyi idi.

Əsərdə Murtuza Muxtarov, Hacı Zeynalabdin Tağıyev kimi böyük kapitalistlərin, o cümlədən xırda sahibkarların mənfi obrazları yaradılır.

Bu mənada böyük xeyriyyəçilik işləri ilə məşğul olan Hacı Zeynalabdin Tağıyev müdriklik xüsusiyyətlərinə görə mühitində xüsusi hörmət görməsinə baxmayaraq öz millətindən olmayanları müəssisəsində işə qəbul etmədiyi üçün Məşədi Əzizbəyov və silahdaşları tərəfindən ittiham olunurdu. Çünki Hacının bu addımı sosial bərabərlik ideyasına zidd idi. Ancaq bu gün zaman onun nə qədər haqlı olduğunu göstərir.

Mehdi Hüseyn yazırdı ki: «Tarixi əsər, yalnız bu günkü sosializm quruluşu məsələsinə xidmət etdiyi zaman qiymət ala bilər» (141, s. 44).

«Səhər» romanı məhz bu vahid ideologiyanın tərənnümçüsü və təbliğatçısı, milli istiqlalın inkaredicisi kimi çıxış etdiyi üçün milli roman faktı kimi qiymət-ləndirilə bilməz.

Sovet konyuktur sisteminin sxematik çərçivəsindən kənara çıxa bilməyən yazıçılardan biri də Əli Vəliyevdir.

Yazıçının «Qəhrəman» romanı özüylə eyni müstəviyə qoyula biləcək dövrün digər siyasi – psixoloji, sosial romanları kimi milli həyatla inqilabi həqiqətlər arasında təzad problemi üzərində qurulmuşdur.

Əsərdə təsvir olunan iki bir-birinə zidd sinfin çatışması öz başlanğıcını sosial bərabərsizlik konfliktindən alır.

Tariximizin 1914-1918-ci illərini əhatə edən ictimai-siyasi olayların əks olunduğu ilk fəsildə romanın qəhrəmanı Daşdəmirin dözməyərək sahibkarlara qarşı mübarizə məqsədilə qaçaqçılıq yolunu seçməsi bacısı Xoşqədəmin oğurlanması, sovet dövrünün siyasi xarakterindən irəli gələn tendensiya ilə böyük inqilabi yol keçməsi, bu arada ağır məhrumiyyətlərə qatlanaraq şəxsiyyət kimi formalaşması geniş təsvir obyektinə çevrilmişdir.

Sosialist realizmi düşüncəsinin başlıca atributlarından – köhnəliklə yeniliyin konflikti problemi belə bir proletar ədəbiyyatı nümunəsindən yan keçə bilməzdi. Əsərin qəhrəmanı belə bir savaşın tən ortasında yer alır.

Müəllif mövcud dövrün romançılıq ənənələrinə sadiq qalaraq öz qəhrəmanını yüksələn xətt üzrə inkişaf etdirərək əsərin ikinci hisəsində onun yeni tipli siyasi işçi kimi yetkinləşdiyini göstərir.

Çeşidli cəbhələrdə müxtəlif tərkibli qüvvələrə qarşı mübarizə aparan qəhrəman inqilabçı obraz yaradıcılığının tələbi ilə güclü və yenilməz keyfiyyətə sahib bir şəxs kimi təsvir edilir.

Ümumiyyətlə, «Qəhrəman» həyatın içindən gələn bədii surətdən daha çox, mövcud siyasi təfəkkürün mexaniki yaratdığı süni obrazdır.

Milli həyatla inqilabi düşüncə arasında təzad problemi, iki zidd siyasi ideologiyanın – müsavat və bolşevizmin – birincinin əksinqilabçı, soyğunçu, ikincinin isə əksinə, sosial rifah və «milli azadlıq» vəd edən quruluş kimi təbliği sitixiyası Süleyman Rəhimovun «Şamo» epopeyasında xüsusi fakt kimi ortaya çıxmışdır.

«Şamo» əsasən, tariximizin ictimai-siyasi hadisələr – inqilablar, tətillər, üsyanlarla səciyyələnən xüsusi bir mərhələsini 1908-1921-ci illərin əks etdirir. Yalnız romanın son cildlərində müəllif iki-üç ilin hadisələrinə yer vermişdir.

Sovet ədəbiyyatı prinsiplərindən irəli gələn «inqilabi ideyalar uğrunda mübarizə» qayəsi ilə bolşevik hərəkatının təbliği və Müsavat hökumətinin ifşası ideyası əsərin başlıca leytmotivinə çevrilir. Bu mənada prof. Cəlal Abdullayevin tənqidçi Qulu Xəlilovla birlikdə yazdığı romanın mündəricəsinə dair verilən şərh diqqəti cəlb edir: «Otuz evlik balaca, geri qalmış Şehli kəndindən başlayan inqilab dalğası və Dəli dağ və Murovdağ, Qırxqız və Sarıbabadan, Çalbayır və İldırımlı dağlarından başlayaraq bərəkətli, zəngin məhsuldar Qarabağın düzlərini, kənd və obalarını əhatə edir, Savalan dağından keçib Cənubi Azərbaycana gəlir.

...Həyatın amansız, sərt qanunları, hadisələrin gedişi hamını oyadır. Kəndli, muzdur, çoban, rəncbər hərəkətə gəlir. Azərbaycanın bütün rayon və kəndlərində adamlar «haqq, ədalət» deyə baş qaldırırlar. Mövcud rəsmi qayda-qanunlar oyanan yeni ictimai-siyasi qüvvələri qandallaya bilmir. Sükut buzu qırılır, xalq nəhri hərəkətə gəlir» (123, I c. s.276-277).

Nəticədə, «dilsiz-ağızsız» Şamo el qəhrəmanı səviyyəsinə yüksəlir, atası Safo kişi onunla eyni yolun mücahidinə çevrilir.

Ümumiyyətlə, sadə, təcrübəsiz, siyasi təfəkkürü formalaşmayan xalq içərisindən seçilən tiplərin milli qəhrəman dərəcəsinə qaldırılması «proletar ədəbiyyatı»nın başlıca kodeksi idi. Lakin mövcud müstəvidə olan digər ədəbi örnəklər də sübut etdi ki, təkamül yolu keçməyən qəhrəman yaradıcılığı prosesi özünü qətiyyən doğrultmur. Bir çox hallarda hətta mənəvi-psixoloji cəhətdən işlənməyən qəhrəman obrazının yaradılması cəhdi sxematik ədəbiyyatın yaranması ilə şərtləndi. Tehran Əlişanoğlunun da qeyd etdiyi kimi, «1920-30-cu illər nəsrində «inqilabçı» obrazı milli tip kimi dərk oluna bilmir» (50, s.90). Həmçinin tədqiqatçının əsərdən gətirdiyi örnək bu mənada maraqlıdır. «Şamo»nun 40-cı il nəsrində belə bir səhnə var. Bəlağət və pafosla danışan, ritorik şüarlar söyləyən çoban Şamonu həmkəndliləri heyrətlə qarşılayır, onu heç cür anlaya bilmirlər.

- Ölümü öldürmək? – Ə, bu nə deməkdir?.. Bu Şamo da lap qəribələnib ha! – Özündən sözlər çıxarır (50, s.90).

Onu da qeyd etmək lazımdır ki, sosial faktorlar əsasında inqilabi fəaliyyətə yönəldilən qəhrəman obrazların – eləcə də, Şamonun timsalında «sosialist inqilabçılığı» yüksək siyasi ideologiya, milli varlıq göstəricisi kimi deyil, sosioloji hərəkat kimi qavranılır. Bəlkə də bu obrazların mücərrəd, süni, qondarma xarakter daşımasının səbəbi budur. Həmçinin, milli qəhrəman kimi təlqin edilən obrazın yad düşüncənin ifadəçisinə çevrilməsi də yadırğanılır. Halbuki, minillik qəhrəmanlıq tarixi olan Şamoların «azadlıq» uğrundakı yanlış mübarizəsi milli-istiqlal mücadiləsinə doğru yönəldilsəydi, daha inandırıcı və davamlı olardı. «...Şamo öz həyəcanlı düşüncələrindən çıxmırdı. O, inqilabın mahiyyətini, sabahını, gələcəyini özünə xas düşüncələr içində düşünürdü. O, daha əvvəlki Şamoluqdan çıxıb yeniləşirdi. İnqilabın

əndazəsini – miqyasını qavramağa başlayırdı. Lakin bütün bu mürəkkəb vəziyyətdə Şamo özünün doğru-düzgün hərəkət etdiyini bilir və özünü inqilaba qoşulmaqda, bolşeviklərin cərgələrinə yazılmaqda haqlı görürdü. Öz ürəyinin döyüntülərinə cavab verməkdə heç bir tərəddüd görmürdü. Bundan sonra da o, sabahkı qanlı qovğalarda öz öldü-qaldısının da fikrini çəkməyəcəkdir. Bəlkə Şamo bu dünya üzündə öz cavanca canından bezmişdi? Yox, əsla! Şamo əks inqilaba qarşı döyüşmək, nəticəsini də öz gözlərilə görmək, zülmün-zalımın necə bu yer üzündən silindiyinə baxmaq, yeni dünyanı qurub yaratmaq, bu yeni dünyanı qurub yaratmaqda əlindən gələn qədər iştirak etmək istəyirdi» (131, s.116-117).

Şamo obrazında digər bir nüans da diqqəti cəlb edir. O, sevgilisi Qəmərin onun üçün etdiyi fədakarlığı lüzumsuz sayır, atası Safonun faciəli şəkildə öldürülməsində və qardaşı Gülonun qanına-qəltan edilməsində də eyni münasibəti göstərir. Sanki, heç bir daxili iztirab keçirmir, olanlar onda etiraz hissi oyatmır. Bu da, qəhrəmanın həddindən ziyadə «ictimailəşdirilməsi»ndən qaynaqlanır.

Romanda Şamonun qanının sıçradığı qırmızı bayraq «azadlığın və qurtuluşun» rəmzi kimi simvollaşdığı halda, Sultan bəy, Höcəttullah, Cəlal paşa, Mustafa Çavuş, yasovul Kəlbalı və s. kimi milli ideologiyanın daşıyıcılarına ironik yazıçı yanaşması özünü göstərir. «Harada, hər necə vəziyyətdə olursa-olsun, hökmdarlıq ehtirası ilə yaşayan Sultanla Yusif Cəlal paşanın sərəncamları da qurtarmaq bilmirdi... Onlar öz aləmlərində yoldan çıxan camaatın izafi qanlarını almaqla onları tanrı yoluna salmaq, əslində isə zorakılıq əsasında öz sarsıyan, təməlindən laxlayan mövqelərini bərkitmək, cəbhələrdə nizam-intizam yaratmaq, daşnaklara zərbə vurub, daşnak başçısı Nijdeni əsir alıb müsavat parlamanı qabağında

lovğalanmaq istəyirdilər. Buna görə də onlara elə gəlirdi ki, bəs yuxarıya, parlamana, mərkəzi hökumətə belə möhkəm dayaq düzəldirlər. Müsavatın çox tezcə çürüyən sütunlarını təzələyib möhkəmlədir, müsavat quruluşuna qarşı baş qaldıran motalpapaq kəndçi-kündçüyə qulaq-burması verir, Rusiyadan əsən bolşevik küləyinin qabağını alıb, Bakının özündən belə burub-büküb geri qaytarırdılar» (132, s.51).

Safo oğlu Şamonun çobanlıq çərçivəsindən çıxarılaraq ecazkar bir əfsanəyə, «bolşeviklərin döyüşən» bayrağına çevrildiyi ədəbiyyatda milli-istiqlal yayıcılarının belə kəskin şəkildə mənfi planda əks etdirilməsi olduqca təbiidir.

«Burulğana düşüb, fəlakət qarşısında duran adamlar kimi bu «milli cənablar»da burulurdular, boğulurdular, birdən də yox-yox çalışa-çapalaya, özünü ovuda-ovuda burulduqları burulğanlardan çıxırdılar... Yox-yox birdən yenə də sürüşüb burulğana düşürdülər, burula-burula, boğula-boğula qalırdılar. Əmval-əmlak, qiymətli hər nə vardısa, hamısı öz əllərində öz ixtiyarlarında, öz sərəncamlarında qala-qala, yenə də bunlar bu sərvətin yaxınlarda oynayıb əldən çıxa biləcək iztirabını – həyəcanını keçirirdilər...» (132, s.320) - romanda ictimai-siyasi hadisələrin fonunda Azərbaycan Cümhuriyyəti nümayəndələrinin güclü silahlanmış yad ideologiyanın yaratdığı təbəddülatlar qarşısındakı mənəvi-psixoloji durumu olduqca əks mövqedən məhz belə təsvir edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda sovet dövründə yaranan nəsr nümunələrində Cümhuriyyət dövrünün təsviri yalnız adı çəkilən yazıçıların yaradıcılığı ilə məhdudlaşmır. Burada əsas etibarı ilə ən mühüm əsərlərə diqqət yetirilmişdir.

III FƏSİL

AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATINDA CÜMHURİYYƏT DÖVRÜNÜN BƏDİİ ƏKSİ

XX əsrin əvvəllərində tarixin yeni dalğası dilimizə «mühacirət» anlayışını gətirdi. Milli və ədəbi taleyimizin əvvəlki mərhələlərində də mövcud olan bu anlayış məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi bir axın kimi formalaşdı, bir çox siyasi və ədəbi şəxsiyyətlərimizin taleyinə çevrilmişdir.

Vətən eşqinə sürgün olanların nəsibinə çevrilən «mühacirət» sözünün etimologiyası ilə bağlı sətirlərə «Azərbaycan Sovet Ensiklopediyası»nda rast gəlirik: «Mühacir - 622-ci ildə Məhəmməd peyğəmbərlə birlikdə Məkkədən Mədinəyə köçmüş müsəlmanlara verilən ad» (25, s.137). Həmin mənbədə «mühacirət» sözü bu cür mənalandırılır: «Mühacirət – adamların ölkədən köçməsi və ya məcburi köçürülməsi. Əsasən iqtisadi (işsizlik), yaxud siyasi (inqilab, müharibə) səbəblərdən irəli gəlir.

... Mühacirlər- siyasi, iqtisadi, dini və s. səbəbdən öz ailəsini könüllü, ya məcburi tərk edib başqa ölkəyə köçən vətəndaşlar» (25, s. 137).

Əvvəldə söylədiyimiz kimi, Azərbaycan mühacirət tarixinin kökləri ta qədimlərə dayanır. Lakin əsasən, qədim və orta əsrlərdə mühacirət anlayışı ədəbi şəxsiyyətlərin yaradıcılığı və taleyilə bağlı idisə, əsrimizin əvvəllərində bu, millətin və xalqın taleyinə çevrildi.

Şimali Azərbaycanda çar hökmranlığından sonra Azərbaycan Xalq Cümhuriyyəti yaranmış, devrilmiş, Sovet Respublikalarından biri meydana gəlmişdir. Cənubi

Azərbaycanda xalq hərəkatı başlamış, sonra qanla boğulmuşdur. Məhz bu dövrdə on minlərlə şimallı, cənublu həmvətənlərimiz Azərbaycanı tərk etmək məcburiyyətində qalmış, keçmiş SSRİ-nin müxtəlif bölgələrində, Türkiyəyə və Avropanın digər ölkələrində məskunlaşmışdır.

Daha sonra ADR-in süqutundan sonra yaranan mühacirət əvvəlkilərdən bir çox cəhətinə görə fərqlənir. Əvvəlcə, bu mühacirət bir növ müstəqil dövlətin - onun liderlərinin mühacirəti idi. Əvvəlki illərdəki mühacirət əgər belə demək mümkünsə, kor-təbii idi, fərdi xarakter daşıyırdı, bir partiya, yaxud cərəyanın təmsilçiləri idi. 1920-ci il 27 aprel inqilabından sonra mühacirətin sosial tərkibi, məzmununda əhəmiyyətli dərəcədə dəyişilmişdi. Xüsusilə, M.Ə.Rəsulzadənin mühacirəti ilə (1922-ci il) Azərbaycan mühacirəti yeni mərhələyə qədəm qoydu, azərbaycanlı mühacirlər dünyanın hansı guşəsində yaşamalarından asılı olmayaraq vətənlə mənəvi bağlarını qorumağa çalışmışdılar. Təbii ki, içərisində yaşadıqları mühit, təmasda olduqları dini, ədəbi, mədəni və mənəvi əməllər bu bağların mahiyyətinə və xarakterinə təsirsiz qalmamışdır. Bu mənada Azərbaycan mühacirət ədəbiyyatı və mədəniyyəti olduqca mürəkkəb, ziddiyyətli, çoxsəsli və çoxşaxəlidir. Bunun ən bariz ifadəsini o dövrün aparıcı müəlliflərinin yaradıcılığında görürük.

1923-cü ildən Rəsulzadənin redaktorluğu ilə «Yeni Qafqaziya» adlı jurnal nəşrə başladı. 1925-ci ildə onun «İstiqlal məfkurəsi və gənclik», 1926-cı ildə «Rusiyada siyasi vəziyyət», 1930-cu ildə «Azərbaycan və istiqlaliyyəti», rusca «Qafqaz problemi ilə bağlı pantürkizm» və s. kitabları çap olunmuşdur.

Eləcə də mühacirət ədəbi-elmi fikrinin Mirzə Bala Məmmədzadə, Əbdülvahab Yurdsevər, Əhməd Cəfər-

oğlu, Məhəmmədəli Rəsulzadə, Əhməd Ağaoğlu, Əlibəy Hüseynzadə, Ümmülbanu (Banin) kimi parlaq nümayəndələri vardır.

Azərbaycan mühacirətinin, xüsusən də mühacir ədəbiyyatının öyrənilməsi yönündə ilk addımlar yalnız 90-cı illərdə atılmışdır.

Bu tədqiqatlar nəticəsində ədəbi ictimaiyyətə daha da yaxından tanıdılan ədəbi simalardan-ədəbiyyatşünas – alim Əhməd Cəfəroğludur.

Əhməd Cəfəroğlu «Azərbaycan yurd bilgisi» jurnalının uzun müddət redaktoru olmuş və onun problematika dairəsini müəyyənləşdirmişdir.

Əlbəttə ki, Azərbaycan mühacirətinin başlıca mübarizə vasitəsi söz və mətbuat idi. Təsadüfi deyil ki, milli – azadlıq hərəkatının ideoloqu M.Ə.Rəsulzadə İstanbula gəldikdən az sonra ilk növbədə nəşriyyat təşkil etməyə başlamışdı. Çünki, vətəndən didərgin salınan, ancaq ürəkləri vətənə xidmət eşqi ilə çırpınan istiqlal mübarizələri öz sözlərini yenidən əsarətə salınmış xalqa başqa yolla çatdıra bilməzdilər.

Digər tərəfdən, Azərbaycan mühacirləri arasında ziyalıların, xüsusən də humanitar ziyalıların çoxluğu mühacir nəşrlərinin yaranmasını, geniş kütlələri öz ətrafında birləşdirməsini sürətləndirdi.

20-ci illərin ikinci yarısından etibarən İstanbulda «Yeni Kafkaziya», «Azəri türk», «Odlu yurd» kimi mühacir nəşrləri fəaliyyət göstərirdi. Mühacir nəşrləri Azərbaycan gerçəkliyi haqqında dəqiq faktlara dayanan, proseslərin həqiqi mahiyyətini açan obyektiv və açıq siyasi mövqeli yazılar dərc edirdi. Bu nəşrlərin az qala hər nömrəsinin Bakı və Tiflisin kommunist istiqamətli qəzetlərində geniş təhlil edilməsi, tez-tez mühacirət liderləri və mühacir mətbuatı ilə bağlı karikaturalar və replikaların dərc olunması M.Ə.Rəsulzadə və həmkar-

larının atdığı oxların əsl hədəfə sərrast dəydiyini göstərirdi.

Azərbaycan siyasi mühacirətinin digər nümayəndələri kimi, Ə.Cəfəroğlu da rus imperializminin və onun bolşevik davamçılarının şovinist siyasətinə yaxından bələd idi, bu siyasətin ağrı-acılarını öz tərcümeyi-halında yaşamışdı. Buna görə də bolşeviklərin yenidən «vahid və bölünməz» Rusiyanın tərkibinə qatıldıqları xalqlara öz dillərini, mədəniyyət və ədəbiyyatlarını maneəsiz şəkildə, ideoloji qəlib və ştamplardan kənarda öyrənməyə imkan verməyəcəklərinə əmin idi. Ona görə də müstəqil filoloji tədqiqatlar məcmuəsinin əsasını qoymaqla Əhməd Cəfəroğlu azərbaycanşünaslıq sahəsindəki bu bitərəfliliyin, subyektivliyin, elmi həqiqətin ideoloji ehkamlara qurban verilməsinin qarşısını almaq istəyirdi və jurnalın üçillik fəaliyyəti alimin qarşısına qoyduğu bu məqsədə nail olduğunu göstərir.

Lakin Azərbaycanla bağlı tədqiqatların ilk növbədə milli elmi təfəkkürün əlində olması fikrini müdafiə edərkən Əhməd Cəfəroğlu qətiyyən bu sahədə çalışan rus və Avropa alimlərinin üzərindən xətt çəkmir, yaxud onlarla əməkdaşlıqdan imtina etmirdi. «Azərbaycanın yurd bilgisi»nin məqsəd və qayəsi yalnız Azərbaycanı hər bir xüsusda yaxından bilən və tanıyanlarla bir tədqiq kadrosu hazırlayaraq mədəniyyət tədqiqatı ilə uğraşmaqdan ibarət olmayıb, eyni zamanda onu bir ölkə kimi dostlarına tanıtmaqdır. (156, s.5)

Göründüyü kimi, jurnal nəşrə başladığı gündən qarşısına türk dünyası üçün bu gün də əhəmiyyətini, aktuallığını itirməyən vəzifələr qoymuşdu.

a) Cümhuriyyət tarixi mühacirətdə yaranan bədii nəsrin əsas təsvir obyekti kimi

Məlum olduğu kimi, sovet konyuktur sisteminin saxtalaşdıraraq mövcud siyasi ideologiyanın maraqları müstəvisində təqdim etdiyi tarixi faktlar mübarizələr və keşməkeşlərlə dolu vətən tariximizin mühüm qismini təşkil edirdi.Odur ki, həmin tarixin aşkarlanması və öyrənilməsi istər sovet hakimiyyəti dövründə, istərsə də müstəqillik zamanında böyük çətinliklərlə müşayiət olunurdu. Daha sonra dövlətlər arasındakı müəyyən sərhədlərin açılması milli istiqlal mübarizəsində fəal iştirak etmiş,mövcud siyasi rejimin davamlı təqibləri nəticəsində xarici ölkələrdə məskunlaşan istiqlal mücahidlərinin üzə çıxarılması və həmyerlilərinə tanıdılması bizlər üçün sirr olaraq qalan əhəmiyyətli tarixi mərhələnin aşkarlanmasına səbəb oldu. Bu mənada mühacirətdə yaranan bədii nəsr nümunələri mühüm əhəmiyyət kəsb edir. Ümmülbanu (Banin), Məhəmməd Əsəd bəy, Qurban Səid, Mirzə Bala Məmmədzadə, Əhməd bəy Ağayev və digər müəlliflərin əsərləri bu baxımdan bizə zəngin material verir.

Dövrünün tanınmış ictimai-siyasi xadimi, Azərbaycan Respublikasının liderlərindən biri Mirzə Bala Məmmədzadə vətəndəki təqib və təzyiqlərə dözməyərək 1924-cü ildə İrana, oradan isə Türkiyəyə mühacirət etmişdi. İstiqlal aşiqi İstanbulda məhsuldar fəaliyyət göstərir və dalbadal kitabları çıxır. «Yeni Qafqazya», «Azərbaycan yurd bilgisi» jurnalı ilə sıx əməkdaşlıq edir. 30-cu illərin əvvəllərində Sovet hökumətinin tələbi ilə Türkiyə hökuməti M.Ə.Rəsulzadənin və onun silahlarının, o cümlədən Mirzə Bala Məmmədzadənin ölkəni tərk etməsi barədə göstəriş verir. Lakin bütün varlığı ilə Azərbaycana, onun istiqlalına bağlı M.Məmmədzadə

məskunlaşdığı Polşada da mücadiləsini davam etdirir. 1938-ci ildə Berlində «Qurtuluş» jurnalının mətbəəsində M.B.Məmmədzadənin «Milli Azərbaycan hərəkatı» (Milli Azərbaycan «Müsavat» xalq firqəsinin tarixi) adlı əsəri nəşr olunur. M.Məmmədzadənin Azərbaycan tarixinə, Sovet rejiminin ifşasına aid onlarca məqaləsi bü gün də faydalıdır.

Yaradıcılığa «Açıq söz»lə başlayan Mirzə Bala Azərbaycan Xalq Cümhuriyyəti dövrünün fədakar, çoşğun tədqiqatçısı və təbliğatçısı Mövsüm Əliyevin yazdığına görə, iki mindən çox müxtəlif mövzulu məqalənin müəllifidir. M.B.Məmmədzadənin «Mirzə Bala», «Nuh-oğlu», «M.M.Məmmədzadə», «M.B.Daşdəmir», «Əli Qutluğ», «Əli Qut» imzaları ilə dərc edilmişdir. Onun «Ermənilər və İran» (İstanbul 1927), «Azərbaycan tarixində türk Albaniya» (Ankara, 1951) adlı sərləri sanballı tədqiqat nümunələridir.

Xüsusilə də, Mirzə Balanın bolşevik mətbuatının tənqidinə həsr etdiyi çoxsaylı məqalələrində sovet seçki sistemi, fəhlə və kəndlilərin işgəncələrlə dolu həyatı, ədəbi, mədəni sahələrin bərbad vəziyyəti Azərbaycanda və Moskvada nəşr olunan qəzetlərdən alınan faktlar əsasında təhlil və tənqid olunur. Bu yazılar həmin vaxt ideoloji mübarizə və əks təbliğat üçün yaxşı material idisə, bu gün həm mücadilə yolunu həm də Azərbayca tarixinin həmin dövrünün öyrənmək baxımından faydalıdır. Böyük qələm sahibinin xalqın taleyində ağır, kədərli iz buraxmış 1918-ci il 31 mart hadisələrinə, ümumiyyətlə, Azərbaycan tarixinə, xüsusilə istiqlal tarixinə dair yazdığı sanballı məqalələr də bu gün aktual və əhəmiyyətlidir.

«İstiqlal»ın bir sıra yazılarında «Mücadilənin taktikası» (1932, № 8), «Yenilməyən bir qüvvət» (1932, № 5), «İntiqam günündə» (1932, № 8) «İman günü»

(1932 № 10), «Münəvvər mühacirin borcu» (1932, № 15), «Rədd olsun, işğal» (1933, № 33), «Milli bir gün» (1934, № 47) 28 may - Azərbaycanın istiqlal günü, şanlı bir tarix, 27 Aprel isə kədərli bir gün – milli matəm xatırlanır, doğma yurdun yenidən istiqlala qovuşması üçün hər bir mühacirin vətən borcu yada salınır, onun ideoloji mübarizədə fəal iştirakına zəruriliyi vurğulanır.

«Mücadilənin taktikası» məqaləsində müəllif yazır ki, Azərbaycan başda olmaqla Qafqazın hər tərəfindən gələn xəbərlər olduqca həyəcanlı və əndişəlidir. Qanlı istila rejimi xalqın cana gətirmtş, hər tərəfdə müqavimət və üsyanlar davam edir. Kəndlilər bir tərəfdən hökumətə ərzaq vermir, digər tərəfdən isə «müsəlləh müqavimət və mücadil həmlələri üçün münasib şərait seçilməlidir.»

«İntiqam günü» adlı məqalə əvəzsiz nemət olan istiqlal fikri, ideyası, məfkurəsi ilə təmiz, ülvi, müqəddəs hisslərin vəhdətindən olan bir yazıdır: «27 Aprel. Qara gün. Dərs verən bir fəlakət. Milli matəm. Düşmənin günü. Qırmızı yalan. Unudulmayan bir zərbə. Sızlayan bir yara» - deyə sonsuz kədərlə yazan müəllif göz yaşları göz faşları içərisində itib-batmış, bu ələmin nəşəyə çevriləcəyi günə inanır və onun uğrunda mübarizə aparır.

«Münəvvər mühacirin borcu» adlı məqaləni ziyalı mücahidin yaddaş kitabı, iş fəaliyyət proqrammı hesab etmək olar. M.Ə.Rəsulzadənin fikrincə, mühacir eyni zamanda vətənçi bir mühəndis, milliyyətçi hüquqşünas, istiqlalçı bir iqtisadçı və s. olmaq vəzifəsinə mükəlləfdir. 30-cu illərdə qəlmə aldığı bu yazı ilə müəllif sanki sonrakı prosesləri duyur, görür və xəbərdarlıq edirdi. Mirzəbalanın ədəbiyyatşünaslığımız üçün töhfə sayıla biləcək əsərləri də var.

«İstiqlalın ilk şeri» və «İstiqlal zəfərinin dastanı» adlı məqalələrdir. 1953-cü ildə Ankarada Azərbaycan Kültür Dərnəyinin «Azərbaycan» dərgisində çap olunmuş

həmin məqalələr XX əsrin əvvəllərində milli ədəbiyyatımızda yaranan istiqlal şerlərinə həsr edilmişdir.

Tanınmış tədqiqatçılardan Nikpur Cabbarlı «Mühacirət və klassik» ədəbi irs» adlı monoqrafiyasında həmin məqalələri tədqiqata cəlb edərək geniş təhlil etmişdir. Eləcə də «Azərbaycan milli şurası», «Azərbaycan parlamenti», «Milli tariximizin son 50 ili» və s. məqalələr bu gün xüsusilə aktual və əhəmiyyətlidir.

Sovet ideologiyasının, rejiminin tənqidi Mirzə Bala yaradıcılığının əsas mövzularındandır. Publisistin qələmə bu mövzuda daha təsirli, eyni zamanda daha kədərlidir, üzüntülüdür, amma bədbin deyil. «Solovkidən gələn səslər»i istedadlı qələm sahibi ora sürülmüş bir azərbaycanlı millətsevərin yazdıqları ilə başlanır.

Mirzə Bala yazır ki, Solovkidən sağ-salamat dönəcəklərinə ümid etməyən mücahidlər məktubları ilə bəşəriyyətin vicdanına xitab edirlər.

Mühacirətdə yaranan bədii əsərlr içərisində dərin lirizmi ilə seçilən bədii nəsr nümunələrindən biri də Mirzə bala Məmmədzadənin «Vətən qaldı» hekayəsidir. Bu əsər həm mövzu, həm də sənətkarlıq baxımından maraq doğurur. Müəllif burada öz başına gələnləri həzin və təsirli bir dillə oxucu ilə bölüşür. Məlum olur ki, o, Azərbaycanın bolşeviklər tərəfindən işğalından bir müddət sonra İrana keçməyə, mühacirət həyatı sürməyə məcbur olur. Elə ilk günlərdən müəllif müdşih mənzərələrd rastlaşır. «Mühacirətin ilk ayları idi. Mənfur istilana müdhiş dalğası ilə Rəştə atılmışdım. Rəşt Gilanın mərkəzidir. Şəhərin ətrafını dolaşmaq məqsədi ilə, arkadaşımla bərabər şəhər kənarına çıxmış, «Azərilər məzarı»nı ziyarətə getmişdik. Bu, istila hökuməti tərəfindən zori lə İrana sövq edinə və burada aclıqdan, xəstəlikdən və bilhassa, qızdırmadan ölən milli Azərbaycan nəfərlərinin bir torpaq yığımından ibarət məzarıdır».

Müəllif mühacirət həyatının ağır acı mənzərələrini məharətlə təsvir edir. Min bir cür məhrumiyyətlərə, əzab və işgəncələrə məruz qalan istiqlal aşiqlərinin məzarları da ürək ağrıdır: Yaxındakı «möhtəşəm» bağın ətrafı xalq ilə dolu idi. Biz «Fatihə» oxuduqdan sonra, bir qədər söyləməz olmuş, sükuta dalmışdıq. Kənardan baxanlara biz, yolun kənarındakı gölləri, dağları seyr edir kimi görünə bilərdik. Halbuki biz öz aləmimizdə, başqa aləmlərdə, «gəzirdik».

Məzarlara baxdım. Yer ilə yeksan olmuş qara torpaqdan ibarət olan bu məzarların üzərində nə daş vardı, nə də nişan. Bir kaç sənə sonra tamamilə tanınmayacaq bir hala gələcəkləri şübhəsiz bəlli idi. Bu məzarlar üzərində göz yaşları axıdılmamışdı».

Azərbaycan istiqlalçılarının İrandakı ağır, faciəli taleyi M.B.Məmmədzadənin təsviri ilə oxucunu kədərləndirməklə kifayətlənmir, həm də narahat edir, düşündürür.

Qonşu ölkənin Azərbaycan mücahidlərinin, onların timsalında Azərbaycan istiqlalına münasibəti tarixin ibrət dərsidir. Bu barədə düşünməyi və nəticə çıxarmağı oxucunun ixtiyarına buraxan müəllif diqqəti qəhvəxanada ağır vəziyyətdə olan mühacirin üzərində cəmləyir. Məlum olur ki, Gəncə üsyanının iştirakçısı sonra Azərbaycanı tərk edib İranda zindana düşür, nəhayətdə Gilanda yerləşir.

Oktyabr inqilabının sərt dalğası ilə vətənin dünyaya səpələnən övladlarından biri də Banin kimi tanınan məşhur yazıçı Ümmülbanudur.

«Axır ki, qalmaqallı bir ilin qış günündə belə qəribə, ekzotik, varlı bir ailədə doğulmuşam. Həmin il tarixin unudulmaz, dəhşətli dövrlərindən biri idi. İnsan dühasının ictimai çaxnaşmalar naminə yaratdığı tətillər, talanlar, qırğınlar və bu kimi başqa əməllərlə dolu idi» (155, s. 5).

Gərgin ictimai-siyasi, tarixi hadisələrlə səciyyələnən bir dövrdə Bakının neft milyonçularından birinin ailəsində doğulan, zahirən çəlimsiz, daxilən özünə qapanan, sentimental, özünün «fatalizm» adlandırdığı qədərçi dünyagörüşünə sahib, keşməkeşlər, təbəddülatlarla zəngin ömrünün mühacirlik yolu Parisdən keçən və nəhayət, sonralar məşhur fransız yazıçısı kimi şöhrətlənən Ümmülbanu öz keçmişini belə xatırlayır.

O, 1905-ci ilin yanvar ayında güclü neft inhisarçılarından Əsədullayevlərin ailəsində dünyaya gəlmişdir. Məşhur Bakı milyonçularından Musa Nağıyev və Şəmsi Əsədullayevin nəvəsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ticarət naziri olmuş Mirzə Əsədullayevin qızı idi. Bu balaca qız doğularkən dünyadan köçən anasının xatirəsinə Ümmülbanu adlandırılmışdı. Özü bu barədə yazır: «Mən anamı görməmişəm. 1905-ci ilin qışında inqilab tufanını yatırmağa çalışan təcavüzkar qüvvələr Qafqazda xalqlar arasında toqquşmalar törətdilər. Anamı kortəbii qəddarlıqdan və talanların ağılsızlığından qorumağa çalışan atam onu hamiləlikdən azad olunmaq üçün Bakıdan uzağa kəndə göndərir. Xeyirxah məqsəd bədbəxt sonluqla nəticələnir: doğuş ağır keçir, yaxınlıqda həkim olmur, anam ölür, amma mənə həyat verməyə imkan tapır...

Gördüyünüz kimi, elə olur ki, həyatımın ilk günlərindən mən bir şeyi anlayıram: dərd-sər qurban seçəndə nə milliyyətə baxır, nə də dini mənsubiyyətə və heç kimə aman vermir» (72).

Beləliklə, dünyaya qədəm qoyduğu ilk andan etibarən o, dərd-ələmlə qarşılaşır. Bu, onun xarakter cizgilərində də özünü büruzə verir. Daxilən sıxıntıya meylli olan Ümmülbanunun həyatının sonrakı mərhələlərində – hələ gənc yaşlarında istəmədən güclə ərə veriləndə, 1924-cü ildə Türkiyəyə, oradan da Fransaya

mühacirət etdiyi zaman və Parisdə əzablarla keçən ömrünün acılı-şirinli bütün xatirələrində ən yaxın yoldaşı və bələdçisi məhz kədər idi.

Ümmülbanu öz ağır taleyi barədə Törəxanım Hüseynovaya göndərdiyi 1 noyabr 1991-ci il tarixli məktubunda belə qeyd edir: «Mənim bioqrafiyamı yazmaq çətindir: o, mürəkkəb və uzundur, müxtəlif hadisələrlə zəngindir. Mən axı hətta ikinci dəfə fransız arxitektoruna ərə gedərək burjua xanımı olmuşam və bir neçə il Tuluzada yaşamışam.

Nə qədər məşğuliyyətim olub – manekençi, jurnalist, radioda ədəbi redaktor, yazıçı. Hələ bir çoxunu yadımdan çıxarmışam. Bütün bunları danışmaq çətindir, hətta mənim özümə belə...» (72).

Gərgin və mürəkkəb şəraitin güclü axını, əzablardan yoğrulan tale yolu özünü müxtəlif sənət sahələrində sınayan Ümmülbanunun yazıçı şəxsiyyətini üzə çıxarır. Əslində bunun da qəribə bir tarixçəsi var.

Şəxsi taleyinin uğursuzluğu onu bədbinliyə düçar edir. Belə günlərin birində çox sevdiyi bibisi qızı Gülnarın amerikalı Mak Taddenlə evlənib Amerikaya köçməsi onun qəm-qüssəsini son həddə çatdırır. Elə bu düşüncələrlə Otoy qəsəbəsinin küçələrini dolaşdığı zaman «nə etməli?» sualına cavab axtararkən gücünü yazıda yoxlamaq qərarına gəlir. «Başımın üstündə bir quş uçurdu və elə bil mavi səmada süzən bu quşun yüngüllüyü qəlbimə möcüzəli yüngüllük gətirdi. Qəlbimin qaranlığında ümid işığı közərdi, çox zəif də olsa, hər halda ümid işığı idi. Elə həmin andaca məlum bir həqiqət yadıma düşdü: nə qədər ki, bir quşun uçuşu, yarpaq xışıltısı, dəniz ləpələrinin parıltısı insanı sevindirir, vəcdə gətirir, deməli, həyat öz dəyərini saxlayır. Mənim yaşımda hələ çox iş görmək olardı. Başqa bir fikir də həyata marağımı artırdı, bəlkə Parisdə yaşamış qafqazlı bacım Aisə kimi gücümü

Gərgin ictimai-siyasi, tarixi hadisələrlə səciyyələnən bir dövrdə Bakının neft milyonçularından birinin ailəsində doğulan, zahirən çəlimsiz, daxilən özünə qapanan, sentimental, özünün «fatalizm» adlandırdığı qədərçi dünyagörüşünə sahib, keşməkeşlər, təbəddülatlarla zəngin ömrünün mühacirlik yolu Parisdən keçən və nəhayət, sonralar məşhur fransız yazıçısı kimi şöhrətlənən Ümmülbanu öz keçmişini belə xatırlayır.

O, 1905-ci ilin yanvar ayında güclü neft inhisarçılarından Əsədullayevlərin ailəsində dünyaya gəlmişdir. Məşhur Bakı milyonçularından Musa Nağıyev və Şəmsi Əsədullayevin nəvəsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ticarət naziri olmuş Mirzə Əsədullayevin qızı idi. Bu balaca qız doğularkən dünyadan köçən anasının xatirəsinə Ümmülbanu adlandırılmışdı. Özü bu barədə yazır: «Mən anamı görməmişəm. 1905-ci ilin qışında inqilab tufanını yatırmağa çalışan təcavüzkar qüvvələr Qafqazda xalqlar arasında toqquşmalar törətdilər. Anamı kortəbii qəddarlıqdan və talanların ağılsızlığından qorumağa çalışan atam onu hamiləlikdən azad olunmaq üçün Bakıdan uzağa kəndə göndərir. Xeyirxah məqsəd bədbəxt sonluqla nəticələnir: doğuş ağır keçir, yaxınlıqda həkim olmur, anam ölür, amma mənə həyat verməyə imkan tapır...

Gördüyünüz kimi, elə olur ki, həyatımın ilk günlərindən mən bir şeyi anlayıram: dərd-sər qurban seçəndə nə milliyyətə baxır, nə də dini mənsubiyyətə və heç kimə aman vermir» (72).

Beləliklə, dünyaya qədəm qoyduğu ilk andan etibarən o, dərd-ələmlə qarşılaşır. Bu, onun xarakter cizgilərində də özünü büruzə verir. Daxilən sıxıntıya meylli olan Ümmülbanunun həyatının sonrakı mərhələlərində – hələ gənc yaşlarında istəmədən güclə ərə veriləndə, 1924-cü ildə Türkiyəyə, oradan da Fransaya

mühacirət etdiyi zaman və Parisdə əzablarla keçən ömrünün acılı-şirinli bütün xatirələrində ən yaxın yoldaşı və bələdçisi məhz kədər idi.

Ümmülbanu öz ağır taleyi barədə Törəxanım Hüseynovaya göndərdiyi 1 noyabr 1991-ci il tarixli məktubunda belə qeyd edir: «Mənim bioqrafiyamı yazmaq çətindir: o, mürəkkəb və uzundur, müxtəlif hadisələrlə zəngindir. Mən axı hətta ikinci dəfə fransız arxitektoruna ərə gedərək burjua xanımı olmuşam və bir neçə il Tuluzada yaşamışam.

Nə qədər məşğuliyyətim olub – manekençi, jurnalist, radioda ədəbi redaktor, yazıçı. Hələ bir çoxunu yadımdan çıxarmışam. Bütün bunları danışmaq çətindir, hətta mənim özümə belə...» (72).

Gərgin və mürəkkəb şəraitin güclü axını, əzablardan yoğrulan tale yolu özünü müxtəlif sənət sahələrində sınayan Ümmülbanunun yazıçı şəxsiyyətini üzə çıxarır. Əslində bunun da qəribə bir tarixçəsi var.

Şəxsi taleyinin uğursuzluğu onu bədbinliyə düçar edir. Belə günlərin birində çox sevdiyi bibisi qızı Gülnarın amerikalı Mak Taddenlə evlənib Amerikaya köçməsi onun qəm-qüssəsini son həddə çatdırır. Elə bu düşüncələrlə Otoy qəsəbəsinin küçələrini dolaşdığı zaman «nə etməli?» sualına cavab axtararkən gücünü yazıda yoxlamaq qərarına gəlir. «Başımın üstündə bir quş uçurdu və elə bil mavi səmada süzən bu quşun yüngüllüyü qəlbimə möcüzəli yüngüllük gətirdi. Qəlbimin qaranlığında ümid işığı közərdi, çox zəif də olsa, hər halda ümid işığı idi. Elə həmin andaca məlum bir həqiqət yadıma düşdü: nə qədər ki, bir quşun uçuşu, yarpaq xışıltısı, dəniz ləpələrinin parıltısı insanı sevindirir, vəcdə gətirir, deməli, həyat öz dəyərini saxlayır. Mənim yaşımda hələ çox iş görmək olardı. Başqa bir fikir də həyata marağımı artırdı, bəlkə Parisdə yaşamış qafqazlı bacım Aisə kimi gücümü

yazıda yoxlayım? Onun əsrlər keçib gəlmiş ruhu mənə qayğı göstərər, bacılıq edər, yazıma sığal çəkərdi. Bəlkə elə bu fikri də mənim ağlıma onun özü salmışdı?

Ayağa qalxanda duydum ki, qıvraqlaşmışam düşgünlüyüm yoxa çıxıb. Düşgünlüyün ölümdən başqa çarəsinin olduğunu da anlamağa başlamışdım. Həyat məni gözləyirdi. Mən ürəyimdəki həyəcan və qalmaqaldan keçib onun qarşısına çıxmalı idim» (158, s. 150).

Hələ Azərbaycanda ikən aldığı Avropa təhsili, ekzotik mənşəli olması, kiçik yaşlarından yaddaşında iz qoyan hadisələr və Qərblə Şərqin onun yazıçı təxəyyülündə maraqlı vəhdəti onun Fransa mühitində nəzərə çarpan yazıçı kimi şöhrətlənməsinə zəmin yaradır.

O, fransızca yazan Azərbaycan mənşəli ilk qadın idi. Avropa mədəniyyətinə bələdliyi onun Fransanın görkəmli elm və sənət xadimləri – Prokofyev, Monterlan, Malro, Araqan, Triole, Emoar, K.Roy, Yursenarla yaxınlaşdırır. Bu tanışlıq yazıçının yaddaşında özünəməxsus izlər qoyur. Onu da qeyd edək ki, Banin İvan Buninin, Teffinin (N.A.Lovxitskaya), Ernst Yunkerin, Lui Araqonun, Elza Triolenin Monterlenin yaradıcılıqlarının gözəl bilicisi kimi də tanınırdı. Heç də təsadüfi deyildi ki o, yazırdı: «başqa elə bir qüvvə yoxdur ki, adamları bədii ədəbiyyat kimi birləşdirə bilsin» (72, s. 6).

Azərbaycanla fəal əlaqələri olmayan Ümmülbanu əsərlərini fransızca yazırdı, lakin ədibin milli xarakter və etnoqrafik cizgilərlə zənginləşdirilmiş yaradıcılığında bütövlükdə Azərbaycan torpağının qoxusu duyulurdu. O, qəlbində daşıdığı böyük vətən həsrətini bir-birinin ardınca yazdığı nisgil dolu əsərlərinə səpələyir. Bir-birinin ardınca «Nami» (1943), «Qafqaz günləri» (1945), «Paris günləri» (1947) romanlarını yazır. Bu əsərlərin hər birində onun Sovet imperiyasına qarşı aşkar nifrəti, vətənə olan gizli həsrəti duyulurdu.

Daha sonra «Ernst Yunkerlə görüş» (1951), «Mən tiryəki seçdim» (1959), «Sonra» (1961), «Yad Fransa» (1968), «Son ümidin çağırışı» (1931) «Ernst Yunkerin portreti» (1971), «Ernst Yunker müxtəlif simalarda» (1989), «Mariya mənə nələr söylədi» (1991), «İvan Buninin son höcəti» əsərlərini qələmə alır.

Banin həm də Tolstoysevər kimi tanınırdı. Tolstoy ailəsinin Fransa mühacirəti illərində ağır məhrumiyyətlər içərisində yaşaması onu mütəəssir etmişdi. Yeri gəlmişkən, mahir tərcüməçi kimi tanınan Banin Tatyana Tolstoyun «Xatirələr»ini fransız dilinə çevirmişdir. O, F.Dostoyevskinin əsərlərinin fransızca tərcüməçisi kimi şöhrət tapmışdır. Eləcə də, ingilis dilindən bir çox hekayələri, alman dilindən Ernst Yunkerin bir çox romanlarını da tərcümə etmişdir.

Onun Fransada böyük marağa səbəb olan bir çox əsərləri dəfələrlə təkrar nəşr olunmuşdur. «Qafqaz günləri» (1985), «Mən tiryəki seçdim» (1989), «Paris günləri» əsərləri də bu kitablar içərisindədir.

O, mühacirətdə olduğu müddətdə Azərbaycana gələ bilməsə də, doğma vətənlə bağlı hər şey onu narahat edirdi. «Orda baş verən hər şey məni hədsiz dərəcədə maraqlandırır, mən həmişə oraya getmək, şəhər və kəndləri gəzmək, adamlarla söhbət etmək, onların necə yaşadıqlarına baxmaq istəmişəm» (72). Ömrünün son illərində vətənə gəlmək istəyən Baninə ağır xəstəlik imkan vermir. Və o, elə həmin xəstəlikdən 1992-ci ildə Fransada vəfat edir.

Ədibin dilimizə tərcümə edilərək «Azərbaycan» jurnalının səhifələrində dərc olunan ilk əsəri «İvan Buninin son höcəti»dir. Daha sonra «Qafqaz günləri» Hamlet Qocanın tərcüməsində 1992-ci ildə kitab halında nəşr olunmuşdur. Onun ardınca «Paris günləri» əsərinin əvvəlcə bir hissəsi «Araz» dərgisində (1997), daha sonra

bütöv şəkildə «Azərbaycan» jurnalında (2001) dərc olunmuşdur.

Ümmülbanunun Azərbaycan oxucusuna tanıdılmasında tanınmış tərcüməçi Hamlet Qocanın xidmətləri əvəzsizdir. «Qafqaz günləri» və «Paris günləri» romanları onun tərcümə sahəsində gərgin əməyinin nəticəsində doğma dilimizdə reallıq qazandı. Eləcə də, onun Baninlə ədəbi ünsiyyətindən doğan irili-xırdalı bütün yazıları Azərbaycan əsilli Fransız yazıçısını bir daha öz həmvətənlərinə tanıtdı. «Fransızlar yurdum haqqında» (1990), «Fransız ədəbiyyatı antologiyası» (2000), «Banin vəfat elədi» («Ədəbiyyat qəzeti» 21 may 1993) kimi yaradıcılıq məhsulları məhz bu qəbildəndir.

Həmçinin ədəbi ictimaiyyətimizin digər nümayəndələri – alim və yazıçılarla da Ümmülbanunun mədəni əlaqələri davam etmişdi. Və bu qarşılıqlı görüşlər, məktublaşmalar, «Fransa görüşləri» (Anar, «Bakı» qəzeti, 9 yanvar 1985), «Fransa göylərində Şərq ulduzu» (Tərəxanım Hüseynova, «Ədəbiyyat qəzeti», 22 may 1992), «İztirab etüdü» (Nigar Abutalıbova. Qorxmaz Quliyev, «Azərbaycan», 1987, № 2) «Qafqaz günləri» (Şamil Zaman, «Ədəbiyyat qəzeti», 21 may 1993) məqalələri vasitəsilə mətbuat səhifələrində yer alır. Eləcə də mühacirət ədəbiyyatının uğurlu araşdırıcılarından Vaqif Sultanlının «Azərbaycan mühacirət ədəbiyyatı» (1996), tədqiqatçı-jurnalist Abid Tahirlinin «Azərbaycan mühacirəti» (2001) və Nailə Səmədovanın «Azərbaycan memuar ədəbiyyatı tarixi» (2006) monoqrafik tədqiqatlarında Ümmülbanunun həyat və yaradıcılığına xüsusi yer ayrılmışdır.

O, eyni zamanda Qafqazda milli zəmində baş verən millətlərarası toqquşmalardan narahatlığını dilə gətirirdi.

Onun ilk romanı «Nami» (1943) Azərbaycanla bağlı silsilədəndir. Qafqazda baş verən inqilab illərində sosial

qüvvələrin iflasını təsvir edən bu əsər müəllifinə o qədər də uğur gətirmir.

Yazı manerasını getdikcə təkmilləşdirən Banu müvəffəqiyyətsizlikdən məyus olmayaraq 1945-ci ildə ikinci əsərini, «Qafqaz günləri» romanını nəşr etdirir. Bu roman Avropada geniş əks-səda doğurur.

Yazıçının qeyri-adi üslubu və qərb oxucusu üçün ekzotik görünən Qafqaz xalqlarından bəhs etməsi onun çox qısa müddətdə şöhrətlənməsinə səbəb olur.

«Qafqaz günləri» xatirə üslubunda yazılmış avtobioqrafik səciyyəli sənədli romandır. «Avtobioqrafik material üzərində qurulan kitab yazıçının bütün bəşəri və ədəbi təcrübəsini birləşdirmiş, onun çoxillik müşahidələrinin, düşüncələrinin, şübhə və gümanlarının ümumiləşdirilmiş yekunu kimi meydana çıxmışdır» (72).

Bəzən hadisələrin baş vermə ardıcıllığının itməsi, müəllifin gah irəli, gah geri hərəkət edərək yaddaşının ayrı-ayrı anımlarını vahid mövzu ətrafında birləşdirməyə çalışması olayların zaman baxımından uzun müddəti əhatə etməsindəndir. «Ümmülbanunun Qafqazda və Parisdə keçirdiyi günləri əks etdirən xatirələri yaddaş əsasında yazılmışdır. Lakin müəllif xatirələrində bəzən elə incəlikləri qələmə alır ki, sanki bu olaylar dünən baş vermişdir» (143, s.254).

Əsərdə xüsusən, 1918-1920-ci illər Bakısı, burada yaşayan insanların yaşam tərzi, etnoqrafiyası, şəhərin özünəməxsus koloriti canlı boyalarla əks etdirilir.

Hiss olunur ki, roman ən incə nüanslarına qədər Bakını bilən, onu hiss edən biri tərəfindən yazılıb. Romanda diqqəti çəkən və onun cazibəsini artıran mühüm cəhət – yazıçının səmimiyyətidir. Əsərin təkcə Azərbaycanda deyil, eləcə də Avropa ədəbi məkanında qazandığı uğur yazıçının elə məhz hər şeyi olduğu kimi söyləyə bilmə cəsarətindədir. Əsərdə yaradılan peyzajlar da çox

maraqlıdır. Xüsusilə təbiət atributlarının canlı varlıqlar kimi təsviri, onlara hissi-emosional yanaşma əsərə həm yeni çalar gətirir, həm də əsil qafqazlı təbiətinə malik olan təhkiyəçinin bədii obrazının ziddiyyətli məqamlarının açılmasında köməkçi elementlər kimi çıxış edir.

Əvvəldə də qeyd etdiyimiz kimi, roman tariximizin ictimai-siyasi iğtişaşlar, çaxnaşmalar, təbəddülatlar, talanlar və çevrilişlərlə zəngin olan bir dövrünü əhatə edir. Tarixi mənbələrdə bütün dünyanın çalxalandığı bir dövr kimi səciyyələndirilən bu mərhələ bütün dünyada, o cümlədən Rusiyada baş verən inqilablarla xarakterizə olunur.

Rusiyada çar hakimiyyəti devrildikdən sonra ölkədə müxtəlif siyasi istiqamətlər meydana gəlmişdi. Bolşeviklərin, menşeviklərin, Kerenski, Denikin və Kolçakçıların təmsil etdiyi bu siyasi qüvvələrin hakimiyyət çəkişmələri, Qırmızılarla Ağları üz-üzə gətirən vətəndaş müharibəsi ölkədəki vəziyyəti daha da ağırlaşdırdı. Bu inqilabın dalğaları getdikcə ətraf ərazilərə də yayılırdı. İmperiyanın müstəmləkəsi altında olan xalqlar öz müstəqil respublikalarını yaradır və müstəqilliklərinin tanınmasını tələb edirdilər.

Demək olar ki, bütün dünya xalqlarının milli özünütəsdiq və azadlıq axtarışında olduğu bir vaxtda Qafqaz xalqları, o cümlədən tarix boyu milli-azadlıq hərəkatları ilə tanınan Azərbaycan xalqı bu mübarizədən kənarda qala bilməzdi. Azərbaycanda da istiqlal düşüncəsi güclənir, hürr yaşama uğrunda mübarizə gedirdi.

Müxtəlif partiya və siyasi qurumlar mövcud vəziyyətə öz dövlətçilik maraqlarından yanaşırdılar. Siyasi ideoloqlar öz baxışlarına görə iki yerə ayrılırdılar. Bir qismi, yəni bolşeviklər Rusiyanın, milli ideoloqlar, vətənsevərlərsə Türkiyənin köməyinə arxalanmanın daha doğru çıxış

yolu olduğuna inanırdılar. Ancaq hələ də öz yolunu seçə bilməyənlər də vardı.

Belə bir çətin şəraitdə Azərbaycan milli hərəkatının öndə gedən ideoloqu M.Ə.Rəsulzadə millətimizin digər aydınları ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin varlığını elan etdi. Beləliklə, Azərbaycan türk və islam dünyasında demokratik dövlət quran ilk ölkə oldu.

Ölkədə iki hakimiyyətlilik hökm sürürdü. Milli istiqlalçılar Bakı kommunarları ilə mübarizə şəraitində ölkəni Gəncədən idarə etməyə çalışırdılar.

Digər tərəfdən Azərbaycanın bir türk yurdu kimi varlığı məsələsi hələ də böhranlı məsələ olaraq qalırdı.

Ümumiyyətlə, ölkədə bir xaos əmələ gəlmişdi. Azərbaycanın müxtəlif bölgələrində, eləcə də Bakıda kütləvi qırğınlar, dağıntılar törədilirdi. Birinci Cahan savaşından sonra yoxsulluq və səfalət içərisində yaşayan yerli əhali bu dəfə ədibin də qeyd etdiyi kimi, milli rəqabət həvəsinin qurbanı oldu. O dövrün bütün hadisələrini ən incə təfərrüatına qədər öz əsərində əks etdirən Ümmülbanu bu barədə yazırdı: «Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı ilə hərbi diktatura rejimi yaratdı. Amma camaat pıçıldaşırdı ki, bu təşkilatın başçıları bolşeviklərdir. Onlar hər kim olsalar da, hakimiyyət dövründə müdafiə imkanı olmayan müsəlmanları qorumağa başladılar.

Burada da xalq «milli rəqabət həvəsinin qurbanı oldu. Yüksək təbəqənin, daha doğrusu, aparıcı təbəqənin nümayəndələri istər erməni olsun, istərsə də azərbaycanlı, mənafeləri eyni olduğuna görə, milli qırğınlar vaxtı bir-birini qoruyurdular» (156, s. 84).

Yeri gəlmişkən qeyd edək ki, müəllif bu romanda dövrünün digər əhəmiyyətli hadisələri kimi, Azərbaycan üçün hələ də taleyüklü məsələ olaraq qalan erməni-müsəlman məsələsinə də toxunur. Tarixi kökləri çox

qədimlərə gedən azərbaycanlılara qarşı yönəldilmiş və hələ də davam etməkdə olan milli qırğın siyasəti 1905-ci ildən başlayaraq tariximizin müxtəlif çağlarında edilən qətliamlarla həyata keçirilirdi.

Müəllif baş verən hadisələrin xülasəsini verərkən, Azərbaycana qarşı ədalətsiz müharibənin məhz daşnak hərbi dəstələri tərəfindən aparıldığını, sadə ermənilərin bu hadisələrdən çox-çox uzaqda qaldığını qeyd edirdi. Bu faktı tarixi mənbələr də təsdiq etsə də, bizcə, bütün bunlar hadisələrin sadəcə, görünən tərəfi idi. Günümüzə qədər davam edən olaylar bir daha təsdiq edir ki, baş verənlər epizodik xarakter daşımırdı, uzun müddətli siyasətin yalnız bir hissəsi kimi həyata keçirilirdi.

Əvvəlcə ərazi bütövlüyünə son qoyulan ölkənin daha sonra milli və mənəvi sərvətlərinə yiyələnmək, Azərbaycanın öz müqəddəratını həll etmə hüququnu əlindən almaq və ümumiyyətlə, «Azərbaycan» adını tarix səhifəsindən silmək və türk qanına həris «erməni milləti»nin varlığını məhz türk sümükləri üzərində bərqərar etmək – bu, həmin siyasətin başlıca məqsədi idi.

Bu təbəddülatlar, çaxnaşmalar daşnaklar tərəfindən yüksək memarlıq abidəsi olan evləri talan edilən Əsədullayevlərin də taleyindən yan keçmədi. Beləliklə, Əsədullayevlər ailəsinin didərginlik taleyinin ilk səfərinə çıxıldı. Dəniz yolu ilə İrana pənah aparan ailə burada da vətənpərvərlərlə Kuçuq xan adlı bir nəfərin başçılıq etdiyi ingilis işğalçıları arasında gedən istiqlaliyyət müharibəsi kimi daha bir tarixi hadisənin qurbanı olurlar.

Müəllif bu hadisələri böyük bir ağrı-acıyla xatırlayır.

Türk qoşunlarının yardıma gələrək Azərbaycanı erməni təcavüzündən xilas etdikdən və ölkədə nisbətən sakitlik bərpa olunduqdan sonra onlar vətənə qayıdırlar. Bu mərhələ rəsmi tarixşünaslıqda «türk işğalı» kimi

dəyərləndirilsə də, o zamanlar olduqca böhranlı günlər yaşayan xalq, eləcə də Türkiyənin köməyinə arxalanan ziyalılar haqlı olaraq türk ordusuna xilaskar ordu kimi baxırdılar. Milli istiqlal düşüncəsi yenicə baş qaldıran Azərbaycanda müstəqil dövlət olma yolunda ilk addımlar atılırdı və cümhuriyyət yolunda artıq əmin addımlarla irəliləyən, kamil ordusu olan Türkiyənin təcrübəsinə ehtiyac vardı. Hər nə qədər bu gəliş işğalçı xarakter daşısa da, Azərbaycan xalqının bugünkü varlığı o gəlişin nəticəsidir.

Almaniya ilə ittifaqda məğlub olan türk qoşunlarının geri çəkilməsilə ölkə ingilis hərbi hissələri tərəfindən zəbt edildi. Daha sonra Nuru Paşanın başçılıq etdiyi Azərbaycan ordusu ingilis ordusunu darmadağın edərək onları Bakını tərk etməyə məcbur etdi. Bununla da nefti ilə bütün dünyanın diqqət mərkəzində olan Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi. Böyük ciddicəhdlə siyasətə qoşulan Mirzə Əsədullayev (ədibin atası) Müstəqil Azərbaycan Respublikasının ticarət naziri təyin olunur. Artıq nazir evinə çevrilən Əsədullayevlər malikanəsi şəhərin ən qaynar qəbul məkanlarından biri olur. Lakin çox keçmədən daşnakların və bolşeviklərin hakimiyyəti ələ alması və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə Mirzə bəyin siyasi fəaliyyəti başa çatır. «Atam ciddi düşkünlük keçirirdi. O, ağzını açıb danışmasa da, peşmançılığını və özünü nədə günahlandırmasını duymaq olurdu. Vaxtında Bakıdan çıxıb getməmiş, pullarını xarici banklara keçirməmiş, nazir vəzifəsinə uyub qalmışdı» (156, s. 107).

Əsərdən nümunə gətirdiyimiz bu parçada kübar cəmiyyətinin özünəməxsus xisləti bir daha bizim üçün aşkarlanır. O dövrdə müstəmləkə əsarətində əzilən və istibdad odunda yanan millətin səssiz hıçqırtısını eşidib bu zülmə xitam vermək məqsədilə tarix səhnəsinə atılaraq

nəyin bahasına olursa-olsun yeni bir tarix yaradanlarla yanaşı, dəbə uyaraq, mənsəb xatirinə siyasətə qoşulanlar da vardı.

Keçmiş hökumətdə tutduğu mövqeyə, sosialist düşüncəsinə tamamilə yad olan kapitalist varlığına görə təzə rəhbərlərin diqqətindən kənarda qalmayan Mirzə bəy həbs edilərək, bütün var-dövləti müsadirə olunur. Beləliklə, Bakının küçələrində çalınmağa başlayan «İnternasional» himninin sədaları altında Əsədullayevlərin milyonçuluq səltənətinə son qoyulur.

Bir müddət sonra bir komissarın köməyi ilə həbsdən yaxa qurtaran Mirzə bəy Fransaya mühacirət edir. Bununla da, Əsədullayevlər ailəsinin mühacirlik taleyi başlayır.

Bütün bunlar hadisələrin tarixi mahiyyəti idi. Ancaq əsərdə rast gəldiyimiz bəzi mənəvi-psixoloji məqamlara da toxunmaq istərdik.

Cümhuriyyət dövründə ölkənin ictimai-siyasi həyatında baş verən təlatümlər, dəyişikliklər – mövcud cəmiyyətdə yaşayan insanların mənəvi aləminə birbaşa təsir etmişdi. Bəlkə də əsil çevriliş məhz şüurlarda, mənəviyyatlarda baş verirdi. Birdən-birə «azadlıq» anlamını qavraya bilməyən insanların «tərəqqi və iddihat» şüarı altında qeyri-əxlaqi davranışlar nümayiş etdirməsi xaotik bir vəziyyət yaratmışdı. Bakı gözqabağında dəyişir, Avropa dəbinə keçirdi. Qarışıq tarixi hadisələr baş verdiyi bu dövrdə adətlər dəyişir, onsuz da zəifləmiş «din və ənənələr mövqeyini daha da itirirdi.» (156, s. 93). Bu, daha çox yüksək cəmiyyətdə, varlı ailələrdə hiss olunurdu. Belə bir ictimai bəla Ümmülbanunun da ailəsindən yan keçməmişdi. Onların (daha çox analığı və bacılarının) milli adət və dini mərasimlərimizə yad münasibətləri, xüsusən şərqli və azərbaycanlı qadına yaraşmayan dav-

ranış və vərdişləri «mədəniyyət ocağı»ndan yararlanmanın acı nəticələri kimi təzahür edirdi.

Digər bir mübahisəli məsələ Ümmülbanu və bacılarının yetişdirilmə tərzində idi.

Mirzə bəy onlara təlim keçmək üçün müxtəlif ölkələrdən müəllimlər dəvət etmişdi. Qızlar bu vasitə ilə müxtəlif dillərə, mədəniyyətlərə yiyələnir, incəsənət sahəsində xüsusi bacarıqlar əldə edirdilər. Ancaq heç bir zaman onlara vahid əqidə aşılanmamışdı. Hər bir əcnəbi müəllim bu qızlara öz dilini, öz dinini və dolayısıyla da, öz siyasətini aşılayırdı. Verilən təlimlərin milli Azərbaycançılıq zəminində, vətənsevərlik ruhunda aparılması bu tərbiyə zəncirinin tamamlanmamış halqası idi. Bu nüans onların bir əcnəbi cəmiyyətində keçirilən dini mərasimlərdə iştirakında, sosialist materializminin təbliğatçılarına qoşulmalarında, müstəmləkəçi rusların şərəfinə badə qaldırmalarında çox bariz şəkildə meydana çıxırdı.

Əsər boyu yazıçının hərəkət konturları sürətlə həm irəli, həm də geriyə hərəkət edərək sanki itirilmiş, dağıdılmış yaddaşın ayrı-ayrı hissələrini bir yerə toplamağa çalışır. «Qəribə uşaqlıq illəri yaşamışam! Bilirəm ki, hər kəsin uşaqlıq illəri uzaq keçmişə bənzəyir. Mənim uşaqlığım isə həm coğrafi, həm də tarixi mənada çox uzaqda qaldığından heç nə məni həmən illərə bağlamır, nə inanmadığım din, nə fransız dili ilə əvəz olunmuş ana dilim, nə itirilmiş milyonlar, nə bir əşya, nə də bir şəxs. Keçmişim mənə çoxdan bitmiş bir ömür kimi görünür. Əvvəlki həyatım qaranlıq bir yuxuya, nağıldan çıxarılmış əfsanəyə oxşayır» (156, s. 56).

Öz dediyinə görə, keçmişini əynindən darısqal bir paltar kimi çıxarıb yeni, azad bir həyata – Fransa həyatına qədəm qoyan müəllif nə vaxtsa, uzun illər arxasından indi uzaq xəyala dönmüş bir diyara boylanacaq, yaddaşından

silib atmağa çalışdığı o qısa zaman kəsiminə bir daha qayıdacaq, uzaq xatirələr dünyasında dolaşacaqdı.

Bu əsər onun uşaqlığından qalan qırıq-tökük xatirələrlə doludur. Romanın hər sətrində çox uzaqda qalmış diyarın nisgililə çırpınan bir qəlbin gizli həsrəti duyulur.

Nigar Abutalıbova və Qorxmaz Quliyevin birgə yazdıqları «İztirab etüdü» adlı məqalədə «Qafqaz günləri» məşhur Fransız yazıçısı M.Prustun «İtirilmiş zaman axtarışı» əsəri ilə müqayisə olunur. Həmin məqalədə qeyd olunduğu kimi, M.Prustun izinə düşdüyü yaddaş itirilmiş uşaqlığı ilə bağlı idisə, Banini geriyə qaytaran səbəb vətən həsrətidir. Onun bu əsərin davamı kimi səslənən digər romanı «Paris günləri» (1947) dir.

«Qafqaz günləri»ndən fərqli olaraq, burada obrazlar daha canlı, hadisələr daha realdır. Yazıçının özünün də qeyd etdiyi kimi, bu səfər onların ümidə olan yolçuluğu idi. «Oryan - Ekspress» vargücü ilə oraya Ümid Yerinə tərəf şütüyürdü. O, qulaqbatırıcı bir uğultu ilə irəliləyir, relslərin üzəri ilə bir yoldan o birisinə keçərkən xam at kimi atılıb düşürdü. Qatar özünün cingiltili dəmir dili ilə mənə xilasın və xoşbəxtliyin yaxınlaşdığını elan edirdi. O məni dörd illik inqilab dövründən bəri dağıdılmış bir dünyanın xarabaları arasında ümid işığına dönmüş bir diyara aparırdı. Hələ dörd il əvvəl Qafqaz azad ikən qohumlarımın bir hissəsi buraya gəlmiş, mən isə müstəqil Azərbaycan Respublikasının naziri olan atamla orada qalmışdım. Sonra isə ruslar Qafqazı yenidən zəbt etdilər. Atam varlı olduğuna görə yenidən həbs olundu, mən isə on beş yaşımda məcburən ərə getməli oldum. Bu dəhşətli illərin ən ümidsiz çağlarında belə xəyallarda özümə sığınacaq tapır, dünyanı dolaşır, ağlasığmaz, böyük xoşbəxtliklər, uğurlar, qələbələr haqda fikirləşirdim.» (158, s. 108).

O, həmin dəqiqələri həyatının ən həlledici məqamları hesab edir. Ümmülbanu Paris həyatına qoyduğu ilk addımı cənnətə qədəm basması kimi dəyərləndirir. Onun doğma vətəndə çəkdiyi iztirabları və kübar cəmiyyətinin xislətindən doğan özünə yadlaşma stixiyasını nəzərə alsaq, bu çox təbii görünür. Yeni Paris həyatı, tərəqqinin geniş vüsət aldığı bir ölkədə yaşamaq onların həyatını yeni məcraya yönəldir və bu da onları öz keçmişlərindən bir az da uzaqlaşdırır. «Cəmisi üç ay əvvəl mən başqa bir planetdə, min illik islam ənənəsinin qorumağa çalışan, amma qoruya bilməyən bir ailədə və inqilabi çağırışlar aləmində yaşayırdım. Mən həmin çağırışları eşitmişdim və əgər bir az da cəsarətli olsam bir yol seçə bilərdim. İndi isə tamam başqa bir dünyadayam və buradakı həyatın yumşaqlığı və şirinliyi məni inqilabi sərtlik havasından çəkib ayırırdı» (158, s. 113-114).

İnqilablar və çevrilişlər insanların şüurunda xaotik bir mənzərə yaratmışdı. Azadlığın qurtuluş havasından məst olaraq özlərini tamamilə yaşadıqları ölkəyə, onun qaydalarına təslim edənlər və son nəfəsinə qədər idealına, daxilində gəzdirdiyi vətən sevgisinə sadiq qalan, heç cür yad ölkəyə və onun insanlarına alışa bilməyənlər son sığınacaq kimi eyni məkana üz tuturdular. Eləcə də onları burada eyni tale – mühacir taleyi birləşdirirdi. Yaşadıqları tale ilə barışa bilməyənlərlə yanaşı, tezliklə yad ölkəyə adaptasiya edərək özlərini əsil qərbli kimi hiss edənlər də vardı. «Biz yeni cəmiyyətə tam qovuşmasaq da, Birinci Dünya müharibəsi, Oktyabr inqilabı, 1918-ci ildən sonrakı hakimiyyət keçmiş ənənələri əridib yox edirdi. Eniş, yüksəliş, tərəqqi, gerilik haqqında fikirlər müxtəlif olsa da, zaman öz işini görür, adətləri zəiflədir, bəlkə də məhv edirdi» (158, s. 121).

Bu əsər həmin dövrdə baş verən tarixi hadisələrin, ictimai-siyasi meyllərin təsviri baxımından da özünə-

məxsus əhəmiyyət kəsb edir. «Məlumdur ki, Monparnasa «ağ» mühacirlər axışmamışdan əvvəl «qırmızı» mühacirlərdən – Trotski, Lunaçarski, İlya Erenberq kimi tanınmış adamlar, ələlxüsus, onların ən məşhuru Lenin də Monparnasda olmuşlar. Bu da tarixi həqiqətdir ki, Lenin Monparnas kafelərindən çox, buradakı Milli kitabxanaya meyl göstərmişdir.

...Həmin dövrdə o belə bir məşhur cümlə də yazmışdı: «Heç mümkün deyil ki, özünün məşhur inqilabi ənənələri, mədəniyyəti, cəsarəti və mətin döyüşkənliyi olan inqilabçı Fransa proletariatı özünün güclü kommunist partiyasını yaratmasın» (158, s. 126).

Bu da taleyin cilvəsidir ki, inqilabdan əvvəl özü mühacir taleyi yaşayan bu şəxs sonralar Sovet imperiyasının ideoloqu kimi şöhrətlənir və «ağ mühacir» axınına səbəb olur. Müəllifin də qeyd etdiyi kimi, «əgər o olmasaydı, nə mühacirlər mövcud olardı, nə mənim yazdığım xatirə sətirləri» (158, s. 126).

Bəli! Əgər o, qurtuluş nəğmələri səsləri altında öz mənfur istilaçı niyyətlərini təbəəsi olan müxtəlif xalqların və millətlərin varlığına yeritməsəydi, yalnız öz milli-mənəvi azadlığını tələb edənlər «xalqlar həbsxanası»nda məhkum olmayacaq və minlərlə «düşünən beyinlər»ini naməlum şəkillərdə itirməyəcəkdilər. Odur ki, Sovet imperiyasının əsarəti altında keçən 70 il bu xalqların tarixi taleyində itirilmiş zaman kimi qiymətləndirilir.

Əvvəldə də söylədiyimiz kimi, Oktyabr İnqilabının sərt gedişatı nəticəsində faciələr və keşməkeşlərlə səciyyələnən, dünya coğrafiyasının müxtəlif bölgələrinə yayılmış «mühacirlər» axını yarandı. Bu mühacirlik taleyinin ən sərt üzünü yaşayan və hər cür məhrumiyyətə qatlanan Nobel mükafatına layiq görülmüş ilk rus yazıçısı Bunin bu barədə deyirdi: «Mühacirlik, doğrudan da çox böyük və faciəvi fenomendir» (158; s.99). Mühacirlik –

din, dil, etnik mənsubiyyətindən asılı olmayaraq bütün millətlərin taleyindən keçən dəhşətli bir dalğa idi. Müəllif bu barədə Amerikalı Çapinqtonun 1933-cü ildə yazdığı bu sətirlərə diqqəti cəlb edir: «Bu, müharibədən törəmiş bir millətdir və onun adını heç bir coğrafiya xəritəsində tapmaq olmaz. Əhalisinin sayı bir milyondan az artıq olsa da, savadlılığına görə dünyada birinci yeri tutur. Bu millətin hökuməti olmasa da, paytaxt şəhəri var. Paytaxtı Parisdir, əhalinin bir hissəsi isə hissə-hissə dünyanın hər yerinə yayılıb. Əhalinin yarısı hərbçi olsa da, ordusu yoxdur. Millətin parlamenti olmasa da, onun tərkibində kommunistlərdən başqa sağ, yaxud sol təmayüllü hər cür siyasi axın var» (158, s. 100).

Heç də təsadüfi deyil ki, təkcə Fransada sayı yarım milyona çatan mühacirlərin 62 adda qəzet və jurnalı dərc olunurdu.

Bu da bir həqiqətdir ki, oktyabr inqilabı istər mənfi, istəsə də müsbət mənada bir çox xalqların, o cümlədən azərbaycanlıların tarixi taleyində dönüş nöqtəsi oldu.

Baninin «ağ mühacirlər»dən olan böyük rus yazıçısı İvan Bunindən bəhs edən digər əsəri «İvan Buninin son höcəti» sənədli povestidir. «Banin bu əsərində də, nostalgiya adlanan vətən həsrəti hissini psixoloji aspektdə götürür, böyük nəslin faciəsini heç bir şey artırıb əskiltmədən, olduğu kimi göstərməyə çalışır» (157, s. 98).

İvan Buninin Ümmülbanuya yazdığı çoxsaylı məktubların əsasında qələmə alınan bu əsərin faktoqrafik səciyyəsi onu daha maraqlı və əhəmiyyətli edir.

Bu əsərdə müəllif Fransada məskunlaşan digər mühacirlər kimi, «ağ mühacir»lərin ağır və acınacaqlı taleyindən və onların azadlıq arzularından bəhs edir. «Fransada yaşayan mühacirlər qalmışdılar odla su arasında: bir tərəfdən heç nəyi nəzərə almayaraq vətəni tərifləmək, onun şöhrətini daha da ucalara qaldırmaq istəyi, digər

tərəfdən də düşüncələrinə, varlıqlarına hakim kəsilmiş bolşeviklərə düşmənçilik münasibətləri... Bolşeviklərsə, öz növbəsində bu zaman vahid dekretlə bu mühacirlərin keçmişinin – ağlarla bağlılığının üstündən xətt çəkib geriyə – vətənə dəvət edirdilər» (157, s. 99).

Rus mühacirlərindən belə bir seçim qarşısında qalanlar arasında böyük rus yazıçısı İvan Bunin və rus yumoristi Teffi də vardı.

Hər iki yazıçı – Bunin də, Teffi də Fransada çox çətin şəraitdə yaşayırdılar. Rusiyaya getmək onlar üçün çox şey vəd edirdi. Lakin bu gediş onların öz ideallarından və uzunmüddətli mücadilələrindən imtinası olardı. Bu böyük rus idealistləri sözün əsil mənasında qəhrəmanlıq edərək, geriyə addım atmaqdansa, ömürlərinin qalan hissəsini də dərin səfalət içərisində onları tanımayan Fransada keçirməyə razı olurlar.

Bu barədə söz düşəndə Teffi deyir: «Mənim itirdiyim adicə sərhədlər arasındakı – şerlərdə zərif hislərlə tərənnüm olunan qayınağaclarının bitdiyi – bir ərazi deyil. Bu, hər şeydən əvvəl, gözəgörünməz bir varlıqdır, onun elementləri zorla dağıdılıb və başqalarıyla əvəz edilib... Mənim vətənimin ruhu ölüb. Bu yeni ölkədə – xarabalıqlar üzərində ucaldılmış bir dövlətdə isə mən özümü itirmiş olardım» (157, s. 117-118).

Demək olar ki, bir qisim ölkələrdə müxtəlif xalqların mozaikasını yaradan siyasi mühacirlər məhz belə düşünürdü. Bu insanların tək qayəsi – vətənlərinin ölən ruhunu qaytarmaq və azadlıq ideyalarını məfkurə şəklində yaya bilmək idi.

Olduqca ziddiyyətli xarakterə malik Buninlə açıq fikirli, inadcıl və şərqli ekzotikasını özündə birləşdirən Banini yaxınlaşdıran cəhətlərdən birincisi mühacirlik taleyi idi. Çox qəribə görünsə də, Bunin onu dağıdılmış və itirilmiş vətəninin bir parçası kimi sevirdi. Hətta

dəfələrlə onu «öz doğma dil»ində – rus dilində yazmağa təhrik etməsi – onun şovinist və imperialist xarakterini ortaya qoyurdu. Banin də öz növbəsində rusların yüzillər boyu millətləri assimilə etmə və özünə yadlaşdırma siyasətinə əslən azərbaycanlı olması ilə cavab verirdi.

O, bu əsərində də böyük bir mühacir nəslinin vətən həsrətini dərin lirizmi və psixoloji mahiyyəti ilə əks etdirmişdir.

Neçə illərdir ki, faciəli taleyi və maraqlı şəxsiyyəti ilə istər dünya ədəbiyyatşünasları, istərsə də Azərbaycan tədqiqatçıları üçün hələ də açılmayan sirr olaraq qalan bir müəllif var. Feodal ailəsində doğulduğu üçün bolşevizmin qəzəbinə tuş gələrək vətənindən didərgin salınan – bəzən Qurban Səid, bəzən də Leo Noissumbaum təxəllüsləri ilə əsərlər yazdığı güman edilən mühacir taleli yazıçılarımızdan biri də Məhəmməd Əsəd bəydir.

İstər Məhəmməd Əsəd bəy, istərsə də Qurban Səid imzalı əsərlərdən bizlərə boylanan bir obraz var – o da vətənini, doğulduğu torpağın hər qarışını sevən, onun sərhədləri içərisində yaşamaqdan qürur duyan təəssübkeş bir vətəndaş obrazıdır.

Məhəmməd Əsəd bəy özünün qeyd etdiyinə görə, 20 oktyabr 1905-ci ildə bir feodal ailəsində, Qərb əsilli qadından doğulmuşdur. Yazıçı «Həyatımın kitabı» adlı əsərində bu barədə yazır: «Əksər adamlar doğulduğu evi, yaxud ən azı yeri göstərə bilirlər. Bu yeri, daha doğrusu, bu evi sonralar qocalıqda məsum xəyallara dalmaq üçün ziyarət edirlər. Dediyim xəyallara dalmaq üçün mən gərək sürət qatarının vaqonunu ziyarət edəm. Mən rus dəmiryolçularının ilk tətili zamanı Avropa ilə Asiya arasında yerləşən rus çölünün ortasında, anam Surixdən, rus inqilabçılarının iqamətgahından ailəmizin yaşadığı Bakıya gələrkən doğulmuşam. Doğulduğum gün çar ruslara konstitusiya vəd edən manifesti imzalamışdı» (142, s.4).

Yazıçının atası Azərbaycanda on böyük inhisarçıdan biri idi. O, bolşevizmin ölkəmizdə bərqərarından sonra təqib və təzyiqlərdən yaxa qurtarmaq üçün oğlu Əsəd bəylə birlikdə vətəni tərk etmiş və ağır mühacir taleyi yaşamağa məcbur olmuşlar.

Yazıçının «Şərqdə neft və qan» əsərində göstərildiyi kimi, onlar Türkmənistana, Buxaraya, Xivəyə və Tacikistana mühacirət etmiş, mürəkkəb, keşməkeşli bir tale yaşamışlar. Sonralar İrandan Azərbaycana qayıda bilsələr də, bolşeviklərin ikinci hakimiyyətindən sonra onlar vətəni həmişəlik tərk etmişlər. İstanbul, Roma və Paris üzərindən Berlinə gəlib əvvəlcə burada, sonra isə Avstriya və İtaliyada yaşamışlar.

Yazıçının müxtəlif imzalar altında çıxış etməsi də elə bu təzyiqlərin nəticəsində olmuşdur. Filologiya elmləri namizədi Çərkəz Qurbanlı və filologiya elmləri doktoru, professor Həsən Quliyevin müəllifin «Altunsaç» əsərinə yazdıqları ön sözdə qeyd etdikləri kimi, «Azərbaycan mühacirət ədəbiyyatının ən parlaq nümayəndələrindən biri olaraq o, Azərbaycanı tərk edib ilk dəfə Avropaya düşəndə artıq müəmmalı şəxsiyyətlərdən biri idi» (142, s.3).

Daha sonra o, növbəti təqibdən yaxa qurtarmaq üçün Leo Noissumbaum təxəllüsünü seçir.

Bu gün də bir qisim tədqiqatçı onu fırıldaqçı adlandırır və yazıçı şəxsiyyətini qətiyyən qəbul etmək istəmir.

Lakin bütün bu mübahisəli məsələlərə baxmayaraq, qarşımızda olduqca zəngin bir yaradıcılıq var. Hər halda, Məhəmməd Əsəd bəy – Qurban Səid yaradıcılığı üzərinə təkrarən qayıdılması da bu səbəbdəndir.

Cəmi otuz səkkiz illik ömür yaşayan ədib ilk romanı «Şərqdə neft və qan» (1929) olmaqla bir çox iri həcmli əsərlər yaratmışdır: «Qafqazda on iki sirr» (1930), «Sta-

lin» (1931), «Qafqaz. Dağları, xalqları və tarixi» (1931), «Q.P.U. Dünyaya qarşı qəsd» (1932), «Ağ Rusiya» (1932), «Məhəmməd» (1932), «Rusiya yol ayrıcında» (1933), «Axar qızıl» (1933), «Rza şah – sərkərdə, padşah, reformalar» (1935), «İkinci Nikolay. Son çarın şövkəti və qürubu» (1935), «Allahu Əkbər. Əbdül Həmiddən İbn Səuda qədər islamın çöküsü və qalxışı» (1936). Müəllif son iki romanını Qurban Səid təxəllüsü ilə çap etdirmişdir: «Əli və Nino» (1937), «Altunsaç» (1938).

Yazıçı 1943-cü ildə İtaliyada vəfat edib İtaliyanın Pazitano şəhərindəki müsəlman qəbiristanlığında dəfn edilmişdir.

Onun mövzu rəngarəngliyi və təhkiyə üslubu çox maraqlıdır. Verner Şendel bu barədə yazırdı: «Almanca yazırdı, bizim kimi yazmırdı, onun cümlələrində ayrı bir ritm səslənir, fəqət onu çıxarmağa əsas görmədik, bəlkə də bizə yaxınlaşmış, ancaq yenə də anlaşılmaz yad bir aləm haqqında oxucu daha çox məlumat toplamaq üçün atlas və bu kitabdan sonra başqalarına əl atacaqdır» (103, s. 6). Tom Raysin Əsəd bəy haqqında yazdığı: «hətta neftin bazarlaşmasının quru mexanizmindən elə söhbət açır ki, elə bil bu, «Min bir gecə nağılıdır» (142, s.10) düşüncəsi bi fikrin davamı kimi səslənir.

Onu da qeyd edək ki, Məhəmməd Əsəd bəy – Qurban Səid imzalı bütün əsərlər eyni üslubla müşayiət olunur. Onun romanlarında eynilə təkrarlanan sujetlərə, oxşar obrazlara rast gəlmək mümkündür.

«Qafqaz. Dağları, xalqları və tarixi», «Şərqdə neft və qan», «Allahu Əkbər» romanlarındakı süjetlər, bəzən hətta ayrı-ayrı cümlə və mətn parçaları «Əli və Nino» romanında təkrarlanır» (101, s. 5).

Eyni zamanda, Şərq-Qərb mədəniyyətlərinin qarşılaşdırılması, Asiya ruhunun müdafiəsi, səhra adamlığı stixiyası, etnoqrafik cizgilər, milli-azadlıq hərəkatının

təsviri və qaçqınlıq taleyi ilə bağlı mövzular Əsəd bəyin əksər romanları üçün xarakterikdir.

Bu mövzular eləcə də, ədibin ilk romanı «Şərqdə neft və qan» əsərində də öz əksini tapır: «Xəzər dənizi sahillərindəki Respublikanın adı Azərbaycandır ki, onun paytaxtı Bakı da neft sənayesi ilə tanınır; o, Sovetlər Birliyinin tərkibindəydi və dünya nefti uğrundakı böyük mövqe savaşında önəmli körpü rolunu oynayırdı. Şərqə meylli Qafqaz Abşeron yarımadasını Bakı şəhəri və neft çölləri və Yer kürəsinin ən iri iç gölünə sıxışdırır. Əzəmətli dağ silsilələrinə, minillərdən bəri Şərqlə Qərb arasında vurnuxmuş muzey palatası kimi sadiqliklə qoruyan əfsanəvi Qafqaz dağlarına söykənən bu göl Asiya və Avropa arasında axar, sonsuz sərhəd xətti təki uzanıb-gedir» (105, s.3).

Bu sətirlər «Şərqdə neft və qan» əsərinə Verner Şendelin yazdığı ön sözdəndir. Bu əsər Asiya və Avropanın arasında yerləşən, ancaq daha çox, Asiyaya aid olan, öz ruhu, öz musiqisi, özünə xas milli xarakteri ilə şöhrətlənən bir ölkədən və onun insanlarından bəhs edir.

«Qırx il öncə Bakı səhra şəhəri idi, müəyyən mənada elə bu gün də o cür qalmaqdadır. Amma o vaxt hardasa avropasayağı bircə küçə belə yox idi. Qovurucu istidən sakinləri bircə ağac belə qorumurdu. Şəhər başdan-başa palçıq daxmalardan və bir-iki kobud saraydan ibarət idi ki, onlar da səhra qumunun üstündə tikilmiş və yeganə barı ilə dövrələnmişdi» (105, s.7).

Əsasən, avtobioqrafik səciyyə daşıyan bu əsərdə doğma yurdun iqlimi, coğrafiyası, insanları, eləcə də ön və sonrakı tarixləri ilə bağlı maraqlı təsvirlər yaradılır. Burada, o zaman üçün Bakının simasına çevrilən möcüzəvi Bakı, neft, mavi dəniz, qumlu sahil, isti külək yaddaşlarda eyni bir vəhdəti – Odlar yurdu diyarımızı yaradır. Lakin bütün dünyanı çalxalayan anarxiya dalğası

od-alov məskəni, əfsanələr diyarını da bürümüşdü. «Bakı sənaye şəhəri idi, ölkənin yeganə sənaye şəhəri. Onun yüz min fəhləsi hər çalardan olan sosialistlər tərəfindən durmadan üsyana qaldırılırdı. Fəhlə qəsəbələri ilk toqquşmaların şahidi oldu. Zəngin neft şəhərində talan iyini almış rus və erməni banditləri indi ölkənin hər bucağından axışırdı. Əvvəlcə onlar küçədən keçən günahsız insanları sadəcə saymaqla kifayətləndilər, sonradan isə neft bəylərinə basqı etməyi də özlərinə rəva bildilər və tezliklə siyasətdə önəmli rol oynamağa başladılar» (105, s. 69).

Artıq qədim Bakının da sükutu pozulmuş və o da inqilablar, çevrilişlər yuvasına dönmüşdü.

Bir sıra tarixi mənbələrdə göstərildiyi kimi, həmin dövrdə əksər siyasi partiyaların pul toplamaq məqsədilə quldurluqla məşğul olmaları kimi faktlar da bu romanın səhifələrində özünə yer tapır. «Onlar ermənilər, Ermənistandakı siyasi mübarizələri üçün pula ehtiyacları olan radikal siyasi partiyanın üzvləri idilər. Bir ildən sonra eşidəndə ki, onları Gəncə meydanında asıblar, sevincim yerə-göyə sığmadı.

Seçki kompaniyasına və təbliğata bu yolla pul toplamaq Şərqin bütün siyasi partiyalarına xas idi» (105; s. 80). Yeri gəlmişkən qeyd edək ki, M.Ə.Rəsulzadənin «Stalinlə ixtilal xatirələri» əsərində bu talanların məhz Stalin tərəfindən törədildiyinə dair işarə var. Hətta söhbət əsnasında Stalin bunu təsdiq edir. Əsəd bəysə yazırdı: «Belə maliyyə bicliklərinin ustası bir vaxtlar gürcü Soso Çuqaşvili olmuşdu ki, o da məhz özünün bədnam inqilabi təxəllüsü «Şişeradze»ni sadə Stalin adı ilə dəyişmək üzrə idi» (105, s. 80).

Yazıçı əsərdə, eyni zamanda, Styopa Lalayan və Stepan Şaumyanın Bakı şəhərinin küçələrində törətdiyi qanlı qırğını real boyalarla, gerçək cizgilərlə təsvir etmiş,

bu faciəli hadisənin canlı mənzərəsini yaratmışdır. Üç böyük qoşunun – rus qoşunlarının, daşnak qüvvələrinin və «vəhşi diviziya»nın qanlı toqquşması nəticəsində şəhərdə böyük bir qətliam baş verir və 30 min nəfər vəhşicəsinə qətl edilir.

Bütün bu hadisələri zirzəmidə gizlənib uzaqdan izləməkdən təngə gələrək qanın və qətlin içərisinə getmək istəyən müəllifi atası sakitləşdirərək: «İntiqam savaşının vaxtı gələcək, hələliksə sakitcə zirzəmidə qal» - deyir (103, s.92).

Bir-birinin ardınca Qubada baş verən üsyanlar, Türküstanın hər tərəfində getdikcə vüsət alan çaxnaşmalar, basmaçılar hərəkatı, Rusiyadakı inqilablar və nəhayət, Azərbaycanın siyasi həyatındakı dəyişikliklər əsərdə geniş təsvir olunur.

Avtobioqrafik səciyyə daşıyan bu əsər tarixi fakt və hadisələrlə zəngindir. Şaumyan daşnak Bakı hökumətinin əlindən qaçıb Orta Asiya və İrana pənah aparan Məhəmməd Əsəd bəyin kommunist rəhbərlərindən olan qohumunun sayəsində sağ qalması da maraqlı faktlardandır. O, vətənə dönüşünü belə təsvir edir: «Sahildə fəxri qaraulun yanında yeni baş nazir Fətəli Xan Xoylu dayanmışdı, - Allah bilir, necə – bizim gəlişimizdən xəbər tutub özünü bura yetirmişdi. Yanındakı əsgər Azərbaycan bayrağını tuturdu. Mən həmişə bayraqlara və baş nazirlərə az meylli idim, amma bu dəfə ürəyim atdandı. Bilmirəm, necə oldu, nazirlə söhbət edən atamın yanında dayanıb onun tər, nazir sanından alışıb-yanan sifətinə, yanındakı bayrağına baxırdım və birdən mənim özüm və digərləri üçün də gözlənilmədən kişini qucaqlayıb qalın, təbəssümlü dodaqlarından öpdüm» (103, s.240).

Qafqaz İslam ordusunun başçılığı ilə qədim neft şəhərinin qurtuluşu, ingilis istilası və odlar diyarı Azərbaycanın yenidən öz müstəqilliyinə qovuşması kimi tarixi

hadisələri müəllif özünəməxsus təhkiyə üslubu ilə ən incə təfərrüatına qədər nəql etmişdir.

Lakin şimalda təzahür edən sovet ulduzu azadlıq həsrətli xalqımızın xoşbəxt və parlaq günlərinə xitam verir. Azərbaycan Xalq Cümhuriyyətinin parlaq nümayəndələrini – milli ideoloqları, nazir və parlamentariləri, neft sahibkarlarını öz dəyirmanında üyüdən «ölüm katalizatoru» kimi tanınan çekanın qaranlıq zirzəmiləri bu millətin ən böyük kabusuna çevrilir.

O qanlı günlərin və talanların canlı şahidi olan müəllif həmin günləri belə xatırlayır: «Qırmızı dəstələrin şəhərə doluşmasını mən pəncərədən gördüm, qəddar sifətlər, cır-cındır içində olan insan fiqurları, acıqlı bolşeviklərin heyvani üzləri, neft şəhərinin zənginliyinə həsrətlə baxan paxıl, ac rus gözləri gözümdən yayınmadı» (103, s.259). Yazıçının qeyd etdiyi kimi, həmin dövrü kommunistlər «terrorun böyük günləri» adlandırırdılar.

Azərbaycan tarixində özünəməxsus yer tutan və müəllifin özünün də yaxından iştirak etdiyi Gəncə üsyanından «Şərqdə neft və qan» romanının səhifələrində geniş bəhs olunmuşdur. Eləcə də Məhəmməd Əsəd bəyin «Allahu Əkbər» adlı digər əsərində və Qurban Səid imzalı «Əli və Nino» romanında Gəncə hadisələrinə geniş yer ayrılmışdır. Hər iki əsərdə hadisələrin təsvirinə və gedişatına baxdığımız zaman, Gəncənin müdafiəsi və xilası uğrunda gedən vuruşmanı itirilməkdə və çökdürülməkdə olan Azərbaycan Xalq Cümhuriyyətinin son müdafiəsi kimi də qiymətləndirmək olar. «Demək olar, hər şəhərdə qiyam qalxmışdı. Bütün ölkə od tutub yanırdı, fəqət bütün bunların hamısı ümumazərbaycan qırğını ilə başa çatdı ki, çeka da bu yolla öz qələbəsini bayram etdi» (103, s.270).

Gəncə qırğınından sonra Azərbaycanın içi ilə doğma vətəninə və Şərqə vida edən Məhəmməd Əsəd

bəy yazırdı: «Anadoluda on min xristian öldürülüb», elə bu vaxt qəzetçi oğlan qışqırdı. Birinci dəfə bir Fransız qəzeti aldıq. Həmin andan mənim üçün Avropa başladı. Qoca Şərq ölmüşdü» (103, s.314).

Məhəmməd Əsəd bəyin digər əsərlərində olduğu kimi, «Şərqdə neft və qan» romanında da səhra insanının xarakterik cizgisi yaradılır, çöl adamının təbiətdən gələn fitri biliyi heyranlıqla təsvir olunur.

Məhəmməd Əsəd bəyin 1934-cü ildə Polşada «Respublika» jurnalının səhifələrində dərc olunmuş, yalnız son illərdə – 2004-cü ildə Fuad Hüseynzadə tərəfindən ilk dəfə polyak dilindən rus və azərbaycan dillərinə tərcümə olunaraq nəşr edilən daha iki əsəri «Manuela» və «Məhəbbət və neft» povestləridir.

Hər iki əsər macəra və dedektiv janrında yazılaraq yazıçının yaşadığı dövrdə cərəyan edən tarixi hadisələri özündə əks etdirir.

Yazıçı-publisist «Manuela» əsərində «inqilab» anlayışının xislətini açmağa çalışır. Bunun üçün maraqlı süjet xəttindən istifadə edir. Dünyanın inqilablarla çalxalandığı bir dövrdə belə bir mövzunun, həm də iqtisadi sabotaj yolu ilə, «qansız inqilab» kimi orijinal bir ideyanın əsərdə öz bədii həllini tapması çox aktual və maraqlı səslənir. Eləcə də, povestdə müəllifin hakimiyyət və xoşbəxtlik barədə düşüncələri də özünə yer tapır. Eyniadlı povestin qəhrəmanı siyasi avantüristlərin sui-qəsdlərinə qurban getmiş atası General Pedronun intiqamını almaq qərarına gəlir. Və bu yolda öz cəsarəti ilə bütün Avropanı heyrətə gətirən xalq qəhrəmanı Serano ilə qarşılaşır. Gənc Manuelanın başladığı mübarizə daha geniş miqyas almağa başlayır və bütün Avropanı bürüyür.

Əsərin sonunda «...nəhayət ki, istədiyimizə nail olduq» - deyən Seranoya Manuela: «Biz Vətənimizə xoşbəxtlik və əmin-amanlıq gətirməli idik, lakin səfalət

və qatma-qarışıqlıq yaratdıq. O pullar həqiqətən bizə hakimiyyət verdi, insanların əlindən isə xoşbəxtliyi aldı. Mən artıq siyasətə qarışmaq istəmirəm. Mən sizə ona görə kömək etdim ki, atamın ölümünün intiqamını alım. İndi mənə sakitlik lazımdır, mən siyasətlə birdəfəlik qurtarmaq istəyirəm» - deyir (102, s.155).

«Məhəbbət və neft» adlı ikinci povest Qafqaz, hətta dolayısı ilə Bakı nefti haqqında olması və əsərdə tarixi fon kimi region dövlətlərinin öz müstəqilliklərini itirdiyi bir dövr göstərildiyindən hekayə bizim üçün maraqlı görünür.

Burada süjet xəttinin əsasını yenə də mübarizə, intiqam təşkil edir. Povestdə yaradılan İşbaz Petrosun simasında müəllif ermənilərin fanatik millətçi olduğunu, insanlardan öz məqsədləri naminə necə istifadə etdiklərini göstərir.

Məhəmməd Əsəd bəyin 1936-cı ildə qələmə aldığı «Allahu-Əkbər. İslam dünyasının Əbdül Həmiddən İbn Səuda qədər çöküşü və qalxışı» («Allah ist gross, 1936) romanı dövlətçilik və islam ideyalarını özündə əks etdirir. Zəngin tarixi qaynaqlara əsaslanaraq bədii məzmun verilən bu əsərdə Avropa dövlətlərinin islama qarşı apardığı hərbi-siyasi mübarizə, XX yüzilin başlanğıcında islamın çöküşünün, eləcə də Birinci Cahan savaşından sonra Atatürk ordusunun Türkiyədə Sultanlıq İdarə üsulunun çökdürülməsi və ölkə ərazisində islami dəyərlərə söykənən Türk Cümhuriyyətinin yaranması olduqca maraqlı faktlarla şərh edilir.

«Teymurləng çağlarından bu yana Şərq, türk hökmranlığının dağılmasından sonra başlanan dövr kimi vəhşi anarxiya dövrünü yaşamamışdı.

...Bir gecənin içində padşah səltənətləri və respublikalar yaranıb yox olurdu. Hökumətlər qaçırdılar. Dünən başqalarını dar ağacına göndərən iqtidarlar qəflətən özləri

evlərinin qapısı ağzında kəndirdə yellənirdilər. Bu, artıq nə müharibə, nə də inqilab idi, hamının hamıya qarşı savaşıydı» (101, s. 146-147).

Bəli, bu həm də şərqin oyanışı idi. Çindən tutmuş Aralıq dənizinə qədər bütün Şərq dünyası Avropa sivilizasiyasına və müstəmləkəçi dövlətlərə qarşı üsyana qalxmışdı. Əsarətdə olan xalqlar, o cümlədən Türk dünyası öz milli məfkurəsini yaradır və milli hərəkat hədəfini müəyyənləşdirirdi. Bu mənada Azərbaycanda və Türkiyədə dövlət quruluşunun Cümhuriyyət elan olunması özünəməxsus hadisə idi.Məhəmməd Əsəd bəy öz romanında Türk Cümhuriyyətinin quruluşuna xüsusi bölmə həsr edir və burada, onun yaradıcısı məşhur general Mustafa Kamal Atatürk dünyasındakı mövqeyini müəyyənləşdirir. Böyük sərkərdənin xarakterik cizgilərini məharətlə əks etdirən ədib Atatürkün gəlişini Şərq intibahının başlanğıcı kimi qiymətləndirir.

Müəllif həmçinin, 1920-ci ildə dağıdılan türk cümhuriyyətləri, paytaxt şəhər Bakıda cərəyan edən hadisələri, Bakı neftinin dünya üzərindəki hakimiyyəti və törədilən iğtişaşları romanda əks etdirir. «Hətta Rusiyanın xristian sınır dövlətlərinə müstəqillillik gətirmiş rus inqilabı da çar səltənətinin saysız müsəlman tayfalarının heç birini azad edə bilmədi. Qısa mövcudluqdan sonra Azərbaycanın, Dağıstanın, Buxaranın islam dövlət qurumları yenidən ruslar tərəfindən zəbt edildilər» (101, s. 157).

Asiyaya patetik ruhlu kommunist müraciətindən sonra Sovetlər 1920-ci ilin sentyabrında Şərqin əzilən xalqlarının qurultayını Bakıda çağırdı. Məhəmməd Əsəd bəy özünün də iştirak etdiyi həmin tarixi günü belə təsvir edir: «Şərq xalqları Bakıya axışdı. Müəlliflərdən birinin tamaşaçı kimi iştirak etdiyi qurultay ərəb və farsların, əfqan və türklərin minnəfərlik tərkibi ilə qəribə bir mənzərə yaratdı. Zinovyevin patetik nitqi zamanı qəflətən bütün nü-

mayəndələr Ənvər Paşanın daxil olduğu qapıya axışdılar, düz çöküb onun əlini öpdülər» (101, s.224-225). İslamın təmsilçisi Ənvər Paşanın da dəvət olunduğu bir qurultayda Şərq xalqlarına göstərilən dini tollerantlıq imperialist siyasətinin yalnız bir pərdəsi idi.

Lakin bu tezis də özünü doğrultmadı. Leninin internasionalına qarşı çıxan müsəlmanları «azadlıq bərabərliyini» müdafiə edənlər Gəncədə cəzalandırdılar. Tarixi mənbələrdə də göstərildiyi kimi, Gəncə üsyanı baş verdi. Məhəmməd Əsəd bəy özünün də iştirak etdiyi Azərbaycan xalqının milli-azadlıq mübarizəsini belə təsvir edir:«Vətənpərvərlər məhv edildilər. Gəncədə on min üsyankar azərbaycanlı qırmızılar tərəfindən pulemyotla yerə sərildi. Yalnız qırx səkkiz adam, onların arasında da müəlliflərdən biri, bu qırğından salamat çıxdı» (101, s. 226).

Beləliklə də, Qafqaz və Türküstanın müsəlman respublikaları silah gücünə Sovet respublikaları kimi Rusiyaya birləşdiridilər.

Yazıçı digər əsərlərində olduğu kimi, Allahu Əkbər romanında da səhra süvarisinin, çöl adamının xarakterik obrazını yaradır: «Çılpaq təpənin üstündə bir süvari. Açıq rəngli baş örtüyü onun təpəsini, alnını və çənəsini qoruyur, yalnız sivri burnu, qaytan dodaqları və qaynar, şəffaf, qara gözləri görünür ki, onlar da hərisliklə qum təpəsindən bəriyə, yaşıl əkin sahəsinə, bəyaz divarlara və uzaqlara baş qaldıran qalalara – səhranın bitdiyi səmtə boylanır.

...Səhra çaları baş qaldırır. Bu bərəkətli dünya onunku olacaq, fəqət o heç vaxt həmin dünyanınkı olmayacaq! O, həmin aləmin bütün sərvətlərini dadacaq, lakin onun köylülərinin, baqqallarının batdığı günaha batmayacaq, öz səhrasının azadlığını heç vaxt əldən verməyəcək» (101, s.10-11).

Türkün sonsuzluğa, genişliyə can atması və vətənini daim azad görmək istəyi yaradılan obrazla üst-üstə düşür. Lakin burada başqa bir nüans da var. Tekstologiya sahəsinin uğurlu araşdırıcısı Qorqudşünas-alim Şamil Cəmşid müəllifin türkləri «gəlmə tərəkəmə» çöllü, səhra adamı adlandırmaqla onların etnik köklərini inkar etdiyini qeyd edir. Və göstərir ki, tarixdə də belə bir tendensiya olub. «XIX əsrdə Çar Rusiyası tərəfindən xaricdən gətirilib, dövlət tərəfindən Qarabağın yerli türk bəylərindən şirnikdirilərək qızıl pulla alınmış torpaqda özünü möhkəmləndirən ermənilər, yerli türkləri köçəri, çöllü türk adlandırıb «gəlmə» hesab etməyə başladılar» (39, s.13).

Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra ideoloqlarının ən böyük xəyalı – Turan dövlətinin qurulması istəyi Ənvər Paşanın timsalında bu romanın səhifələrində özünə yer tapır.

«...Ənvər Paşanın müharibə amacı dəyişdi. Bu sərkərdə birdən-birə özünü Turan xəyalının əlçatarlığında gördü. Rus müsəlmanlarının xilası bundan sonra mümkünləşmişdi, Böyük Turan səltənəti sabah, birisi gün gerçək ola bilərdi» (101;s. 144).

Lakin Ənvər Paşanın Turan dövləti ideyası üçillik mübarizənin sonunda uğursuzluqla nəticələnir. Və türklər üçün Turan imperiyası əbədi xəyala çevrilir.

Müəllifi Məhəmməd Əsəd bəy olduğu zənn edilən Qurban Səid imzalı romanlardan biri də «Altunsaç» *(Das Madchen vom Goldenen Horn, 1934)* əsəridir.

Əsərin qəhrəmanı türk qızı Asiyadehdir. Asiyadeh – Asiyanın təmsilçisi, daşıyıcısı, təəssübkeşi kimi yozulur. Romanın sonuna qədər Asiyadeh yad mədəniyyətlərə, yad düşüncələrə qarşı mübarizə aparır: «Asiyadeh mehmanxanaya qayıdıb göz yaşı tökür. Lakin onun ağlayışı özünün matahdan düşməsinə, indiyə qədərki kimi hər dəfə məclisin başına çəkilməsinə, diqqət mərkəzində qal-

masına deyil, Qoca Şərqədir, çünki «Qoca Şərq ölmüşdü» (142, s.130).

Roman ümumiyyətlə, Avropa-Asiya, Qərb-Şərq mədəniyyətlərinin toqquşması, qarşıdurması üzərində qurulmuşdur. Şərqin gözəllik anlayışına Qərb biganəliklə yanaşır. Hər hansı bir hadisəni dəyərləndirərkən, baxışlar savaşı daha qabarıq cizgilərlə verilir.

«Asiya axirət dünyasına tuşlanıb. Avropa isə bu dünyaya. Ona görə də Avropaya canlı təsvirlər, canlı varlıqlar lazımdır. Asiya son ifadəsini fiqural şeylərdən, əşyalardan istifadə etmədən axtarır. İnsansal və heyvansal cismanı formalardan yan keçmədən şeylərin platonik ideyasını yaratmalı olan birbaşa forma simvolu canlının və, deməli, ötərgi olanın təsvirindən imtina edir» (142, s. 282).

Bu, zahiri əlamətlərə üstünlük verən, Şərq rəssamlığını inkar edərək onu «qəmli, şəkilsiz dünya» - adlandıran Qərb düşüncə tərzinə daşlaşmış ruhun tərənnümçüsü olan Şərqdən gələn məntiqli bir cavabdır.

Eləcə də, Şərqli Con Rolandın dilindən Doğunu Batıdan ayıran digər cəhətlər araşdırılır: «Hər bir insan Ölümsüz Yaradanı içində gəzdirən ölümlü evladdır. Sənətin amacı Yaradanın görünməz ruhunu duyula və görünə bilənlə ifadə etməkdir. Əgər insan evladdan yapışıb Yaradanı tərənnüm etməkdən başqa heç nəyə müyəssər olmursa, onun sənəti səthi və mənasızdır. Əgər o, Yaradanı müqərrəd ideyalarla tərənnüm etməyə can atırsa, onda sənət əsəri yox, metafizika yaradır. İçimizdə yaşayan, sözlə ifadələnən ölməzlik magiyadır. Söz materiyaya mərhəm olmalıdır, Adəm Həvvaya mərhəm olduğu kimi» (142, s.158). Con Rolandın yürütdüyü bu mülahizələrin qarşılığında Paşanın cavabı özünəməxsusluğu ilə seçilir.

«Doğuya xas olan şeylərdə Yaradan üstündür, Batıya xas olanlarda isə yaradılan. Sənətçinin çabası hər bir olayda Yaradanı aramağa yönəlməlidir» (142, s.159).

Bütün varlığı və səmimiyyəti ilə Yaradanın dərgahına tapınan Şərqlinin əbədi inamı budur. Özünü kosmoqonik aləmlə vəhdətdə görən Şərqliyə nisbətən maddi dünyanın rasional nemətlərindən faydalanan qərblinin dayaqları qat-qat zəifdir. Bunu, Qurban Səid Paşa obrazının dilindən belə izah edir: «Avropa dilləri sözün içində yaşayan gücü get-gedə itirirlər. Texnikanın bir ünsürünə, xalis anlaşıq təmrininə, ünsiyyətin neytral, axtalanmış vasitəsinə çevrilirlər. Biz şərqlilər daha çox canlıyıq, hələ ki, sözün gücünü hiss edirik və Doğu ilə Batı arasındakı ayrıntı da elə budur» (142, s.159).

Həmçinin, vətən, vətənpərvərlik anlayışları ilə bağlı baxış bucaqları olduqca müxtəlif və paradoksaldır. Bir Avropalı üçün vətən-sərhədləri içərisində yaşadığı ərazi, ya da ən yaxşı halda, qoruyub saxlamağa çalışdığı dövlətçilik anlayışıdırsa, Şərqli üçün bu, ruhun yaddaşıyla bağlıdır: «Vətən! Nə qədərki o sənindədir, zahiri varlıqla daxili şüur arasında heç bir ziddiyyət yoxdur. Əvvəllər mən ayrı cür düşünürdüm.Xarici forma aləmində bir şaşqın idim. Vətən içində çimməyə vərdiş etdiyin çimoda, yaxud həmişə getdiyin qəhvəxanada deyil. Vətən vətən torpağından yaranmış mənəvi bir qurumdur. O həmişə burdadır, həmişə insanın içindədir.İnsan nə qədərki yaşayır, vətənin əsiridir, fərqi yoxdur, harda yaşayır- yaşasın» (142, s.283).

Əsər türk və Şərq tarixinə baxış nöqteyi-nəzərindən də dəyərli mənbədir.

«Bakıdakı rus gimnaziyasının üçüncü sinfində biz qırx şagird idik: otuz nəfər müsəlman, dörd nəfər erməni, iki polyak, üç sektant və bir nəfər rus. Ehtiramla, sakitcə

oturub professor Saninin şəhərimizin qeyri-adi coğrafiyası haqqında dediklərinə qulaq asırdıq.

«Avropa qitəsinin təbii sərhədləri şimalda Şimal Buzlu okeanından, qərbdə Atlantik okeanından və cənubda Aralıq dənizindən keçir. Avropanın şərq hüdudları rus imperiyasının içərisindən keçərək Ural boyunca aşağı enir, Xəzər dənizini ikiyə bölür və Zaqafqaziyadan keçib gedir. Bax, bu məsələdə elm hələ son sözünü deməmişdir. Məsələn bəzi alimlər Qafqaz dağlarının cənubundakı ərazini Avropaya daxil edirlər, başqaları isə belə fikirdədirlər ki, bu ərazi də, xüsusilə mədəni cəhətdən inkişaf etdiyi üçün Avropaya aid edilməlidir. Balalarım! Şəhərimizin qabaqcıl Avropaya, yaxud geridə qalmış Asiyaya aid olduğunu müəyyən etmək sizin mövqeyinizdən asılıdır».

Əcnəbi professorun «Qabaqcıl Avropaya, yoxsa geridə qalmış Asiyaya aid olmalı? – sualının cavabında bütün Asiyalı tələbələr, həmçinin qəhrəmanımız Əli xan Şirvanşir asiyalı olmaq istədiklərini bəyan edirlər. Səbəbini soruşduqda isə, Əli xan Asiyada özünü daha yaxşı hiss etdiyini söyləyir. Bəli, asiyalını Avropalıdan ayıran əsas məqam da elə budur. Bütün varlığında aid olduğu yerin ruhunu daşıması, mənsub olduğu millətin mənəvi dəyər ölçülərinə sadiqliyi və üzərində yaşadığı məkanın müdafiəsi üçün maddi və mənəvi varlığının fövqünə yüksələrək qəhrəmanlıq zirvəsinə qədər yol ala bilmə cəsarəti daha çox bir şərqliyə xas olan xüsusiyyətdir. Bəlkə də, vətən tarixindən bəhs edən bu əsərin dünya ictimaiyyətinin diqqətini cəlb edə bilməsi, onun atribusiyasından daha çox problemin belə bir qlobal miqyasda qoyulması ilə bağlıdır. Çünki, müəllif hadisələrin gedişatında və qəhrəmanın daxili inkişafındakı prosesləri qəhrəman və şəxsiyyət, qəhrəman və zaman, qəhrəman

və mühit, qəhrəman və milli xarakter intervalında daha dəqiq və dolğun əks etdirə bilmişdir.

İlk dəfə 1937-ci ildə Vyanada alman dilində nəşr olunan bu romanın müəllifinin kimliyi məsələsi təkcə Azərbaycanda deyil, bütün dünyada, o cümlədən qonşu ölkələrdə də böyük polemika mənbəyidir. Bir qisim tədqiqatçı bu əsərin tarixi romanlar ustası Yusif Vəzir Çəmənzəminliyə, digər qismi isə Məhəmməd Əsəd bəy və Qurban Səid imzası ilə əsərlər yazan, 1920-ci ildə Bakını tərk etmiş, millətcə yəhudi Leo Noissimbauma məxsus olduğunu iddia etməkdədir.

Bu istiqamətdə gedən araşdırmalarda gərgin və davamlı axtarışları ilə seçilən ədəbiyyatşünas-alim Pənah Xəlilovun «Əli və Nino problemləri» kitabı xüsusi maraq doğurur. Bu kitab müəllifin «Əli və Nino» romanı haqqında müxtəlif illərdə dərc olunmuş məqalələrinin məcmusudur. Burada, Pənah Xəlilov əsərin Yusif Vəzir qələminin məhsulu olması fikrini maraqlı faktlarla təsdiq etməyə çalışır.

Yusif Vəzir Çəmənzəminlinin mühacirət həyatı yaşaması, romanda verilən avtobioqrafik cizgilərlə onun şəxsi həyatı arasındakı bənzərliklər, romanın tarixi istiqamətdə yazılması və yazıçının digər əsərləri ilə dil və üslub baxımından eyniyyət təşkil etməsi tədqiqatçı-alimin istinad nöqtələrindəndir. Həmçinin o, «Əli və Nino»nu «Studentlər»lə başlayan trilogiyanı tamamlayan qızıl zəncirin son halqası hesab edir. Alimin romanın almanca, ingiliscə, azərbaycanca variantlarını müqayisə edərək aşkarladığı digər maraqlı fakt, əsərin əvvəlcə azərbaycanca yazılaraq almancaya tərcümə olunmasıdır. Onu da qeyd edək ki, Nizami Cəfərov, Tofiq Hacıyev, Şamil Cəmşidov, Vasim Məmmədəliyev və Anar kimi nüfuzlu alim və yazıçılarımız da Pənah Xəlilovun elmi araşdırmalarını dəstəkləyərək «Əli və Nino» romanının

məhz Yusif Vəzir Çəmənzəminliyə məxsus olduğunu təsdiqləyirlər.

Əsər atribusiya baxımından mövzumuzla bir o qədər bağlı olmasa da, ideya məzmun cəhətdən tədqiqat işimizlə birbaşa əlaqələnir. Xüsusən, romanda bariz şəkildə meydana çıxan cümhuriyyət həyatının təsviri, iki birbirinə zidd milli xarakterin qarşılaşdırılması, Asiya və Avropa mədəniyyətlərinin müqayisəsi və əsərin ümumi ruhuna hakim olan milli-azadlıq çağırışları kimi aktual problem nəzər nöqtəsinə çevrilmişdir.

«Əli və Nino» professor Pənah Xəlilovun araşdırmalarının nəticəsi olaraq Azərbaycan ədəbi ictimaiyyətinin əksər nüfuzlu nümayəndələri tərəfindən artıq öz həlini tapmış məsələ hesab olunsa da, bu istiqamətdəki düşüncələrin daha da aydınlanması və müəyyənlik qazanması üçün Məhəmməd Əsəd bəy və Qurban Səid imzalı digər 14 əsərin geniş tədqiqinə böyük ehtiyac var.

«Əli və Nino» romanında bir eşq macərası əsasında tariximizin 1918-20-ci illərinin ictimai-siyasi həyatı, mənəvi-ideoloji mühiti geniş təsvir olunur. Bizcə, Əli xan və Nino keçmişlə gələcəyin ümumiləşdirilmiş obrazlarıdır. Əli xan mistik şərq mühitində yetişdiyi üçün onun ruhu daim keçmişə can atır. O, daxilən mənəvi bir şərqlinin xüsusiyyətlərinə malikdir. Əli Avropa təhsili almasına baxmayaraq, etnik yaddaşını qoruyub hifz etməyi bacarır. Nino isə əksinə, yeniləşən, qərbləşən, qloballaşan dünyanın insanıdır. Əli xanın hissiyyatı tamamilə doğulub-böyüdüyü yerlərlə bağlıdır və o, öz sərhədləri içərisində yaşamaq istəyir. Ancaq Ninonun ruhu yaşadığı məkanın sərhədlərini aşmaq, Avropanın gəzmək, tərəqqi və ittihadı daha dərindən dadmış insanların sırasında olmağa can atır. Biz hadisələrin sonrakı inkişafında da, bir-birinə zidd bu iki dünyanın kəsişməsinin şahidi

olacağıq. Hələliksə, bir qədər Əli xan obrazı barədə. Əli xan adlı-sanlı Bakı xanlarından İbrahim xanın nəticəsidir.

O, çox sifətlilikdən uzaq sadəliyi, qılıncdan kəskin əqidəsilə ətrafa uymadan qarşıdakı hədəfə doğru gedən bir səhra insanıdır. Səhra insanı təəssübkeşdir, son damla qanına qədər sevdikləri və inandıqları uğrunda çarpışır. O, bütün varlığı ilə öz etnik sərhədlərinə bağlıdır. O qılınc zərbəsi kimi sadə şeyləri: səhranı, küləyi, qum və daşları sevir: «Nəyimə lazımdır mənim yad şəhərlər, özgə damlar və özgə mənzərələr. Mən dür dənizi və dür səhranı, onların arasında yerləşən bu qədim şəhəri sevirdim» (141, s.8).

Meşə adamlığı stixiyası isə əksinə, ona olduqca yaddır. Orda hər şey qarışıq, qeyri-realdır. Meşə mürəkkəbdir, suallarla doludur. Bu dünya Əli xanı qorxudur. Çünki, burda baxış sahəsi dardır, keçilməz və qaranlıqdır. Meşə stixiyası bir az da imperialist dövlətlərin xarakterik cəhətlərini özündə əks etdirir. Səhra isə cümhuriyyətin yüksək poetikasını andırır.

Şərq fəlsəfi təfəkküründə səhra ilə bağlı çox məşhur bir totem var. Bu da səhraların vazkeçilməz sakini Boz Qurdla bağlıdır. Türkün əcdadı sayılan Boz qurd başlanğıcı, geniş səhra, düz dəniz, qızmar qum və isti külək Əli xanın xarakterik cizgilərini tamamlayan atributlardır. Onun Boz Qurdla bağlı maraqlı bir müqayisəsi var: «İtlər səhra qurdlarının cinsindən, nəslindəndirlər. Rusiya təbəəsi olan bizlərlə Ənvər paşanın Qafqaza yürütdüyü qurdları ilə qan şəriki, ortağı olduğumuz kimi...» (141, s.79). Onun bu müqayisəsində çox incə bir məqam var. Həqiqətən də, istilaçı dövlətlərin müstəmləkəsinə çevrilən millətlər bir çox hallarda öz əsil başlanğıclarından uzaqlaşır və özlərinə yadlaşırlar. Çar Rusiyasının təbəəsinə çevrilən xalqlarımızın əsrin əvvəllərində hələ də əsarət buxovlarından sıyrılıb öz milli

varlığı uğrunda mübarizəyə qalxmayaraq cılızlaşdığı kimi... Belə bir məqamda xalqımızı öz Boz qurd başlanğıcına qaytara biləcək xalq qəhrəmanlarına ehtiyacı vardı. Və Əli xan kimilər bu yolun ilk mücahirləri idi. Daha sonralar bu hərəkat genişlənəcək, güclü bir dalğaya çevrilib bütün ölkəni çuğlayacaq, böyük siyasi ideoloqlar yetirəcək, dövlət sərhədlərini müəyyənləşdirəcək və Azərbaycan Cümhuriyyəti qurulacaqdı. Hələliksə, qəhrəmanımızın digər həmyaşıdlarından fərqli olaraq I Dünya müharibəsində Çar ordusu tərkibində vuruşmaqdan imtina edərək bu yoldakı ilk addımını atır. Onun bu mövqeyi yaşadığı mühitdə, hətta ailəsi, yaxınları tərəfindən birmənalı qarşılanmır. Onu məzəmmətləyənlər, qorxaq adlandıranlar da tapılır. Lakin Əli xan öz yolunun savaşçısı idi və belə məqamlarda veriləcək çox gözəl bir cavabı vardı: «...Mən öz qılıncımı özüm istədiyim vaxt sıyıracağam. Mən bilirəm ki, heç vaxt gec olmayacaq. Sülh günləri qurtarıb, özü də uzun zaman üçün qurtarıb. Bizim vətənimizin mənim qılıncıma hələ ehtiyacı olacaq» (141, s. 61).

Onun mühitində müharibə meydanı cəng edib şücaət göstərilən bir məkan kimi qavranılırdı. Onlar üçün müharibənin kimə qarşı və nə üçün olması o qədər də mühüm deyildi. Şərq qaniçərliyindən gələn bir hərisliklə döyüş meydanında igidlik və cəsarət örnəyi göstərməyə tələsən yaşıdları müdrik düşüncəsi və uzaq görənliyi ilə onlardan fərqlənən Əli xan kimi müharibənin ideoloji nüansını sezib dərk edə bilməzdilər. O deyir: «Mən də müharibəyə getmək istəyirəm: bütün varlığım qanlı döyüşün azad havasının həsrətini çəkir, nəhəng döyüş meydanının gecə ucalan tüstüsünü görmək arzusu ilə dolub. Müharibə – nə gözəl sözdür. Onda kişilik və qüdrət hiss olunur. Amma, hər halda, mən burada qalmalıyam. Özümü düşmənin vətənimizə, şəhərimizə,

torpağımıza ayaq basdığı günə hazırlaşdırmalıyam» (141, s. 58).

Bəli! Asiyanın xülyaçı ruhunu mühafizə etmək, əbədi karvanın zınqırovunun səsində yad səslərin eşidilməsinə imkan verməmək, aşiq olduğu qara gözlü vətənin yanan çırağını qorumaq üçün o, vətənin sərhədləri içərisində qalmalı idi. O, dərindən-dərinə hiss edirdi ki, hansısa gözə görünməz qüvvə onun vətən karvanının sarbanını yad istiqamətlərə doğru döndərmək istəyir. Bu ancaq Qərbin istiqaməti ola bilərdi. Əli xan isə Şərq ruhunun təəssübkeş mühafizəçisi kimi əks istiqamətə qətiyyən getmək istəmirdi. Bu, həm də ruhu əzab çəkən ana torpağın gözə görünməz yadellilərdən qorunmaq üçün öz doğma övladına olan çağırışı, nidası idi.

Əli xan baş verənlərin daha böyük bir təhlükənin xəbərçisi olduğunu intuitiv olaraq duyurdu. Çox qısa bir müddətdən sonra müharibənin xarakteri dəyişərək müsəlmanlar və xristianlar arasındakı müharibəyə çevrilir. Beləliklə də, çar ordusunda vuruşan bütün azərbaycanlılar bu dəfə silahlarını çara qarşı çevirirlər. Lakin bu dəyişiklik baş verəcək böyük inqilabın yalnız ilk mərhələsi idi.

Çarın taxtdan devrilməsi ilə ölkədə hərc-mərclik başlanır. İdarəsi tamamilə itirilmiş şəhərdə xalq hərəkatının nümayəndələri ölkə ərazisinə daxil olmağa çalışan ermənilər və ruslara müqavimət göstərirlər. Lakin qanlı vuruşmadan ruslar qalib çıxır. Bu qələbədən sonra Asiyanın sərhədləri birdəfəlik dəyişirlir.

Döyüş meydanında böyük şücaət göstərən Əli xan məğlubiyyətin dərin iztirabı içərisində ailəsi ilə birlikdə İrana mühacirət edir.

İran həyatı Əli xan üçün maraqlı idi. Şərq koloritini və Asiya duyğusunu özündə qoruyub saxlamış bu ölkədə sanki, onun ruhu dincəlirdi. Lakin o, görürdü ki, Nino

özünü bu məkanda qəfəsdə hiss edir. Odur ki, nə olursa-olsun o, vətənə doğru can atırdı. Nəhayət, Əli xan İrandan vətənə qayıdır.

Qafqaz islam ordusunun gəlişi ilə şəhərin abi-havası da dəyişilir. Çox keçmir ki, türk qoşunları ingilis alayları tərəfindən məğlub edilir və Bakının küçələrində Turan imperiyası haqqında mahnı son dəfə səslənir.

Tomsonun başçılığı ilə şəhəri zəbt edən ingilis alayı şəhəri tərk etdikdən sonra rusların Bakıya girməsi xəbəri gəlir. Dərhal döyüş meydanına yollanan Əli xan Gəncə körpüsündə, pulemyot arxasında həlak olur. Azadlıq şərqisiylə süslənən həsrətli ruh beləcə, özünü təslim edir.

b) Cümhuriyyət dövrü memuar ədəbiyyatında

Bu və ya digər tarixi hadisələrin mahiyyətinin, eləcə də tarixi şəxsiyyətin xarakterinin açılmasında memuarların müstəsna rolu vardır. Belə ki, ədəbiyyat xadimlərinin xatirələri ədəbiyyat yolunun inkişafını göstərir. Belə əsərlərdə açıq deyilməmiş hiss və düşüncə öz əksini tapır.Bütün memuarlar ictimai həyatın canlı, hərtərəfli mənzərəsini göstərir, cəmiyyətin zehni və mənəvi rolunu işıqlandırır və təsvir olunan hadisələrə ictimai rəyin münasibətini aydınlaşdırır. Bir sözlə, memuarlar ictimai mübarizənin aydın sənədidir. Onların əksəriyyəti isə mühüm hadisələrin açılmasında dəyərli mənbədir. Bu baxımdan türk tədqiqatçılarından Əhməd Qabaqlının memuarlarla bağlı mülahizələri maraq doğurur. "Xatirə, onu yazanın məsləyinə, xasiyyətinə və təhsilinə görə siyasi, ədəbi, əskəri və sosial bir mAhiyyət daşıya bilər. Bu çeşidlərin hamısı da tarixin, sənətin və tənqidin başqa bir tərəfinə işıq tutur. Hər

kəsin bildiyi hadisələrə büsbütün dəyişik, şəxsi bir bucaqdan baxılmış olması xatirələrin sənəd dəyərini artırar" (176, s.517). Məhz bu baxımdan Azərbaycan ədəbi nümunələri içərisində əhatə etdiyi məzmun və mündəricə etibarilə dəyərli mənbə sayıla biləcək bir sıra memuar ədəbiyyatı nümunələri vardır.

Cümhuriyyət həyatının bədii təsvirinə mühacirətdə yaranan memuar nümunələrində də təsadüf olunmaqdadır. Belə ki, Məhəmməd Əmin Rəsulzadənin «Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri», Əbdülvahab Yurdsevərin «Azərbaycan istiqlal mücadiləsi xatirələri», Məmməd Altunbayın «Azadlığa uçan türk», Nağı Şeyxzamanlının «Azərbaycan istiqlal mücadiləsi xatirələri» və digər memuar nümunələrində 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai-siyasi, ədəbi-kulturoloji həyatı bədii-publisistik şəkildə təcəssümünü tapmışdır. Həmçinin Hüseyn Baykaranın «Azərbaycan istiqlal mücadiləsi tarixi» əsərinin bəzi məqamları memuar səpkisində qələmə alınmışdır. Bütün bunlar Azərbaycan mühacirlərinin Cümhuriyyət dövrünə mühüm dəyər verdiklərini göstərməkdədir.

Azərbaycan türklərinin azadlıq və müstəqillik timsalı olduğunu hələ uşaq ikən anlayan, vətən uğrunda gedən qanlı vuruşların canlı şahidi olan, bu yolda yaxınlarını itirən və bunun üçün də kommunist bir cəmiyyətdə yaşasa da, onun qanunlarına boyun əymədən «azad insan», «azad vətən» yolunu seçən milli istiqlal mücahidlərindən biri də Məmməd Altunbaydır.

Yorulmaz mübariz 1918-1920-ci illərdə vətənimizdə baş qaldıran milli-istiqlal mücadiləsini, qanlı hadisələri və daha sonra vətəndən uzaqlarda onun hüriyyəti naminə verdiyi savaşı «Azadlığa uçan türk » adlı memuarında bütün təfərrüatı ilə əks etdirmişdir. «Türk aləminin ən böyük düşməni kommunizmdir. Harda baş

qaldırsa əzilməlidir» (14, s.10)-deyə Atatürkün sözləri ilə bütün türk dünyasına səslənən müəllif özünü tarixdə azadlığa uçan ilk türk, hətta ilk insan adlandırır.«Tarixdə azadlığa qanadlanan ilk türkəm desəm,yanılmaram. Hətta dünyada ilk dəfə baş vermiş bu tarixi hadisəni türklüyümüzün yüksək qüruruna əlavə etmiş olsam, o zaman deyə bilərəm ki, mən tarixdə kommunist Rusiyasından azadlığa uçan ilk türk yox, həm də ilk insanam» (14, s.4). Atasının, əmilərinin, dayılarının, daha sonralar həyat yoldaşının, iki yaşlı qızının gözləri önündə komunistlər tərəfindən faciəli şəkildə öldürülməsi, qızının itgin düşməsi Məmməd bəyin kommunist rejiminə nifrətini daha da artıran və ömrünün sonuna qədər varlığında qövr edən böyük bir yara olmuşdur. Bunun üçün də o, yeri gəldikcə mövcud dövrün qanlı hadisələrini Türkiyə mətbuatında işıqlandırmış, eləcə də Azərbaycan tarixi həqiqətlərinin yer aldığı müxtəlif film senarilərini də türk izləyicisinin nəzərinə çatdırmışdır. Müəllif haqqında bəhs etdiyimiz xatirə-romanı ömrünün son günlərində yazıb bitirmişdir.Müəllif ömrünün son günlərində o məşum hadisələri bir daha anır, bir daha dərd içərisində qovrulur. Xüsusilə, 80 yaşlı qardaşı Cəmilin ehtiyat etdiyi üçün hələ də onunla görüşməməsi onun həsrətini və acısını artırır. Həmçinin «Yaşasın azadlıq!», «Yaşasın Azərbaycan!»-deyərək düşmən güllələrinə can verən Gəncə qaçaqçılıq hərəkatının başçısı olan atası ilə bağlı məqamlar həzinliyi ilə seçilir. «Ata, Məcnun kimi vurğunu olduğun güllər ölkəsi olan yurdunun azad olması üçün sən həyatının sonuna qədər qeyrətlə mübarizə apardın və bunu bacardın da.İgid qəhrəmanlarının qanı bahasına yurdumuzun göylərinə ucalan üç rəngli bayrağımıza «azadlıq uğrunda canından keçən igidlərin əsəridir-dedin. Fəqət 1918- ci mayın 28- də qırx min şəhidin qanı bahasına qazanılan azadlıq və istiqlaliyyəti 1920-ci il aprelin 27- də yenidən

10 min şəhid verərək itirməyimiz nə qədər də ağırdır» (14, s.12). Bu, hələ valideynlərinin himayəsində ikən azadlığın hikmətini anlayan müəllifin yalnız atasına deyil, qırmızı istilaçıların zülmündən təngə gələn türk dünyasının qəhrəman keçmişinə, ulu əcdadına səslənişidir.

Məmməd bəy əsərdə milli məfkurənin təbliğatı və inkişaf etdirilməsi yönündə nəcib Azərbaycan qadının xidmətlərini xüsusi vurğulayır və anasının timsalında bunu bir obraz kimi ümumiləşdirir. «28 may 1918-ci il tarixində, vəfalı və fədakar Anadolu igidləri ilə qardaş Azərbaycan igidlərinin əl- ələ, çiyin-çiyinə, könül-könülə verərək xain və alçaq düşmənin qarşısında glümə meydan oxuyan qəhrəman şəhidlərimizin qanı ilə yüksələn Azərbaycan Respublikasının milli istiqlal bayrağı türk və islam dünyasının ilk abidəsidir» (14, s.19) –sözlərini övladlarına əzbərlədən yazıçının anası Bəyim xanım savadsız olmasına baxmayaraq azadlığın mahiyyətini, dövrün özünəməxsus hadisələrini bilən və bu bilgiləri gələcək nəsillərin hafizəsinə dərindən həkk etmənin vacibliyini anlayan açıq fikirli Azərbaycan qadını idi.

Əsərdə Müəllifin dayısı Həsənin verdiyi Milli Məclisin bütün deputatlarının güllələndiyi, yalnız üçünün qaçıb qurtulduğuna dair məlumat dəyərli mənbələrdəndir.

Tariximizdə qanlı hərflərlə yazılan Gəncə hadisələrinin mahiyyətini müəllif Gəncə şəhərinin igid müdafiəçilərindən olan dayısı Həsənin dilindən belə xarakterizə edir: «...Bu döyüşümüz xalqımızın ölüm- dirim savaşıdır. Bu savaş şanlı türk oğullarının və gələcək nəsillərimizin azadlıq döyüşüdür. Bir sözlə, bu savaş əsrlər boyu vətən bildiyimiz Azərbaycanın qurtuluş savaşıdır. Bu döyüşdə əgər qırmızılar müvəffəqiyyət qazanarsa, unutmayın ki, Leninin kölələr zəncirinə bir halqa da əlavə edilmiş olacaqdır. Çünki Leninin ölkəmizə

gətirmək istədiyi kölələk və əsarət qaydalarından başqa bir şey deyil» (14, s.72-73).

Müəllifin babasının «Bu vətən keçmişi və gələcəyi ilə sizindir, onu rusların əlindən qurtarın»- sözləri özünəməxsus səslənir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı, xalqımızın ölümsüz lideri M.Ə.Rəsulzadənin «Stalinlə ixtilal xatirələri» əsəri tariximizin ictimai- siyasi hadisələrlə zəngin mühüm bir mərhələsinin işıqlandırılması baxımından dəyərli mənbə rolunu oynayır.

«Fantastik adamın fantastik karyerasına»na aid özəlliklər gözdən keçirilincə XII yüzil Yaxın Şərq ədəbiyyatının böyük şairi Gəncəli Nizaminin «Həft peykər» mənzuməsində təsvir olunan qızıl köynəkli bir demaqoq tipi göz önündə canlanır» (138, s.80) – dünyanın böyük bir hissəsini öz hökmranlğı altına alan qorxunc müstəbid Stalinin M.Ə.Rəsulzadə obyektivindən görünən obrazı budur. Öz mübarizə tarixi boyunca müstəbid terroristlə dəfələrlə qarşılaşan Rəsulzadə yazmış olduğu memuarda onun şəxsiyyətini müxtəlif rakurslardan əks etdirə bilmişdir. Müəllif Stalin şəxsiyyətini səciyyələndirərkən: «Stalinizmin meydana gəlməsinin xarakterik cizgilərini əslinə yaxın bir şəkildə təsvir edə bilmək üçün hər kəsin özünə görə gördüyü və anladığı «Stalin»-lərin qarşılaşdırılmasında, şübhəsiz, böyük bir fayda vardır» (138, s.10). Stalin tarixə qovuşduqdan sonra bu xatirələri nəşr etdirən Əmin bəy özünün qeyd etdiyinə görə, obyektiv olaraq nəql olunan bəzi hadisələrin qərəzli izaha yol açа biləcəyini düşündüyü üçün Stalin həyatda ikən edilən bəzi təkliflərə rəğmən onları dərc etdirmək istəməmişdir.

Əsərdə müəllif yaddaşının müxtəlif anımlarını çözələyir, gah Stalinlə ilk qarşılaşmasına qayıdır, gah da mühacirətinin son dayanacağı olan İstambuldan Stalinə təşəkkür və vida mahiyyətində yazdığı və öz siyasi

görüşlərini meydan oxurcasına ortaya qoyan son məktubda qərarlaşır.

Xüsusilə, Məmməd Əmin bəyin «Osobı otdel»də saxlanarkən Stalinlə qarşılaşması və onların arasında keçən mükalimə olduqca maraqlıdır. Rəsulzadənin ona «Stalin» yox, «Koba» deyə xitab edərək əvvəlki inqilabçı zamanlarına işarə etməsi onun hazırki rəhbərliyini qəbul etmədiyinə bir işarə idi ki, bu da mövcud dövrdə böyük cəsarət tələb edirdi. Söhbət əsnasında onun Kobaya «siz buraya gəlməməli idiniz» (138, s.27) - deməsi də bu qorxmazlığın başqa bir nümunəsidir.

Rəsulzadə Stalinin dünya inqilabı ilə bağlı düşüncələrinə xüsusi diqqət çəkir: «Dünya inqilabını qısır salan və dolayısı ilə müstəmləkə və yarımmüstəmləkə halında olan bütün millətlərin azadlıq və qurtuluşlarına əngəl olan bir qüvvə varsa, o da İngiltərə imperializm qüvvəsidir» (138, s.37) – deyən Stalin Rusiyanın sərvətləri və Almaniyanın texniki imkanları birləşdirilərsə, dünya inqilabının baş verməsinin qaçınılmaz olduğunu iddia edirdi.

Stalin Rəsulzadəyə: «-Azərbaycanda bir az hökumət etdiniz. Fəqət çox dərin bir iziniz qalmışdır.Bu izlə hələ də mübarizədəyik. Təmsil etdiyiniz ideyanın təsirlərini tamamilə aradan qaldırmaq üçün daha uzun zaman və daha çox işləmək lazımdır. Xüsusilə ziyalılar millətçilik ruhu ilə aşılanmışlar» (138, s.64) -deyir. Bu, az qala bütün dünyanı öz hökmünə diz çökdürən müstəbidin milli ruh qarşısındakı acizanə etirafıdır.

Rəsulzadə Şərqşünaslar cəmiyyətinin sədri və üzvü olmaqdan həmin cəmiyyətin üzvlərinin yarıdan çoxunun kommunistlər olduğunu bildikdən sonra imtina edir.

Onun «Şərq millətləri kommunist universiteti»nin üç tələbəsinə verdiyi cavab da çox maraqlıdır.Onu da qeyd edək ki, «bu universitet Şərq məmləkətlərində kommunizmi yaymaq üçün propaqandistlər yetişdirmək

məqsədilə yaradılmışdı» (138, s.57). Rəsulzadə onların kafedralarının professoru olmağı rədd edir. Səbəb müsavatçı və kommunist fikir ayrılığı idi.

Dönməz rəhbərin Türkiyəyə gəldikdən sonra Stalinə göndərdiyi məktub müxtəlif yönlərdən xüsusi əhəmiyyət kəsb edir. Bu məktub bir tərəfdən təşəkkür mahiyyəti daşıyırsa da, digər tərəfdən Stalin avtoritetinə qarşı bir meydan oxuma idi. Məktubda: «Moskvada olduğum iki il ərzində mən Şərq milllətlərinin nicatının yalnız özlərində, özünü bir millət kimi tanımalarından ibarət olduğuna qəti surətdə inandım. Bunun üçün sisteminizdə millətin özünə bəslədiyi bu inamın kökündən yox edildiyini və milli anlamının milli inqilab anlamına təbdil edildiyinə soyuqqanlı baxa bilmirdim.

Sizin istədiyiniz bu mübadilə baş tuta bilməz. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər»-deyən M.Ə.Rəsulzadə hər şeyə rəğmən öz siyasi əqidəsinə sadiq qaldığını nümayiş etdirirdi.

Həmçinin, Məhəmməd Əmin bəy əsərdə Azərbaycanı-Azərbaycana birləşdirmək və millətçiliklə bağlı düşüncələrə xüsusi yer ayırmışdır.

Uzun müddətli ayrılıqdan sonra vətən tarixinə verdiyi dəyərli töhfəsilə yenidən doğma yurda qovuşan azadlıq həsrətli mühacirlərdən biri – Kərim Odər (Kərim İbadulla oğlu Zeynalzadə) istiqlal məfkurəsində tutduğu mövqeyi və ictimai-siyasi fəaliyyəti ilə milli mübarizə tarixinə öz adını həkk etdirən şəxsiyyətlərdəndir. 28 aprel çevrilişindən sonra öz tarixinin ən müdhiş günlərini yaşayan vətən torpağında milli hökumət nümayəndələrinə tuşlanan siyasi təqiblərin və terror hadisələrinin geniş vüsət aldığını görən Kərim Odər Gürcüstana mühacirət etmiş, burada da Beriyanın rəhbərlik etdiyi çekanın təqiblərinə məruz qaldığı üçün Türkiyəyə getmiş və ömrünün sonuna qədər orada yaşamışdır. Burada yaşadığı

müddətdə Azərbaycanın istiqlalı üçün çalışan yorulmaz mücahid ömrünün sonlarında həm sinəsinə dağlar çəkilən doğma Azərbaycana, həm də qəlbində gəzdirdiyi azadlıq eşqinə vəfa borcu olaraq «Azərbaycan» kitabını yazıb tamamlamışdır. Türkiyənin «Boğaziçi yayınları»nda nəşr olunan bu kitabın səhifələrində «Etnoqrafiya tarixi», «Azəri türkcəsi», «Azəri ədəbiyyatı», «İctimai-siyasi cərəyanlar» kimi mövzular araşdırılmışdır. Dəyərli tarixi sənədlərin yer aldığı «Azərbaycan» əsərinin milli istiqlal tarixinin ikinci mərhələsini yaşadığımız günlərdə yenidən vətənə qovuşması özünəməxsus məna kəsb edir. O yazırdı: «Soykökü ilə, əsli-nəsli ilə, dini, dili, xasiyyəti, süfrəsindəki duyğulara qədər hər şeyi ilə türk olan Azərbaycan bu gün hürriyyətini qeyb etmiş bir həyatın içindədir. Bu, əlbəttə, bir üzgünlük səbəbidir, amma ümidsizliyə götürməməlidir. Çünki qeyb olan hürriyyətə müqabil qüvvəti, mühafizə edilən bir milli mənlik vardır».

Azərbaycanın yenidən öz azadlığına qovuşacağına dərindən inanan milli savaşçının böyük uzaqgörənliklə söylədiyi bu sözlər bu gün öz təsdiqini tapmaqdadır.

IV FƏSİL

MÜSTƏQİLLİK DÖVRÜ BƏDİİ NƏSRİNDƏ CÜMHURİYYƏT HƏYATININ TƏSVİRİ

Cümhuriyyət dövrünün bədii nəsrdə təcəssümü Azərbaycanın yenidən istiqlaliyyətinə qovuşduğu tarixdən etibarən daha intensiv xarakter daşımağa başlamışdır. 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycanın müstəqillik aktını imzalaması ilə ölkənin ictimai-siyasi həyatında yaranan köklü dəyişikliklər ədəbi prosesə də təsirsiz qalmamışdır. Yaranan elmi və publisistik yazılarda, bədii örnəklərdə Cümhuriyyət dövrünün ayrı-ayrı problemlərinə bu və ya digər şəkildə toxunulmuş, onun öyrənilməmiş məqamlarının üzə çıxarılmasına çalışılmışdır.

Bu illərdə yaranan bir sıra nəsr nümunələrində, o cümlədən Çingiz Hüseynovun «Doktor N», Əlisa Nicatın «Mələklər və iblislər» romanlarında, Teyyub Qurbanın «Dönməzlik» povestində, Nahid Hacızadənin hekayələrində və digər bədii örnəklərdə bəhs olunan dövr tarixi bədii obyekt olaraq seçilmişdir.

a) Cümhuriyyət dövrünün tarixi – siyasi panoramı çağdaş bədii nəsrdə

Səksəninci illərin ikinci yarısından etibarən kəskinləşən icitimai-siyasi münasibətlər, güclənən milli-azadlıq hərəkatları milli-tarixi yaddaşa qayıdışı şərtləndirirdi. Yenidən öz əzəli Cümhuriyyətinə qovuşmuş xalq milli tarixinin qaranlıq səhifələrini vərəqləyir, Cümhuriyyətlə bağlı həqiqətlərə qovuşmaq hissilə alovlanırdı. Belə bir şəraitdə yaranan tarixi əsərlərdən biri də İsmayıl Şıxlının

«Ölən dünyam» romanıdır. Roman olduqca çətin şəraitdə qələmə alınsa da, ədib bitkin bir əsər ərsəyə gətirə bilmişdir.

İsmayıl Şıxlı yaradıcılığının davamlı tədqiqatçılarından Yaqub İsmayılov «Ölən dünyam» romanını belə səciyyələndirir: «Ölən dünyam» İ.Şıxlı sənətinin, ictimai-bədii təfəkkürünün son inkişaf mərhələsində, təcrübəsinin yetkinlik və yaşının müdriklik, lakin ömrünün qürub çağında yarandı.

...«Ölən dünyam» lakonik, yığcam, həcmcə kiçik, lakin məna-məzmunca dərin, ictimai-bədii tutumca zəngin bir əsərdir; yalançı pafosdan, yersiz şişirtmə, süni momentallıq, uzun-uzadı təhkiyəçilik və təsvirçilikdən tamam uzaqdır» (84, s.199).

XX əsrdə xalqımızın həyatında baş vermiş dönüş mərhələlərinin, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün, 20-30-cu illərin bir çox həqiqətləri məhz 90-cı illər yazıçısının gözü ilə canlandırıldı. Bu, hər cür stereotipdən uzaq azad bir vətəndaşın öz milli keçmişinə səyahəti idi. Bu səfər nə qədər əzablı olsa da, həqiqətlər qapısını xalqımızın üzünə açdığı üçün şərəfli idi. Mündəricə etibarilə zəngin arxiv materialları və tarixi sənədlərə istinadən yazılan əsər bədii inandırıcılıq hissi aşılayır. Xüsusilə dövrün ruhu, səciyyəsi, psixologiyası orijinal obrazlar, maraqlı hadisə və mətləblər vasitəsilə ifadə edilərkən həqiqətə sadiqlik başlıca meyara çevrilir.

Ömər Koxa, Güllü xanım kimi qətiyyətli tayfa başçılarının timsalında alicənab, ağıllı, ürəyigeniş, sülhsevər, ağsaqqal və ağbirçəklərimizin tipik milli nümunəsini yaratmışdır. Həmçinin Fətullayev, keçəl Xondulu kimi «Troyka»nın qərarı ilə xalqımızın say-seçmə oğullarını güdaza verən dönük övladlarının xarakterik obrazı yaradılmışdır.

Müdrik və uzaqgörən Ömər Koxa ölümünə yaxın gələcəyə dair proqnoz verir: «Onsuz da dünya qana çalxanır. Belə getsə, deyəsən, adamları bir-birinin üstünə qaldırıb üz-göz edəcəklər. Araya qırğın salacaqlar. Divan-dərəyə lotu-potular yığılıb, bala ehtiyatlı olun» (152; s.57)

Demək olar ki, 20-ci illərin qanlı-qadalı hadisələri bundan sonra başlayır. Romandakı təsvir-təqdimlərdə ictimai-siyasi boyalar və motivlər tədriclə artıb güclənir. XI Ordunun qanlı istilası, Gəncə üsyanları, 30-cu illərin repressiyası müəllif qəhrəmanlarını taleyindən yan keçmir. Onlar birbaşa bu hadisələrin iştirakçısına çevrilirlər. Qəhrəmanlar, nadanlar və məhkumlar məhz onların içərisindədir. Bu mənada milli-istiqlal savaşçısı Çapıq Əmrahla milli satqın Fətullayevin qarşılaşması olduqca maraqlıdır. Əmrah rus əsgərlərinin gəlişinin səbəbini yaxşı anlayırdı: «Yox. Siz kişilərin kişiliyini əlindən almağa gəlmisiniz. Onları qorxutmaq, gözlərinin odunu almaq istəyirsiniz. Arvad-uşaq yanında kişiləri hörmətdən salmaq, onların qurununu sındırmaq istəyirsiniz. Heç bilirsiniz qürur nədir? Bilməzsiniz. Çünki siz qururlu adamlar deyilsiniz» (152, s.113)

Mərd, cəsur, təpərli müsavat zabitinin əqidəsini, mənəviyyat və baxışını ifadə edən bu dəyərli fikirlər görkəmli yazıçı, ictimai-siyasi xadim İ.Şıxlının da cəmiyyət və insan probleminə aid mülahizələri ilə səsləşən bir məqam kimi nəzəri cəlb edir.

Cümhuriyyət həyatının ictimai-siyasi mənzərəsinin əks olunduğu və həmin dövrün ədəbi və tarixi şəxsiyyətlərinin bədii obrazını yaradıldığı bədii nəsr nümunələri içərisində Əlisa Nicatın «Mələklər və iblislər» romanı mühüm yerlərdən birini tutur. Yaradıcılığının əvvəlki illərində «Qızılbaşlar» və «Gəncəli müdrik» kimi romanlar yaradan yazıçının uzun bir fasilədən sonra

yenidən roman janrına müraciət etməsi təsadüfi hesab olunmamalıdır. Bu mənada romanın başlanğıcında yazıçının vermiş olduğu bir qeyd diqqəti çəkməkdədir: «Bu roman uzun illər yaşanıb qısa müddətə yazılmışdır» (126, s. 6). Buradan göründüyü kimi, «Mələklər və iblislər» romanında qaldırılan problemlər yazıçını uzun illər boyu düşündürmüş, narahat etmiş, ancaq son illərə qədər o, bu mövzunu işləməmişdir. Lakin bununla belə Əlisa Nicat romanda qaldırmış olduğu problemləri müxtəlif mətbuat orqanlarında dərc etdirdiyi publisistik yazılarında qaldırmışdır.

Əlisa Nicatın «Mələklər və iblislər» romanının uzun illər meydana çıxmamasının digər bir səbəbi isə təsvir olunan dövrün öyrənilməməsi, yanlış və birtərəfli şəkildə təqdim olunmasıdır.

Əlisa Nicatın «Mələklər və iblislər» romanında 1918-1920-ci illərin tarixi-siyasi hadisələri təsvir olunmuşdur. Lakin müəllif təsvir etdiyi hadisələri yalnız bu dövrlə məhdudlaşdırmamışdır; belə ki, romanda Cümhuriyyətin qurulmasından əvvəl və onun süqutundan sonrakı dövrün hadisələrinə də müəyyən qədər diqqət yetirmişdir.

Müəllif əsərin janrını «tarixi-siyasi roman» kimi müəyyənləşdirmişdir. Yazıçının qənaətincə, roman müəllifin «...bütün qəlb ağrılarının ifadəsi olmaqla, həm də yeni doğulan və doğulacaq gənclərin içindən hər iki Azərbaycanın bir millət kimi gələcək oyanışına və adının ləyaqətlə çəkilməsinə səbəb olacaq intibahına ölməyən ümidlərini əks etdirir» (126; s. 6).

Əlisa Nicatın «Mələklər və iblislər» romanına «Nəsrimizdə yeni hadisə» adlı ön söz yazmış filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğlu əsər haqqında mülahizələrini belə ümumiləşdirmişdir: «1918-1920-ci illər müstəqil, azad Azərbaycan Demokratik

Cümhuriyyətinin yaradılması, onun möhkəmləndirilməsi və qorunması uğrunda döyüşlər, sürgün və repressiyaların ilk dalğalarının başlanması, Cənubi Azərbaycanın taleyi və s. kimi olduqca çox və mürəkkəb problemlər yazıçı tərəfindən «Mələklər və iblislər»in münaqişəsi kimi qələmə alınır və bütün bunların hamısı üç zamanın müstəvisində istedadlı bir müəllif mövqeyindən əks etdirilib qiymətləndirilir» (126, s. 4).

Əlisa Nicatın «Mələklər və iblislər» romanında Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xoyski, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Şeyx Məhəmməd Xiyabani, Ənvər Paşa, Yusif Ziya, İosif Vissarionoviç Stalin, Stepan Şaumyan, Pankratov və digər tarixi şəxsiyyətlərin surətləri yaradılmışdır. Müəllif yaratdığı tarixi qəhrəmanların hər birinin surətini bütün dolğunluğu ilə əks etdirə bilməmişdir. Ancaq tarixi hadisələrin fonunda adı çəkilən qəhrəmanların hər birinin təqdimi dövrün ictimai-siyasi mənzərəsinin canlandırılmasına imkan vermişdir.

Əlisa Nicatın «Mələklər və iblislər» romanında Stepan Şaumyanın başçılığı ilə daşnakların rus bolşevikləri ilə əməkdaşlığı, Azərbaycan türklərinə qarşı apardıqları təxribat, qətliam və və digər fitnəkarlıqlar canlı şəkildə təsvir olunmuşdur. Yazıçı Stepan Şaumyanın başçılığı ilə qurulan oyuncaq Bakı Kommunasının hakimiyyəti dövründə Azərbaycanın türk-müsəlman əhalisinin başına gətirilən faciələrə diqqəti çəkmiş, erməni daşnaklarının daxili-mənəvi simasını açıb göstərməyə çalışmışdır. Romanda xüsusilə dünya erməni təşkilatlarının və onların nüfuzlu şəxslərinin Stepan Şaumyanın dəvəti ilə Bakıda görüşünün təşkil olunduğu məclis özünəməxsusluğu ilə maraq doğurur. Yazıçı erməni lobbisini təşkil edən, Daşnaksütun partiyasını və ermənilərin gizli terror təşkilatlarını maliyyələşdirən bu şəxslərin hər birinin xarakter

xüsusiyyətlərini səciyyələndirməyə çalışmışdır.

Əlisa Nicatın «Mələklər və iblislər» romanı pessimist əhvali-ruhiyyədə qələmə alınsa da, bu pessimizmin arxasında xalqın azadlıq mübarizəsi bədii ifadəsini tapmışdır.

Əlisa Nicatın «Mələklər və iblislər» romanının müasir nəsrimizin dəyərli nümunələrindən biri kimi ədəbi-nəzəri fikrin diqqət mərkəzində olacağı şübhə doğurmur.

Təhlillərdən aydın göründüyü kimi, Əlisa Nicatın «Mələklər və iblislər» romanda Cümhuriyyət həyatının bədii əksini tapması təsadüfi səciyyə daşımır. Yazıçı bir tərəfdən bu günün problemlərini əks etdirmək üçün tarixin qoynuna sığınmış, digər tərəfdən tarixin problemlərinə aydınlıq gətirməyə, onun bir sıra qaranlıq məqamlarını aşkarlamağa çalışmışdır. Romanda təsvir olunan hadisələrin bir sıra məqamlarda publisistik səpkidə təqdimi də diqqəti çəkən məqamlardandır. Düzdür, bu aspekt müəyyən mənada əsərin bədii səviyyəsinə xələl gətirmişdir. Lakin tarixi dövrün bu səpkidə canlandırılması romanın sənədliliyini qabarıq əks etdirən, oxucunu hadisə və əhvalatların doğruluğuna inandıran məqam kimi gerçəkləşmişdir.

Son illərdə Türkiyədə çap olunmuş Müslüm Oğuzun «Nisan ağlar mayısa» romanında da Azərbaycan Xalq Cümhuriyyəti dövrünün hadisələri öz bədii təcəssümünü tapmışdır. Tarixi səpkidə qələmə alınmış romanda Cümhuriyyət dövrünün bir sıra tarixi şəxsiyyətlərinin bədii obrazı yaradılmış, həmin illərdə baş verən ictimai-siyasi hadisələrə güzgü tutulmuşdur. Roman bədii-publisistik üslubda yazıldığından Müslim Oğuz Azərbaycanın yaşadığı çətin illərin real, gerçək mənzərəsini yarada bilmiş, hadisələrə bir yazıçı kimi öz münasibətini bildirmişdir.

b) Milli - istiqlal mücahidlərinin bədii obrazı

İstiqlaliyyət tarixinə bədii nəsr fonunda nəzər saldıqda xüsusi bir məqam diqqəti cəlb edir.Bu da istiqlal mücadiləsi tarixini yaradanların bədii obrazının milli ədəbiyyatımızda əks olunması məsələsidir.Bu tendensiya xüsusilə müasir dövrdə yaranan bədii nümunələrdə özünü göstərir. Çingiz Hüseynovun «Doktor N» romanı, Teyyub Qurbanın «Dönməzlik» povesti və Nahid Hacızadənin «Yaşa, ey haqq!» hekayəsi bunun ən canlı örnəkləridir.

Çağdaş nəsr nümunələri içərisində Çingiz Hüseynovun «Doktor N» romanı daha çox diqqəti cəlb edir. Rus dilində qələmə alınmış bu romanın ilk variantı «Doktor Nərimanov, yaxud şübhə» adlı ilə «Literaturnıy Azerbaydjan» jurnalında çap olunmuşdur. Yazıçı «Doktor Nərimanov, yaxud şübhə» üzərində işini davam etdirmiş, onu əldə etdiyi yeni fakt və sənədlərlə zənginləşdirmiş, əsas süjet xəttinə bir sıra əlavələr və epizodlar edərək əsərin əvvəlki variantından xeyli dərəcədə fərqlənən iki kitabdan ibarət «Doktor N» adlı yeni roman ortaya çıxarmışdır.

Çingiz Hüseynovun «Doktor N» romanında Azərbaycan Xalq Cümhuriyyəti dövrü əsas mövzu obyekti kimi düşünülsə də, yazıçı bütövlükdə iyirminci yüzilin əvvəllərindən başlayaraq Cümhuriyyətin süqutundan sonrakı illəri də əhatə etmiş, tarixin bu mürəkkəb dönəmində yaşanılan ictimai-siyasi hadisələri əks etdirməyə çalışmışdır. Belə ki, romanda iyirminci əsrin əvvəllərində Azərbaycanda milli hərəkatın inkişafı və bu inkişafın təkamülü kimi Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü, Cümhuriyyət dövründə yaşanılan ictimai-siyasi problemlər, müstəqil dövlətin süqutu və milli dövlətçiliyin itirilməsinin xalqın mənəvi yaddaşında qoyduğu

izlər – ümidsizlik və inamsızlıq duyğuları canlı bədii ifadəsini tapmışdır.

Çingiz Hüseynovun «Doktor N» romanının diqqəti çəkən cəhətlərindən biri burada Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai-siyasi mənzərəsinin yalnız tarixi fakt və sənədlər fonunda deyil, ayrı-ayrı obraz və xarakterlərin daxili-mənəvi düşüncələri timsalında yaradılmasıdır. Qeyd edək ki, bu cəhət yazıçıya tarixin həqiqətlərini əks etdirməklə yanaşı, dövrün hadisələrinə müxtəlif subyektiv baxışları səciyyələndirməyə imkan vermişdir. Bu baxış fərqliliyi isə daha çox iki böyük şəxsiyyətin Məhəmməd Əmin Rəsulzadə və Nəriman Nərimanovun timsalında gerçəkləşdirilmişdir.

Filologiya elmləri doktoru, professor Vaqif Sultanlı Çingiz Hüseynovun bəhs olunan romanında Cümhuriyyət həyatının təsvirinə diqqəti çəkərək qənaətlərini belə yekunlaşdırır: «Yazıçının iki kitabdan ibarət «Doktor N» romanında Məhəmməd Əmin Rəsulzadə və Nəriman Nərimanovun taleyi fonunda XX yüzilin əvvəllərində Azərbaycan xalqının azadlıq və istiqlaliyyət uğrunda mübarizələri əks olunmuşdur. Yazıçı faktlar və sənədlərlə bədii təxəyyülü məharətlə çulğalaşdıra bilmiş, bu isə romanın bədii təsir gücünü təmin etmişdir. 1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti dövrünə və Cümhuriyyətin süqutuna xüsusi diqqət yetirən Çingiz Hüseynov yaratmış olduğu obrazların timsalında Azərbaycan xalqının mübarizə əzmini aşkarlamış, yaşadığı faciələrin səbəblərini araşdırmış, onun real, bədii mənzərəsini canlandırmışdır. Yazıçının XX yüzilin başlanğıcında Azərbaycan xalqının mübarizəsini əks etdirərkən Məhəmməd Əmin Rəsulzadəni deyil, Nəriman Nərimanovu qəhrəman kimi seçməsi onun istiqlal savaşı ilə yanaşı, Azərbaycanın o dönəmdə yaşadığı faciəni əks etdirmək niyyətindən qaynaqlanır. Başqa sözlə, müəllif

Məhəmməd Əmin Rəsulzadə və Nəriman Nərimanovu qarşı-qarşıya qoymuş, birincinin simasında millətin azadlıq ehtiraslarını, ikincinin timsalında isə onun faciələrini əks etdirmişdir» (123, II c. s.111-112). Göründüyü kimi, tədqiqatçı Çingiz Hüseynovun «Doktor N» romanında Azərbaycan Xalq Cümhuriyyəti dönəmində və Cümhuriyyətin süqutundan sonra xalqın apardığı milli-azadlıq mübarizəsinin özünəməxsus bədii təcəssümünə diqqəti çəkmiş, bununla da əsərin ideya istiqamətini düzgün müəyyənləşdirmişdir.

Çingiz Hüseynovun «Doktor N» romanı bədii sənətkarlıq baxımından da diqqəti çəkən nəsr nümunələrindən biridir. Belə ki, yazıçı əvvəlki romanlarına məxsus yazı və üslub tərzini bir qədər başqa səpkidə burada da davam etdirmişdir. Romanda hadisələr həm müəllif təhkiyəsi, həmçinin obrazların daxili düşüncələri fonunda təqdim olunur. Bunlar biri-birini əvəzlədikcə təsvir olunan dövrün mürəkkəb ictimai-siyasi hadisələrinin panoramı oxucunun gözləri qarşısında canlanır.

Çingiz Hüseynovun «Doktor N» romanı çağdaş Azərbaycan tarixi roman janrının ən dəyərli nümunələrindən biridir. Əsər istər məzmun, istərsə də forma baxımından özünəməxsus xüsusiyyətlərlə səciyyələnir. Romanda sənədliliklə bədiilik böyük məharətlə əlaqələndirilmişdir. Bu aspekt istər obrazların xarakter cizgilərinin yaradılışında, istərsə də tarixi hadisə və əhvalatların təqdimində özünü göstərməkdədir.

Çağdaş dövrümüzdə öz müstəqilliyini yenidən bərpa etmiş bir cümhuriyyətin vətəndaşı kimi, müxtəlif arxiv materialları, tarixi sənədlər əsasında uzun müddət bizlərə yanlış tanıdılan cümhuriyyət tarixinin qaranlıq səhifələrini işıqlandırmaq və o dövrün tarixi şəxsiyyətlərinin həqiqi obrazını yaratmaq məqsədilə fəaliyyət göstərənlərdən biri də yazıçı Teyyub Qurbandır.

Müəllif hələ 80-ci illərin sonlarında Azərbaycanın istiqlal mücahidi, dönməz ideoloqu M.Ə.Rəsulzadə və onun həyatda olan yaxınları ilə maraqlanmağa başlayır. Müxtəlif arxiv materiallarına, tarixi sənədlərə müraciət edir, o dövrün mətbuatını izləyir, məktublaşmalarla tanış olur. Bu axtarış əsnasında ulu öndərin sağ qalan yeganə övladı – Azərin sorağını alır və uzun müddət «məchul dövr» kimi hafizələrə həkk olunmuş istiqlal mücadiləsi tarixini və bu tarixi yaradan dahi Məhəmməd Əmin Rəsulzadəni bir də canlı şahiddən dinləmək üçün dərhal Qazaxıstana yola düşür. Həmin görüşün təəssüratlarıyla «Mütləq Bakıya qayıdacağam» sərlövhəli sənədli hekayəni yazır.

Onun üç illik gərgin axtarışlarının səmərəli nəticəsi olan «Dönməzlik» povesti mövcud dövrün tarixi olaylarının dəqiq və təfərrüatlı işıqlandırılması və siyasi şəxsiyyətlərin xarakterik cizgilərinin doğru təsbiti baxımından təqdirəlayiq əsərdir.

«Dönməzlik» - Məhəmməd Əmin Rəsulzadə heykəlinin yapıldığı nəsr nümunəsi üçün seçilmiş ən uğurlu addır. Otuz altı fəsildən ibarət bu bədii-tarixi povest kinossenari janrına məxsus bir üslubda qələmə alınmışdır. Yazıçının bu manerası ilk baxışda povest ənənəsindən uzaq görünsə də, əsərin ümumi ruhuna bir dinamizm gətirir.

Müxtəlif məkanlarda cərəyan edən hadisələrin izləndiyi süjet xətti boyunca təhkiyəçinin hərəkət konturları müxtəlif istiqamətlərə şütüyərək faciəli bir ömrün çeşidli anımlarını əks etdirən qəribə, mürəkkəb horizontallar cızır. Bu da böyük ideoloqun mürəkkəb ömür yolu və çoxşaxəli fəaliyyətindən doğan bir tendensiyadır.

Qeyd edək ki, «Dönməzlik» povestində Nəriman Nərimanov, Koba, Adolf Hitler və Məhəmməd Əmin Rəsulzadə paralelləri kəsişən obrazlar sistemini yaradır.

Əsər Məhəmməd Əmin Rəsulzadənin Stalin vasitəsilə Bayıl həbsxanasından qaçırılıb Moskvaya aparılarkən qatarda keçmiş əqidə dostu Nəriman Nərimanovla qarşılaşması və mükaliməsi ilə başlayır.

«Əziz dost! Müstəqil Azərbaycan Cümhuriyyətini yaratmaqla xalqa heç bir xoşbəxtlik gətirə bilmədiyimiz artıq real həqiqətdir. Mən səndən fərqli olaraq, Rusiyadakı inqilabın böyük tarixi əhəmiyyətini duyur və bu inqilaba arxalanmaqla Azərbaycanda hakimiyyəti ələ almağı zəruri hesab edirdim. İndi, səni Rusiyaya yola salarkən, bir daha təsdiq edirəm ki, biz hətta Rusiyanın tərkibində olsaq da, bu heç də o demək deyildir ki, əsarətdə qalacağıq. Biz nəhəng bir ölkədə bir ailənin bərabər hüquqlu üzvü kimi yaşayacağıq. Öz milli varlığımızı bütün dünyaya tanıdacağıq» (99, s.6-7) - deyən Nərimanova Məhəmməd Əmin cavabında: «Nəriman bəy, Dünya Azərbaycanı deyil, yalnız və yalnız dediyiniz nəhəng ölkəni tanıyacaqdır» - deyir (99, s.6-7).

Əlbəttə, tarixi qaynaqların araşdırılması Nəriman Nərimanovla Məhəmməd Əmin Rəsulzadə arasında həmin ərəfədə belə bir qarşılaşma və mükaliməni olduğunu təsdiq etmir. Lakin yazıçı tarixi-siyasi proseslərin ümumi ahəngini əsas götürdüyündən bu faktı təsvir etməyi məqsədəuyğun hesab etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, xalqımızın ölümsüz lideri Məhəmməd Əmin Rəsulzadənin həyat və mübarizə yolundan bəhs edən povestdə yazıçı Cümhuriyyət həyatını əks etdirməyi qarşısına məqsəd qoymasa da, bu dövrə xüsusi önəm vermişdir. Bu da təsadüfi deyildir, çünki Məhəmməd Əmin Rəsulzadənin siyasi mübarizə yolunun ən uca zirvəsi məhz Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə bağlıdır.

Teyyub Qurbanın «Dönməzlik» povestinin baş qəhrəmanı Məhəmməd Əmin Rəsulzadədir. Povestdə yazıçı

onun həyatının bütün mərhələlərini əks etdirməyə çalışmışdır. Əsərdə Məhəmməd Əmin bəyin istər ailə həyatı, istərsə də həyatının ictimai-siyasi mübarizələrdə keçən illəri canlı bədii təcəssümünü tapmışdır.

Dönməz rəhbərin həyatının müxtəlif anımlarına nəzər saldıqda bəzi lövhələr qarşısında həm heyrətlənir, həm də bu fenomenal şəxsiyyətin mənəvi böyüklüyü önündə səcdə edirik. Öz müqəddəs ideologiyası uğrunda bütün ailəsini qurban verən Məhəmməd Əmin Nəsib bəy Yusifbəyli, Fətəlixan Xoyski, Həsən Ağayev kimi silahdaşlarının qətlə yetirildiyini eşidəndə hönkürərək ağlayır.

Rəsulzadənin Finlandiyada şəhid məzarıstanlığındakı düşüncələri də bu mənada diqqəti cəlb edir: «Tatar koloniyasında qaldığım bir ay müddətində hər gün yolumu buradan salıram. Fin xalqının müstəqilliyi yolunda həlak olmuş şəhidlərə baş əyirəm...

... İndi Azərbaycanın hər yerində azadlıq bayrağını müstəmləkə bayrağı əvəz etmişdir.

Azərbaycanın müstəqilliyini bizim əlimizdən zor gücünə aldılar. Çünki bizə hərbi qüvvə ilə kömək edəcək qüvvə yox idi. Finlandiyanın azadlıq aşiqlərinə isə Rusiyanın gücü çatmadı. Qardaş alman xalqı onun arxasında mərd-mərdanə durdu. Heç olmasa, bir məmləkətdə istiqlal odu sönmədi. Buna görə də fin şəhidlərinin ruhu Azərbaycan türk şəhidlərinin ruhu ilə birləşmişdir. Çəmbərəkənddəki qəbiristanda yatan şəhidləri mən burada anıram.

... Zaman göstərəcək ki, insanlara hansı cəmiyyət əbədi səadət gətirər. Zorən yaradılan sovet rejimi, yoxsa Finlandiya kimi demokratik cəmiyyət» (99, s.22).

Rəsulzadə həmçinin Moskvada olduğu iki illik təcrübəsindən şərq millətlərinin və xüsusilə türk ellərinin nicatının yalnız özlərində olduğunu anladığını qeyd edirdi.

Povestdə yazıçı Məhəmməd Əmin Rəsulzadə ilə

yanaşı, onunla əks qütbdə dayanan Nəriman Nərimanovun da obrazını yaratmışdır. Müəllif Vətənin və millətin azadlığı naminə əvvəllər eyni təşkilatda mübarizə aparmış, daha sonra yolları haçalanan bu iki siyasi şəxsiyyəti bir-birindən fərqləndirən məqamlara diqqət yetirmişdir.

Hər iki şəxsiyyətin tarix səhnəsindəki yerini və mövqeyini müəyyənləşdirərkən belə bir qənaətə gəlirsən: Rəsulzadə eyni dərəcədə millətini sevən və olduqca humanist təbiətə malik Nərimanovdan «azadlıq» anlayışını Sovet Rusiyasından kənarda təsəvvür etməsilə seçilirdi. O, istiqlalın yenidən ruh şəklində Azərbaycana qayıdacağına inanırdı. Zaman da onu haqlı çıxardı.

Ümumiyyətlə, bu mənada Nərimanov şəxsiyyətinə münasibət heç vaxt bir mənalı olmamışdır. Bizcə, onun millətinə sevgisində və səmimiyyətində zərrəcə naqislik yox idi. Sadəcə olaraq Nəriman bəy özünün də etiraf etdiyi kimi, xalqının səadət yolunun yalnız Sovet Rusiyasından keçə biləcəyinə sadəlövhcə inanmışdı. Bəzən dahilər də öz inanclarında yanılırlar.

Rəsulzadə və Stalinin qatarda bir araya gətirilməsi və dahi siyasətçilərin siyasi baxışlarını ortaya qoyan maraqlı dialoq əsərdə özünəməxsus epizodlardan birini təşkil edir.

Stalin – qan bahasına yaratdığı böyük imperiyanın ona verdiyi güclə dünyaya meydan oxuyan qəddar bir müstəbid, Rəsulzadə isə sadəcə xalqın varlığına söykənərək inandığı həqiqətlər uğrunda mübarizə aparan, o dövrdə xeyli təhlükəli səslənə biləcək düşüncələrini açıq ifadə etməkdən çəkinməyən dönməz bir rəhbərdir.

Stalin onu Şərq dünyasının yeganə lideri, özününsə güclü rəqibi hesab edirdi. Lakin buna baxmayaraq o, Məhəmməd Əminin həbsxanadan qaçırılmasına kömək edir. Burada bir neçə nüans var. İlk növbədə Stalin zamanında

edilmiş yaxşılığın əvəzini qaytarırdı. Digər tərəfdən o, Əmin bəyin Bakıda qaldığı müddət ərzində Azərbaycanda sosialist sisteminin qurulmasını mümkünsüz hesab edirdi. Onun bu barədə etdiyi etirafa diqqəti yönəldirik:«Sən Bakıda həbsxanada olsan belə, Azərbaycanda kommunizm rejimi qurula bilməz. İstəyirsən, hətta yüz Nərimanov, milyon Şaumyan olsun» (99, s.10).

Stalinin «Emin, əziz dost Siz indi məğlubiyyətə uğradağınız bir vaxtda Azərbaycanın gələcəyi barədə nə düşünürsünüz?» - sualına Məhəmməd Əmin: «Bu müvəqqəti məğlubiyyətdir. Azərbaycan gec-tez müstəqil demokratik dövlət olacaqdır» - deyə cavab verir (99; s.19).

Stalin – Rəsulzadə paralelində hər bir millətin milli varlığının göstiricisi olan bayrağa münasibət məsələsi də xüsusi xətt təşkil edir.

Həmin dövrdə üçrəngli Azərbaycan bayrağı ölkəmizin qurtuluşunun, istiqlalının simvoluna çevrilmişdi. Ədəbiyyatda ondan romantik obraz kimi bəhs edilirdi. O bayrağın təsisçisi olan Məhəmməd Əmin bəy də onu bədəninə sarıyacaq qədər böyük bir azadlıq aşiqi idi. Stalin bir dəfə onun bayrağı bədənində gəzdirdiyini görüb «bu nədir?» - deyə soruşur. «Koba, bu bayraq mənim qövsi-qüzehimdir. Onun rəngləri varlığıma hopmuşdur. Lahıcda da, Bayılda da o mənimlə olmuşdur. Yalnız və yalnız vücuduma ağ kəfən sarınanda onu məndən ayırmaq olar». Pıçıltıyla deyir: «Bir kərə yüksələn bayraq bir daha enməz».

Stalin qətiyyətlə cavab verir:

- Emin, bil ki, o bayrağın ancaq qırmızı hissəsi yüksələcəkdir!» (99; s.13).

Bu sətirlər millətləri qondarma rejimə tabe olmağa məcbur edən qəsbkarın ölməz milli ruh qarşısında gücsüz çırpınışı kimi səslənir.

Yol ayrıcına gələn «keçmiş dost»lar görüşüb ayrılarkən: «Emin, səndən bir xahişim var. Bədəninə sarıdığın o bayrağı mən düşəndən sonra vaqonun ocağına at yansın» - deyən Stalinə Əmin bəy: «Yox, Koba, xahişinə əməl edə bilməyəcəyəm. Bayraq mənim məsləkimdir. Məslək yanmaz, yandırar!(99, s.19) - söyləyir.

Bu yalnız dönməz liderin deyil, milli ruhu uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının xarici imperialistlərə son cavabı idi.

Nahid Hacızadənin hekayələrində də Azərbaycan Xalq Cümhuriyyəti dövrü ictimai-siyasi həyatının bir sıra məqamlarına diqqət yetirilmişdir. Qeyd edək ki, müəllif Cümhuriyyət dövrü ilə bağlı roman üzərində işləmiş, lakin əsəri başa çatdırmadığından onun ayrı-ayrı məqamlarını hekayə şəklində dərc etdirmişdir. Mətbuatda dərc olunan bu hekayələr bəhs olunan tarixi dövrün mənzərəsinə aydınlıq gətirilməsi baxımından maraq doğurmaqdadır. Qeyd edək ki, Nahid Hacızadə tarixi fakt və sənədlərdən daha çox, bəhs olunan dövrü öz təxəyyülündə canlandırmağa çalışmışdır.

Ulu öndər M.Ə.Rəsulzadənin portret cizgilərini ən zərif nüanslarına qədər öz bədii yaddaş müstəvisində əks etdirməyə çalışan müasir milli nəsrimizin özünəxas üslubu ilə seçilən nasirlərindən biri də Nahid Hacızadədir. Dərin lirizmi ilə seçilən «Yaşa, ey haqq!» hekayəsində yazıçı böyük siyasətçinin vətəndən ayrı keçən otuz beş ilik ömrünün son anlarını lirik-psixoloji cizgilərlə təsvir edir.

Hekayə qəhrəmanın ruh halıyla həmahəng bir təbiət təsviriylə başlayır:

«...Boz ay bozara-bozara gedirdi...

Yuxarılarda – Ankara yamaclarında tala-tala qar ağarırdı...

Hava qurğuşun kimi ağır idi. Elə bil dünyanın dərdini canına çəkmişdi üfüq boyunca qaynaşan buludlar. Bu qara buludların qara kölgəsi ürəyinə çökmüşdü. Huşu dağınıq idi, fikri, düşüncəsi pərən-pərən Dəli köhlənə dönmüşdü, təkəri dördnala çapırdı.

O, heç vədə belə heysiz-halsız olmamışdı. Acı-acı düşündü: «Deyəsən bu yazı görməyəcəyəm» (58; s.32).

Millət aşiqinin quş kimi uçmağa müntəzir ruhu bir yerdən başqa yerə qanadlanır, yaddaşının müxtəlif məqamlarını, anımlarını oyadır, otuz beş illik mühacir ömrünün keçdiyi çeşidli ölkələrə gedir və birdən həsrətli könül Can Azərbaycana doğru tələsir.

«Bir də bu yerlərə dönə biləcəyəmmi?» - Azərbaycandan ayrılanda onu bu sual narahat edirdi. İndi isə dərin təəssüf içindədir. Çünki, artıq buna inamı yoxdur. «Kim deyirsə ki, ölümdən qorxmur yalandır! İnsan ölümdən qorxur, çünki, o, sondur, ondan o yana heçlikdir. Qorxur, çünki dünyada cığırlar, yollar keçib, gedib-gedib bir gün, ya istəyinlə, ya da kiminsə iradəsi, hökmü, köməyi, ya da həsrətilə geri dönə bilərsən, ancaq ölüm deyilən yoldan geri qayıtmaq mümkün deyil. Bax, bu gedər-gəlməzlikdən qorxur insan! Qorxur ki, həyat eşqi və sinəsində bulaq kimi axıb çalayan arzuları bir an içində yanıb qap-qara külə dönsün. Bu dəhşətdir!» (58, s.33).

Yaratdığı böyük ideologiya ilə xalqı ayağa qaldıran, dünyaya meydan oxuyan bu fenomenal şəxsiyyət indi taleyin əlində aciz qalmışdı.

Ölümün yaxınlaşdığı hər an yaddaş təqviminin daha bir səhifəsi vərəqlənən Məmmədəminin xəyalı «bolşevizmin bir nömrəli düşməni» damğası ilə Pankratovun rəhbərliyi ilə dördüncü şöbədəki əzablı günlərinə gedir, Azərbaycan Xalq Cümhuriyyətindəki son Novruz bayramını xatırlayır, qürurlanır və kədərlənir.

Hekayənin ən uğurlu cəhəti Rəsulzadənin həyatla ölüm arasındakı incə cizgidə, yəni bir neçə saatlıq zaman məsafəsində həyatının müxtəlif və vacib məqamlarını qəribə bir ardıcıllıqla təqib edib göstərmə stixiyasıdır.

Məmmədəminin Nərimanovla tarixi qarşılaşması da ibrətamiz şəkildə şərh edilir.

Stalin tərəfindən həbsxanadan qaçırılaraq Rusiyaya yola salınan Əmin bəyi Azərbaycan Xalq Komissarlar Sovetinin sədri Nəriman Nərimanov uğurlayır. Onların son görüşü təsirli boyalarla verilir. «Biz ikimiz də bu xalqın oğluyuq» - deyən Nərimanova Məmmədəmin: «Doktor Nərimanov, - dedi, - biz ikimiz də bu torpağın övladlarıyıq, sidq-ürəkdən bu xalqın xoşbəxtliyini istəyirik. Biz müsavatçılar ona axıracan xoşbəxtlik verə bilmədik. İnanmıram ki, siz də nəsə eləyə biləsiniz. Çünki, qan üstündə qurulan qurğu, hökumət çox yaşaya bilməz. Şair demişkən: «Haqqın da bukülməz dizi, dönməz üzü vardır».

Bilirəm xalq haqqını heç kəsə verməyəcək. Ancaq bunun geci-tezi var. O günü – o istiqlal gününü biz görməsək də balalarımız, nəvələrimiz, nəticələrimiz görəcək, mütləq görəcək» (58, s. 33-34).

Azərbaycan!., Azərbaycan!.. - nidaları ilə həyata göz yuman bu nurlu sima dərindən inanırdı ki, azadlıq Azərbaycana yenidən – gəncliyin çiyinlərində qayıdacaq.

«Ey gənclik! Sənin öhdəndə böyük vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı, onu min müşkülatla yüksəldərək dedi ki: «Bir dəfə yüksələn bayraq bir daha enməz!». Əlbəttə ki, sən onun ümidini qırmayacaq, bu gün parlament binası üzərindən azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəldəcək və bu yolda ya qazi, ya da şəhid olacaqsan!» (58, s.34). Bu, dönməz rəhbərin son səslənişi, son vəsiyyəti idi.

Bu, dönməz rəhbərin son səslənişi, son vəsiyyəti idi.

Bütövlükdə, Azərbaycanın yenidən istiqlaliyyətinə qovuşduğu dövrdə Cümhuriyyət həyatının təcəssümünə həsr edilmiş əsərlərdə bəhs olunan illərin tarixi-siyasi mənzərəsi canlı şəkildə yaradılmışdır.

NƏTİCƏ

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bədii nəsrdə təcəssümü bir neçə mühüm mərhələni əhatə etməkdədir. Belə ki, ilk növbədə Cümhuriyyət illərində yaranan ədəbi örnəklərdə dövrün canlı təsviri verilmişdir. Bu illərdə Cəlil Məmmədquluzadə, Seyid Hüseyn, Abdulla Şaiq, Cəfər Cabbarlı və digər müəlliflərin müxtəlif janrlarda qələmə aldığı əsərlər fonunda Azərbaycan Xalq Cümhuriyyəti illərinin sosial-siyasi ovqatı və əhvali-ruhiyyəsi hiss olunmaqdadır. Poeziyadan fərqli olaraq bədii nəsrdə Cümhuriyyət dövrünün bədii təsviri ciddi, sistemli səciyyə daşımır. Bu isə ilk növbədə zaman məhdudiyyətindən qaynaqlanır. Cümhuriyyətin qısa ömürlü olması bu dövrün onun mövcudluğu dönəmində bədii nəsrin yaranmasına geniş imkan verməmişdir.

Digər tərəfdən, Sovet siyasi rejimi dönəmində yaranan nəsr nümunələrində bu və ya digər şəkildə Cümhuriyyət dövrü özünün bədii inikasını tapmışdır. Xüsusilə, bu illərdə Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Mehdi Hüseyn, Süleyman Rəhimov, Əbülhəsən Ələkbərzadə, Mir Cəlal, Əli Vəliyev və digər sənətkarların yaradıcılığında Cümhuriyyət dövründə baş vermiş ayrı-ayrı tarixi hadisə və əhvalatlar təsvir olunmuş, siyasi şəxsiyyətlərin obrazları yaradılmışdır. Lakin məlum siyasi səbəblər üzündən sovet siyasi rejimi dövründə yaranan bədii nəsr nümunələrində Cümhuriyyət həyatının obyektiv mənzərəsi yaradılmamışdır. Bununla belə, həmin dövrdə yaranan nəsr nümunələrində bu və ya digər şəkildə dövrün bir sıra problemləri əks olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bədii nəsrdə təcəssümü, eyni zamanda, mühacirətdə yaranan bədii nəsr örnəklərində geniş təcəssümünü tapmışdır. Xüsusilə, əsərlərini fransız dilində qələm almış Ümmülbanunun (Banin) «Qafqaz günləri», «Paris günləri», «İvan Buninin son höcəti» əsərləri Cümhuriyyət həyatının təsviri baxımından mühüm əhəmiyyətə malik bədii örnəklərdir.

Azərbaycan mühacirət nəsrinin görkəmli nümayəndələrindən biri olan Qurban Səidin «Əli və Nino» romanı 1918-1920-ci illərdə Azərbaycanda yaşanan ictimai-siyasi hadisələr haqqında zəngin material verir. Lakin qeyd olunmalıdır ki, bütün dünyada şöhrət qazanmış bu əsər haqqında yazılan tədqiqatlarda əsasən müəllifin kimliyi məsələsi mübahisə obyektinə çevrildiyindən əsərin Cümhuriyyətlə bağlı məqamları təhlil obyektinə çevrilməmişdir.

Həmçinin, Azərbaycan mühacirət bədii nəsrinin aparıcı şəxsiyyətlərindən olan Məhəmməd Əsəd bəyin müxtəlif dövrlərdə qələmə aldığı bədii və sənədli-publisistik əsərlərdə Azərbaycan Xalq Cümhuriyyəti dövrü geniş bədii əksini tapmışdır. Lakin Məhəmməd Əsəd bəy haqqında yazılan tədqiqatlarda da əsas diqqət müəllif mənsubiyyəti üzərində qurulduğundan onun əsərlərinin məzmun-məndəricə aspektləri, ideya-bədii xüsusiyyətləri təhlil olunmamışdır.

Bundan əlavə, Azərbaycan mühacirət ədəbiyyatında bir sıra memuarlar qələmə alınmışdır ki, həmin əsərlərin səhifələrində Cümhuriyyət dövrü bədii təcəssümünü tapmışdır. Məhəmməd Əmin Rəsulzadənin «Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri», Mehmet Altunbayın «Hürriyyətə uçan türk», Məmməd Nağı Şeyxzamanlının «Azərbaycan istiqlal mücadiləri xatirələri», Hüseyn Baykaranın «Azərbaycan istiqlal mücadiləsi tari-

xi», Əhdülvahab Yurdsevərin «Azərbaycan istiqlal mücadiləsi xatirələri» və digər memuar nümunələrində yeri gəldikcə Cümhuriyyət həyatının təsvirinə yer verilmişdir.

Nəhayət, qeyd etmək lazımdır ki, 1991-ci ilin oktyabrın 18-də Azərbaycanın təkrar istiqlaliyyətinə qovuşması Cümhuriyyət dövrünün bədii nəsrin müraciət obyektinə çevrilməsinə imkanlar yaratmışdır. Son illərdə yaranan bədii nəsr örnəkləri içərisində Çingiz Hüseynovun, Əlisa Nicatın, Nahid Hacızadənin, Teyyub Qurbanın tarixi roman və povestləri bu baxımdan maraq doğurmaqdadır. Həmçinin son illərdə yaranan bir sıra hekayələrdə Cümhuriyyət həyatının təsvirinə çalışılmışdır. Son illərdə Cümhuriyyət həyatının təsvirinə həsr olunmuş bədii nəsr nümunələrində bir tərəfdən dövrün ictimai-siyasi mühitinin canlandırılmasına çalışılmış, digər tərəfdən həmin illərin siyasi-ideoloji məfkurəsini yürüdən şəxsiyyətlərin obrazı yaradılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bədii təcəssümünə həsr olunmuş əsərlər say, kəmiyyət etibarı ilə xeyli çoxdur. Əlbəttə, bu əsərlərin bütünlüklə təhlil edilməsi imkan xaricindədir. Ona görə də tədqiqat işində ən vacib olan bədii örnəklərə müraciət edilməklə kifayətlənilməsi daha məqbul hesab edilmişdir.

Əlbəttə, bir monoqrafiya işində Azərbaycan Xalq Cümhuriyyəti həyatının bədii nəsrdə təcəssümünün araşdırılması mövzunun bütün yönlərilə əhatə edildiyi anlamında dərk olunmamalıdır. Şübhəsiz ki, gələcəkdə monoqrafiyanın ayrı-ayrı fəsilləri müstəqil tədqiqat obyektinə çevriləcəkdir. İlk növbədə sovet siyasi rejimi dönəmində yaranan bədii nəsr nümunələrinin ayrı-ayrı yazıçılarının yaradıcılığı kontekstində, arxiv materiallarını incələməklə bir daha təhlil obyektinə çevriləcəyi şübhə doğurmur. Bu illərdə yaranmış bədii nəsr nümunələrinin milli-nəzəri müstəvidə daha dərindən təhlili bu mənada

daha səciyyəvidir. Həmçinin uzun illər ədəbi-nəzəri fikrin diqqət və maraq dairəsindən gizli saxlanılmış mühacirət bədii nəsrində Azərbaycan Xalq Cümhuriyyəti həyatının təcəssümünün müstəqil tədqiqat obyektinə çevrilməsinə ciddi ehtiyac duyulmaqdadır.

SUMMARY

This book presents to readers research of artistic prosaic embodiment of the Azerbaijan People's Republic which existed in 1918-1920. Though the period of the Azerbaijan People's Republic is subject to many researches, no attention has been paid to artistic prosaic embodiment of this period and no research has been written in this sphere. Firstly in this monographic research work topic of the Azerbaijan People's Republic has been involved to a wide and systematic research on context of artistic prose. Analysis of the topic with background of different stages provides the research work with comprehension. Especially, struggle of the Azerbaijan people for national independence in that period, nuances of sense of freedom are subject to research on background of artistic prose. There are, as well, underlined Turkism, Turanism and Islamism in artistic prose of this period in the monographic research work. Also, the author touches in the book such important matter as representation of the topic of the Azerbaijan People's Republic which is an extraordinary and special topic in that peroid's writers' works.

The monographic research work consists of preface, four chapters, conclusion and list of materials used bin this work.

In the preface the author underlines the importance of investigation of the Azerbaijan People's Republic on context of national values, especially because, it has been investigated on a wrong ideological context

for long time. Here, as well, actuality and scientific innovation of the topic are emphasized.

In the first chapter of the work named "Period of the Republic and artistic prose" special attention is paid to representation of spiritual-cultural and social-politic life in the artistic prosaic examples of that period's literature. The chapter consist of two section named "The political-ideological panorama of the period" and "Spiritual-moral and social-psychological appearance of life in the Republic." In the first section the author has created a political-ideological view to that period which was accompanied with revolutions, rebellions and political strikes. In the second section he researches the changes and spiritual-moral problems born by all these events on context of that period's artistic prose.

In the second chapter of the scientific work named "Topic of the Republic in Soviet period" the author analyses the representation of the Republic's life in the artistic prose of that time. In the first section of the chapter the subject of research is the intense atmosphere created in Soviet period by contradictious views of writers as A.Shaig, M.S.Ordoubadi, M.Husein, A.Mammadkhanli, Mir Jalal, H.Abbaszadeh, I.Afandiyev to the period of the Republic. In the second section of the work named "Soviet literary system and the ideology of the Republic" the author draws special attention to distortion of the Republic's realities as a result of Soviet literary propaganda and making

heroes from socially-politically unformed characters in the prose of writers as A.Valiyev, S.Rahimov and etc.

In the third chapter of the monographic research work named "Artistic representation of the period of the Republic in the Azerbaijani migration literature" the author has written about the importance of the Azerbaijani migration literature in bringing to light many unknown events of the Republic's life. Here he researches the literary heritage of M.A.Rasulzadeh, A.Agaoglu, A.Jafaroglu, K.Odar and others which have special role in the struggle of Azerbaijan for independence. In the first section of the chapter named "The history of the Republic as the main description object of the artistic prose created in migration literature" the author researched narrates – a character which represents the history of the Republic in the literary activities of Ummulbanu (Banin), M.Asadbey, Q.Said-as representation of special facts. In the second section named "The period of the Republic in memoirs" the author writes about the struggle life full of suffering of the republic ideology supporters as M.A.Rasulzadeh, H.Baykara, M.Altounbay, N.Shekhzamanli. Here he rests upon these writers memoirs.

In the last chapter of the monographic research work named "Artistic representation of the Republic's life in the artistic prose of the period of independence" the author analyses the artistic representation of the Republic's life in works of literature written after Azerbaijan gained its independence again.In the first

section of the chapter named "The historical-political panorama of the Republic's period in modern prose" special attention is paid to description of that period's events described in works of Alisa Nijat and I.Shikhli – "Angels and Demond" and "My dead world". In the third chapter named "Artistic character of the national independence patriots" the author generalizes the artistic character of national independence patriots in works of Ch.Huseynov, N.Hacizadeh and T.Gourban.

In the conclusion there are generalized scientific-theoretical considerations in different chapters of the monographic research work.

ƏDƏBİYYAT

Azərbaycan türkcəsində

1. Abbaszadə Hüseyn. Burulğanlar, Bakı, Yazıçı, 1989, 352 səh.
2. Abbaszadə Hüseyn. Seçilmiş əsərləri, 3 cilddə, I cild, Bakı, Azərnəşr, 1983, 366 səh.
3. Abutalıbova N., Quliyev Q. İztirab etüdü, «Azərbaycan» jurnalı, 1987, № 12, səh. 161-164
4. Ağaoğlu Əhməd. Sərbəst insanlar ölkəsində, Bakı, Tutu, 2001, 80 səh.
5. Ağaoğlu Əhməd. Üç mədəniyyət, Bakı, Mütərcim, 2006, 154 səh.
6. Axundlu Yavuz. Ədəbi yaddaşdan səhifələr: məqalələr. Bakı, Adiloğlu, 2002, 174 səh.
7. Axundlu Yavuz. Ədəbi portretlər, Bakı, Adiloğlu, 2004, 239 səh.
8. Axundlu Yavuz. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. Bakı, Adiloğlu, 2005, 596 səh.
9. Axundlu Yavuz. Nəriman Nərimanov haqqında roman, «Azərbaycan» jurnalı, 2005, № 7, səh.169-173
10. Axundov Yavuz. M.S. Ordubadi: Həyatı, mühiti, yaradıcılığı, Bakı, Sabah, 1994, 352 səh.
11. Axundov Yavuz. Tarixi roman yeni mərhələdə (1980-1990) Bakı, Maarif, 1998, 175 səh.
12. Akalin G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu, Bakı, 2004, 162 səh.
13. Akçuraoğlu Yusif. Türkçülüyün tarixi, Bakı, Qanun, 2006, 307 səh.
14. Altunbay M. Azadlığa uçan türk, Bakı, Maarif, 1994, 171 səh.
15. Anar. Qürbət mənim içimdə, «Ədəbiyyat qəzeti», 12 iyun 1992
16. Anar. Fransa görüşləri, «Bakı» qəzeti, 9 yanvar 1985

17. Aşırlı Akif. Qafqaz İslam Ordusu, Bakı, Nurlan, 2007, 185 səh.
18. Azərbaycan Demokratik Respublikası, Bakı, Azərnəşr, 1992, 189 səh.
19. Azərbaycan Xalq Cümhuriyyəti, Bakı, Maarif, 1998, 299 səh.
20. Azərbaycan Xalq Cümhuriyyəti, Bakı, Lider, 2004, 439 səh.
21. Azərbaycan Xalq Cümhuriyyətinin aktual problemləri, «Azərbaycan» qəzeti, 30 may 2003
22. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, 2 cilddə, I cild, Bakı, Lider, 2004, 440 səh.
23. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, 2 cilddə, II cild, Bakı, Lider, 2005, 469 səh.
24. Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, III cild, Bakı, Azərbaycan SSR EA, 1960, 906 səh.
25. Azərbaycan sovet ensiklopediyası, 10 cilddə, VII cild, Azərbaycan SSR dövlət nəş-tı, Bakı, 1983, 624 səh.
26. Azərbaycan sovet ədəbiyyatı tarixi, 2 cilddə, I cild, Azərbaycan SSR EA, 1967, 640 səh.
27. Azərbaycan sovet ədəbiyyatı, Bakı, Maarif, 1988, 542 səh.
28. Azərbaycan tarixi, 3 cilddə, III cild, Bakı, Elm, 1973
29. Azərbaycan tarixinin parlaq səhifələri, Bakı, Azərnəşr, 1998, 64 səh.
30. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı, Azərnəşr, 1992, 276 səh.
31. Bayramlı Ofelya. Əlibəy Hüseynzadənin «Qərbin iki dastanında türk» əsəri, «Ədəbiyyat» qəzeti, 22 may 1998
32. Bayramoğlu Alxan. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat, Bakı, Elm, 2003, 276 səh.
33. Bayramoğlu Alxan. Mirzəbala Məmmədzadə və Azərbaycan türk mətbuatı, «Ədəbiyyat qəzeti», 2 may 1997
34. Bleyer Betti. Ciddi problem ciddi də tədqiqat tələb edir, 17 avqust 2007, №32 (3575) səh. 3
35. Cabbarlı Cəfər. Əsərləri, 4 cilddə, II cild, Bakı, Şərq-Qərb, 2005, 285 səh.

36. Cabbarlı Nikpur. Mühacirət və klassik ədəbi irs. Bakı, Elm, 2003, 173 səh.
37. Cabbarlı Nikpur. Cəfər Cabbarlı mühacirət ədəbiyyatşünaslığında, «Azərbaycan» jurnalı, 2002, №3
38. Cəfəroğlu Nizami. Azərbaycan mühacirət ədəbiyyatı, «Ədəbiyyat» qəzeti, 5 aprel 1991
39. Cəmşid Şamil. Sirlər açılır, Bakı, Tural-Ə, 2001, 84 səh.
40. Çəmənzəminli Yusif Vəzir. Müstəqilliyimizi istəyiriksə, Bakı, Gənclik, 1994, 72 səh.
41. Çəmənzəminli Yusif Vəzir. Əsərləri, 3 cilddə, I və II cildlər, Bakı, Avrasiya Press, 2005, 360; 376 səh.
42. Elçin. Məmməd Əmin Rəsulzadə, Bakı, Şərq-Qərb, 1994, 24 səh.
43. Eminalıyev Eyvaz. Azərbaycan milli memuar ədəbiyyatı, Bakı, Yurd, 1999, 132 səh.
44. Əbülhəsənli Elşən. Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi, Bakı, 2006, 132 səh.
45. Əfəndiyev Əmin. İlyas Əfəndiyevin yaradıcılığı, Bakı, Elm, 2000, 310 səh.
46. Əfəndiyev İlyas. Seçilmiş əsərləri, 6 cilddə, V cild, Bakı, Yazıçı, 1985, 343səh.
47. Əhmədov Teymur. XX əsr Azərbaycan yazıçıları, Bakı, Nurlan, 2004, 946səh.
48. Ələkbərzadə Əbülhəsən. Seçilmiş əsərləri, 3 cilddə, I cild, Bakı, Azərnəşr, 1984, 399 səh.
49. Ələkbərzadə Əbülhəsən. Yoxuşlar, Bakı, Azərnəşr, 1962, 530 səh.
50. Əlişanoğlu Tehran. Əsrdən doğan nəsr, Bakı, Nurlan, 1999, 116 səh.
51. Əliyeva Aybəniz. «Azərbaycan» (1918-1920) qəzetində ədəbiyyat məsələləri, Bakı, Gənclik, 2002, 114 səh.
52. Əliyeva Aybəniz. Ədəbiyyatımızın yenidən tədqiqi, «Açıq söz» qəzeti, 7 mart 1991
53. Əliyeva Aybəniz. «Yaşıl qələm» cəmiyyəti, «Ədəbiyyat və incəsənət» qəzeti, 7 noyabr 1990
54. Əliyev M. Məhəmməd Əmin Rəsulzadə, «Azərbaycan» jurnalı, 1989, №10

55. Fikrin karvanı. Bakı, Yazıçı, 1984, 348 səh.
56. Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1985
57. Hacıyev Asif. Mirzə İbrahimov, Bakı, Yazıçı, 1982, 207 səh.
58. Hacızadə Nahid. Yaşa, ey haqq! «Ulduz» jurnalı, 2007, № 4, səh. 32-37
59. Həsənov Cəmil. «Ağ ləkə»lərin qara kölgəsi, Bakı, Gənclik, 1991, 200 səh.
60. Həsənova Şəlalə. Mühacirət irsimizdən səhifələr, Bakı, Maarif, 1995, 152 səh.
61. Həşimova Aygün. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti, Bakı, Bilik, 1992, 168 səh.
62. Hüseyn Mehdi. Səhər, Bakı, Gənclik, 1989, 616 səh.
63. Hüseyn Mehdi. Komissar, Bakı, Gəncik, 1980, 168 səh.
64. Hüseyn Mehdi. Əsərləri, 10 cilddə, III cild, Bakı, Azərnəşr, 1960
65. Hüseyn Seyid. Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb, 2006, 326 səh.
66. Hüseynli Tural. Azərbaycan Demokratik Respublikasının ağır günləri haqqında roman, Bakı, Nurlan, 2002, 48 səh.
67. Hüseynoğlu Tofiq. Ədəbiyyatla yaşayıram, Bakı, Azərnəşr, 1993, 326 səh.
68. Hüseynoğlu Tofiq. Söz-tarixin yuvası, Bakı, Elm, 2000, 164 səh.
69. Hüseynov Akif. Nəsr və zaman, Bakı, Yazıçı, 1982, 185 səh.
70. Hüseynov Şirməmməd. Müstəqilliyin çətin yolu, Bakı, Azərnəşr, 1996, 326səh.
71. Hüseynova Törəxanım. Uzaq qərbdə parlayan ulduz, «Söz» jurnalı, 1989, № 1-2
72. Hüseynova Törəxanım. Fransa göylərində Şərq ulduzu, «Ədəbiyyat qəzeti», 20 may 1992
73. Hüseynzadə Əli bəy. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar, Bakı, Azərnəşr, 1996, 253 səh.
74. Hüseynzadə Əli bəy. Türklər kimdir və kimlərdən ibarətdir, Bakı, Mütərcim, 1997

75. Hüseynzadə Əli bəy. Qərbin iki dastanında türk, Bakı, Ağrıdağ, 1998
76. Xəlilov Pənah. Əli və Nino problemləri, Bakı, Çaşıoğlu, 2005, 75 səh.
77. İbrahimli Xaləddin. Azərbaycan siyasi mühacirəti, Bakı, Elm, 1996, 304səh.
78. İbrahimov Mirzə. Seçilmiş əsərləri, 2 cilddə, II cild, Bakı, Şərq-Qərb, 2005, 520 səh.
79. İsgəndərov Anar. M.Ə. Rəsulzadə və Azərbaycan istiqlalı, «Azərbaycan» qəzeti, 28 yanvar 1999
80. İsmayılov Yaqub. Mir Cəlalın yaradıcılığı, Bakı, Elm, 1975, 236 səh.
81. İsmayılov Yaqub. Əbülhəsənin yaradıcılığı, Bakı, Elm, 1986, 208 səh.
82. İsmayılov Yaqub. İlyas Əfəndiyevin yaradıcılığı, Bakı, Elm, 1991, 262 səh.
83. İsmayılov Yaqub. Ənvər Məmmədxanlı, Bakı, Elm, 2000, 164 səh.
84. İsmayılov Yaqub. İsmayıl Şıxlı: həyatı, mühiti, sənəti, Bakı, Ayna Mətbu Evi, 1999, 223 səh.
85. Qafarov T. Azərbaycan tarixi (1920-1991), Bakı, Mütərcim, 1999, 279 səh.
86. Qarayev Yaşar. Tarix: Yaxından və uzaqdan, Bakı, Sabah, 1995, 712 səh.
87. Qarayev Yaşar. Azərbaycan cümhuriyyəti, «Azərbaycan» jurnalı, 1990, №11, s.77-81
88. Qarayev Yaşar. Tarix və taleyin yol ayrıcında «Ədəbiyyat qəzeti», 2 fevral 1996, №5
89. Qarayev Yaşar. Azərbaycan cümhuriyyəti, «Elm» qəzeti, 2-16 iyun 1990
90. Qasımzadə Qasım. Mühacirət və müasir Azərbaycan ədəbiyyatının bəzi məsələləri, «Ədəbiyyat qəzeti», 22 noyabr 1991, № 47 (2494)
91. Qoca Hamlet. Banin vəfat elədi, «Ədəbiyyat qəzeti», 21 may 1993
92. Qoca Hamlet. Qafqaz günləri, «Azərbaycan» jurnalı, 1989, №2

93. Quliyev Mustafa. Azərbaycan proletar yazıçıları qurultayının yekunları, «İnqilab və mədəniyyət» jurnalı, 1929, № 10
94. Quliyev Vilayət. Əhməd Cəfəroğlu, «Ədəbiyyat qəzeti», 15 mart 1991
95. Quliyev Vilayət. Ağaoğlular, Bakı, Ozan, 1997
96. Quliyev Vilayət. Nəriman Nərimanov və Əhməd Ağaoğlu, «Xalq qəzeti», 26 oktyabr 1996
97. Quliyev Vilayət. Tarixdə iz qoyan şəxsiyyətlər, Bakı, Ozan, 2000, 538 səh.
98. Quliyev İbrahim. Ədəbiyyatımızın azadlıq mücadiləsi, Bakı, Qanun, 2005, 103 səh.
99. Qurban Teyyub. Dönməzlik, Bakı, Şirvannəşr, 1997, 113 səh.
100. Qurbanov Şamil. Bədii sözün gücü ilə, «Ədəbiyyat qəzeti», 24 yanvar 1992
101. Məhəmməd Əsəd bəy. Volfqanq Son Vaysl. Allahu Əkbər. İslam dünyasının Əbdül Həmiddən İbn Səuda qədər çöküşü və qalxışı, Bakı, BDU nəşri, 1998, 399 səh.
102. Məhəmməd Əsəd bəy. Manuela. Məhəbbət və neft. Bakı, Mütərcim, 2005, 202 səh.
103. Məmmədxanlı Ənvər. Burulğan, Azərnəşr, 1934
104. Məmmədxanlı Ənvər. Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Yazıçı, 1985, 292 səh.
105. Məhəmməd Əsəd bəy. Şərqdə neft və qan. Bakı, Nurlan, 2005, 327 səh.
106. Məmmədquluzadə Cəlil. Əsərləri, 6 cilddə, I cild, Bakı, Azərnəşr, 1983, 348səh.
107. Məmmədquluzadə Cəlil. Əsərləri, 6 cilddə, VI cild, Bakı, Azərnəşr, 1985, 311 səh.
108. Məmmədov Əflatun. Abdulla Şaiq, Bakı, Gənclik, 1983, 212 səh.
109. Məmmədov Xəqani. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər), Bakı, Sabah, 1996, 174 səh.
110. Məmmədov Kamran. Yusif Vəzir Çəmənzəminli, Bakı, Azərnəşr, 1987, 269 səh.

111. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat» nəşriyyatı, 1992, 246 səh.
112. Məmmədzadə Mirzə Bala. Millət hər şeydən əvvəl özünü bilməlidir..., «Ədəbiyyat qəzeti», 28 may 1993, №21 (2872)
113. Məmmədzadə Mirzə Bala. Azərbaycan çağırıyor, «Açıq söz», 1990, №13
114. Məmmədzadə Mirzə Bala. 27 nisan işğalı və «Müsavat», «Ulduz» jurnalı, 1992, №3-4
115. Məmmədzadə Mirzə Bala. İstilaya qarşı savaşda «Müsavat», «Dan ulduzu», 8 may 1992
116. Məmmədzadə Mirzə Bala. Vətən qaldı, «Ədəbiyyat qəzeti», 18 oktyabr 1991
117. Məmmədzadə Mirzə Bala. Azəri türk ədəbiyyatının dünəni və bu günü, «Ədəbiyyat qəzeti», 17, 24 sentyabr 1993
118. Məmmədzadə Mirzə Bala. Tutduğumuz yol, «İstiqlal» qəzeti, 18 yanvar 1920
119. Mir Cəlal. Qocaman ədibin yaradıcılıq yolu, «Ədəbiyat qəzeti», 17 mart 1947
120. Mir Cəlal. Seçilmiş əsərləri, 2 cilddə, I cild, Bakı, Azərnəşr, 1986, 464 səh.
121. Mir Cəlal. Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb, 2005, 384 səh.
122. Musabəyov İbrahimbəy. Neft və milyonlar səltənətində, Bakı, Şərq-Qərb, 2006, 149 səh.
123. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, I-II cildlər, Bakı, BDU nəşri, 2007, 504; 564 səh.
124. Nazim Əli. Şeirimizin və şüurumuzun xəstəlikləri haqqında, «İnqilab və mədəniyyət», 1929, № 12, s.31
125. Nəsibzadə Nəsib. Azərbaycan Demokratik Respublikası, Bakı, Elm, 1990, 112 səh.
126. Nicat Əlisa. Mələklər və İblislər, Bakı, Adiloğlu, 2007, 306 səh.
127. Ordubadi Məmməd Səid. Əsərləri, 8 cilddə, III cild Bakı, Azərnəşr, 1964, 580 səh.

128. Ordbadi Məmməd Səid. Əsərləri, 8 cilddə, IV cild, Bakı, Azərnəşr, 1965, 340 səh.
129. Ordubadi Məmməd Səid. Əsərləri, 8 cilddə, V cild, Bakı, Azərnəşr, 1965, 340 səh.
130. Ordubadi Məmməd Səid. Əsərləri, 8 cilddə, VI cild, Bakı, Azərnəşr, 1965, 338 səh.
131. Rəhimov Süleyman. Şamo, IV cild, Bakı, Azərnəşr, 1978, 515 səh.
132. Rəhimov Süleyman. Şamo, V cild, Bakı, Azərnəşr, 1978, 500 səh.
133. Rəsulzadə Məhəmməd Əmin. Əsrimizin Səyavuşu, Bakı, Gənclik, 1991, 112 səh.
134. Rəsulzadə Məhəmməd Əmin. Panturanizm haqqında «Azərbaycan» jurnalı, 1991, №6
135. Rəsulzadə Məhəmməd Əmin. Azərbaycan cümhuriyyəti, Bakı, Elm, 1990, 116 səh.
136. Rəsulzadə Məhəmməd Əmin. Qafqaziya türkləri, «Azərbaycan» jurnalı, 1990, №12
137. Rəsulzadə Məhəmməd Əmin. Qafqaziya türkləri, «Azərbaycan» jurnalı, 1991, №1
138. Rəsulzadə Məhəmməd Əmin. Stalinlə ixtilal xatirələri, Bakı, Elm, 1991, 84səh.
139. Saraclı Əflatun. Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində, Bakı, Elm, 2007, 424 səh.
140. Seyidov Yəhya. Mehdi Hüseyn, Bakı, Yazıçı, 1979, 289 səh.
141. Səid Qurban. Əli və Nino, Bakı, Yazıçı, 1993, 224 səh.
142. Səid Qurban. Altunsaç, Bakı, Nurlan, 2005, 296 səh.
143. Səmədova Nailə. Azərbaycan memuar ədəbiyyatı tarixi, Bakı, Nurlan, 2006, 338 səh.
144. Simürğ Tağı Şahbazi. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1983
145. Sultanlı Vaqif. Azadlığın üfüqləri, Bakı, Şirvannəşr, 1997
146. Sultanlı Vaqif. Ağır yolun yolçusu, Bakı, Azərnəşr, Bakı, 1996

147. Sultanlı Vaqif. Məhəmməd Əmin Rəsulzadənin ədəbi dünyası, Bakı, BDU nəşri, 1993
148. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı, Bakı, Şirvannəşr, 1998, 160 səh.
149. Şaiq Abdulla. Seçilmiş əsərləri, Bakı, Gənclik, 1984, 444 səh.
150. Şaiq Abdulla. Seçilmiş əsərləri, 3 cilddə, I cildlər, Bakı, Avrasiya-press, 2005, 496 s.
151. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri, Bakı, «Azərbaycan» nəşriyyatı, 1997, 158 s.
152. Şıxlı İsmayıl. Ölən dünyam, Bakı, Azərnəşr, 1995, 152 səh.
153. Tahirli Abid. Azərbaycan mühacirəti, Bakı, Tural-Ə, 2001, 344 səh.
154. Tahirli Abid. Azərbaycan mühacirət mətbuatı, Bakı, Qapp-poliqraf, 2002, 524 səh.
155. Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi, 2 cilddə, II cild, Bakı, Azərnəşr, 1994, 432 səh.
156. Ümmülbanu (Banin). Qafqaz günləri, Bakı, Yazıçı, 1992, 208 səh.
157. Ümmülbanu (Banin). İvan Buninin son höcəti, «Azərbaycan» jurnalı, 1987, №12, səh. 98-161
158. Ümmülbanu (Banin). Paris günləri, «Azərbaycan» jurnalı, 2002, № 11, səh.107-150.
159. Ümmülbanu (Banin). Paris günləri, «Azərbaycan» jurnalı, 2002, № 12, səh.99-149.
160. Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə, Bakı, Gənclik, 1991, 306səh.
161. Yaqublu Nəsiman. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə, Bakı, 2001, 155 səh.
162. Zaman Şamil. Azadlıq çarçısı, «Ədəbiyyat qəzeti», 25 iyun 1993
163. Zaman Şamil. «Qafqaz günləri», «Ədəbiyyat qəzeti», 21 may 1993
164. Ziyadxanov Adil. Azərbaycan, Bakı, «Azərbaycan» nəşriyyatı, 1993, 175 səh.

165. Ağaoğlu Ahmet. Devlet ve ferd. İstanbul, 1936
166. Ağaoğlu Samet. Babamdan hatıralar, Ankara, 1940
167. Ağaoğlu Samet. Babamın arkadaşları, İstanbul, Nebioğlu Yayinevi, 1938
168. Ağaoğlu Süreyya. Bir ömür böyle geçdi, İstanbul, 1973
169. Ahundlu Yavuz. İstiklalın yolu, Ankara, Ankara Universitesi basınevi, 1999, 337 s.
170. Aküzüm Feyzi. M.Emin Resulzadeye göre çeşitli cebheleriyle Azərbaycan istiklal mücadelesi, Ankara, 1977, 20 s.
171. Bayat Ali Haydar. Hüseynzade Alibey, Ankara, Atatürk Kültür Merkezi başkanligi, 1998, 410 s.
172. Baykara Hüseyn. Azərbaycan İstiklal Mücadelesi tarihi, İstanbul, 1975
173. Caferoğlu Ahmet. Azərbaycan edebiyatında istiklal mücadelesi, «Azerbaycan Yurd Bilgisi», II, 1932
174. Caferoğlu Ahmet. Modern Azərbaycan edebiyatına toplu bir bakış «Azerbaycan Yurd Bilgisi», IV, 1954, №37, s.40-48
175. Caferoğlu Ahmet. Azərbaycan, İstabul, Cümhuriyyet Matbaasi, 1940
176. Kabaklı Ahmet. Türk edebiyyatı, 3 cildde, I cilt, Türkiye yayın evi, 1967
177. Karaca Ahmet. Azerbaycan milli kurtuluş harekatının mühaceret hayatındakı esas noktaleri, «Azerbaycan» türk – kültür dergisi, 1991, sayı 282
178. Mehmetzade Mirze Bala. Azerbaycan misaki-millisi, İstanbul, 1925
179. Mehmetzade Mirze Bala. Önal S. Azərbaycan mühacirlik matbuatının altmış sekiz yıllığı, «Azerbaycan» (Ankara), 1991, № 282
180. Münşi Hilal. Azerbaycan Cümhuriyeti, Berlin, 1930
181. Resulzade Mehmet Emin. İstiklal mefkuresi ve Genclik, İstanbul, 1925

182. Resulzadə Mehmet Emin. Azerbaycan Cümhuriyeti hakkında, İstiklal, Berlin, 1933, №2
183. Resulzade Mehmet Emin. Kafkaziya türkleri, İstanbul, 1993, 143 s.
184. Resulzade Mehmet Emin. Azerbaycan problemi, Ankara, Mars matbuaası, 1996, 42 s.
185. Resulzade Mehmet Emin. Bir türk milliyetçisinin Stalinle ihtilal hatıraları, İstanbul, Turan yayincilik, 1997, 119 s.
186. Şeyhzamanlı Naki. Biz ve onlar, İstanbul, Milli mecmua matbuaası, 1934, 33 s.
187. Şimşir Sebahattin. Mehmet Emin Resulzadenin Türkiyedeki hayatı, faaliyetleri ve düşünceleri, Ankara, Ankara Universitesi basinevi, 1995, 128 s.
188. Tekiner Süleyman. Azerbaycanda fikir hareketleri, «Kafkasya» (Münih), 1952, № 11-12

Rus dilində

189. Абуталыбов Рамиз. Годы и встречи в Париже, Москва, Изд-во «СЖС медиа», 2006, 222 стр.
190. Гулиев Гасан. Этот загадочный Курбан Саид, или жизнь и творчество Мухаммеда Асад-бека, Баку, 2002, 184 стр.
191. Гулиев Гасан. Эмигрантская литература Азербайджана, Баку, изд. «Нурлан», 2004, 284 стр.
192. Гусейнов Чингиз. Доктор Н., кн-1, М., «Московский рабочи», 1998, 245стр.
193. Гусейнов Чингиз. Доктор Н., кн-2, М., «Московский рабочи», 1998, 279стр.
194. М.Асад-бек. Сталин, Баку, изд. «Нурлан», 2003
195. М.Асад-бек. Мануела. Любовь и нефть, Баку, изд. «Мутарджим», 2005, 204 стр.
196. Топчибашев Али Марданбек. Письма из Парижа, Баку, Азернешр, 1998

KİTABIN SƏHİFƏLƏRİNDƏ

Vətən sevgisi ilə (Qara Namazov) 3
GİRİŞ 6
CÜMHURİYYƏT DÖVRÜ VƏ BƏDİİ NƏSR 16
a) Dövrün siyasi-ideloji mənzərəsi 17
b) Cümhuriyyət həyatının sosial- psixoloji və mənəvi- əxlaqi təzahürü 24

SOVET DÖVRÜ BƏDİİ NƏSRİNDƏ CÜMHURİYYƏT MÖVZUSU 41
a) Cümhuriyyət dövrü siyasi münaqişələr və sinfi mübarizələr kontekstində 42
b) Sovet ədəbi konyuktur sistemi və Cümhuriyyət məfkurəsi 77

AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATINDA CÜMHURİYYƏT DÖVRÜNÜN BƏDİİ ƏKSİ 87
a) Cümhuriyyət tarixi mühacirətdə yaranan bədii nəsrin əsas təsvir obyekti kimi 91
b) Cümhuriyyət dövrü memuar ədəbiyyatında 133

MÜSTƏQİLLİK DÖVRÜ BƏDİİ NƏSRİNDƏ CÜMHURİYYƏT HƏYATININ TƏSVİRİ 141
a) Cümhuriyyət dövrünün tarixi-siyasi panoramı çağdaş bədii nəsrdə 141
b) Milli- istiqlal mücahidlərinin bədii obrazı 147
NƏTİCƏ 159
SUMMARY 163
ƏDƏBİYYAT 167

Samirə Məmmədli
(Samirə Məhəmməd qızı Məmmədova)

AZƏRBAYCAN CÜMHURİYYƏTİ BƏDİİ NƏSRDƏ

(Azərbaycan türkcəsində)

Nəşriyyatın direktoru:
professor Nadir Məmmədli

Kompüter tərtibatı: **Məhəbbət Köyük**
Korrektoru: **Selcan Sultanlı**

Yığılmağa verilmiş ***10.04.2009***
Çapa imzalanmış ***03.05. 2009***
Həcmi ***11,2*** *çap vərəqi*
Formatı 60 /84
Sayı 500
Qiyməti müqavilə ilə

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

A2 2009/2118



467